AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FƏLSƏFƏ və SİYASİ-HÜQUQİ TƏDQİQATLAR
İNSTİTUTU

---

SADİR MƏMMƏDOV

# BMT-nin NARKOTİKLƏR HAQQINDA KONVENSİYALARI və AZƏRBAYCAN RESPUBLİKASININ CİNAYƏT - PROSESSUAL QANUNVERİCİLİYİ

BAKI – 2006

Elmi redaktor: R. İsgəndərov h.e.d.,professor

Rəyçilər: F.M. Səməndərov h.e.d.,professor
Ş.M. Musayev t.e.d.,professor

Sadir Surxay oğlu Məmmədov. «BMT-nin narkotiklər haqqında konvensiyaları və Azərbaycan respublikasının cinayət-prosessual qanunvericiliyi». Monoqrafiya. Bakı, 2006, 154 səh.

*Monoqrafiyada Birləşmiş Millətlər Təşkilatının müxtəlif dövrlərdə narkotiklərlə bağlı qəbul olunmuş konvensiyalarını zəruri edən amillər, bəşəriyyət üçün qlobal təhlükə mənbəyinə çevrilən bu bəlaya qarşı mübarizənin qarşılıqlı əməkdaşlıq şəraitində təşkili yolları, dünyanın bəzi dövlətlərində və Azərbaycanda narkosituasiya, narkotik cinayətkarlıqla mübarizədə Azərbaycan Respublikasının Cinayət-Prosessual Qanunvericiliyinin rolu araşdırılır.*

*Kitab elmi ictimaiyyət, tələbələr, hüquq mühafizə orqanlarının əməkdaşları və geniş oxucu auditoriyası üçün nəzərdə tutulmuşdur.*

S $\frac{1447-0006}{1957(H)-0006}-2006$ ADPU

*«Narkotizmə qarşı mübarizə hər bir ölkənin, xalqın, millətin fiziki və şüurlu sağlamlığı uğrunda apardığı mübarizədir»*

**Ümummilli liderimiz Heydər Əliyev**

## GİRİŞ

Azərbaycan müstəqillik əldə etdikdən sonra narkotik vasitələrin, psixotrop maddələrin və prekusorların qanunsuz dövriyyəsinə, narkomaniyaya qarşı mübarizənin gücləndirilməsini nəzərdə tutan bir çox konvensiyalara qoşulmuş, qanunvericilik aktları qəbul etmiş və bütün bunların sayəsində müəyyən nailiyyətlər əldə etmişdir.

1996-cı ildə Ümummilli liderimiz Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin fərmanı ilə ölkəmizdə Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qraşı Mübarizə üzrə Dövlət Komissiyası yaradılmışdır. Ölkə başçısının 2000-ci il iyunun 15-də imzaladığı fərmanla isə «Narkotik vasitələrin, psixotrop maddələrin və prekusorların qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə Proqram» təsdiq olunmuşdur. Bu mühüm sənəd mükəmməl qanunvericilik bazasının hazırlanmasına və bəşəri bəlaya qarşı

mübarizə tədbirlərinin stimullaşdırılmasına xidmət etmişdir. 2001-ci ildə isə Milli Məclis tərəfindən «Narkoloji xidmət və nəzarət haqqında» Azərbaycan Respublikasının Qanunu qəbul olunmuşdur. Bu qanunda narkoloji xəstələrin və onların doğurduğu mənfi tibbi və sosial nəticələrin qarşısını almaq məqsədilə narkoloji xidmət və nəzarət sahəsində həyata keçirilən tədbirlər müəyyən edilmişdir. Hazırda narkoloji sağlamlığın, insan hüquqlarının təmin edilməsi məqsədilə həyata keçirilən tibbi, inzibati, sosial və xəbərdaredici tədbirlərin məcmusu olan narkoloji nəzarətin tənzimlənməsi sahəsində xeyli iş görülməkdədir.

Bu gün dünyanın elə bir ölkəsi tapılmaz ki, o, narkotiklərin qanunsuz dövriyyəsi və onun törətdiyi bəlalarla rastlaşmasın. Həqiqətən də narkotik cinayətkarlıq insan cəmiyyətinin mənəvi və əxlaqi dəyərlərinə böyük zərbə vurur, insanların həyat və sağlamlığı üçün ciddi təhlükə yaradır.

Bütün bunları nəzərə alan və bəşəriyyətin gələcəyini düşünən bəzi dünya dövlətləri XX yüzilliyin əvvəllərindən başlayaraq bu müdhiş bəlaya qarşı mübarizənin getdikcə qloballaşacağını hiss edərək bir sıra regional birliklər yaratmaqla ağ ölüm təhlükəsini səngitməyə çalışmışlar. Lakin belə cəhdlər də həmin prosesin qarşısını ala bilməmişdir. Narkotizmin sərhədləri



genişləndikcə nəhayət ona qarşı mübarizə bir qrup dövlətin problemi çərçivəsindən beynəlxalq səviyyəyə qalxmışdır. Vəziyyətin belə bir kritik həddə çatması bəşəri problem kimi nəhayət Birləşmiş Millətlər Təşkilatının prioritet məsələlərindən biri kimi gündəmə gəlmişdir. Nəticədə BMT «Narkotik vasitələr haqqında 1967-ci il Konvensiyası»nı, «Psixotrop maddələr haqqında 1971-ci il Konvensiyası»nı və 1988-ci ildə isə «Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında Konvensiya» qəbul etdi. Təbii olaraq bu konvensiyaların müddəaları dünyanın hər bir sivil dövlətinin qanunvericiliyində prioritet təşkil etməli idi. Yəni qanunvericiliyə əsasən narkotik cinayətkarlıqla, narkomaniya ilə mübarizə aparmaq, bu işlərin səmərəli təşkili və mütəşəkkil qaydada həyata keçirilməsi dövlət orqanlarının ümdə vəzifəsi olmalıdır. Problemlə bağlı qəbul olunan qərarların hər birində cəmiyyətin əsasını təşkil edən insanların sağlamlığının qorunmaı strateji məsələ kimi öz əksini tapmalıydı.

Müstəqil Azərbaycan dövləti də dünyanın ümumbəşəri dəyərlərinə daima hörmət bəsləyən sivil bir dövlət kimi BMT-nin narkotiklər haqqında konvensiyalarının tələblərinə uyğun olaraq bu məsələləri milli qanunvericiliyə uyğun şəkildə

özünün cinayət-prosessual qanunvericiliyində təsbit etmişdir.

Əsasını tədqiqatlarımızın nəticələri təşkil edən «BMT-nin narkotiklər haqqında konvensiyaları və Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyi» adlı kitabda da bu məsələlər araşdırılmaya cəlb edilmişdir.



# FƏSİL 1. NARKOTİKLƏRLƏ BAĞLI BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ KONVENSİYALARININ QƏBUL EDİLMƏSİNİ ZƏRURİ EDƏN AMİLLƏR

## *1.1. BMT və Narkotiklər haqqında Konvensiyalar qanunvericilikdə*

Birləşmiş Millətlər Təşkilatı yaranana qədər ümumən dünya dövlətlərinin hamısı olmasa da, müəyyən qismi narkotiklərdən istifadə prosesinin gələcəkdə ümumbəşəri bəlaya çevriləcəyini qabaqcadan düzgün proqnozlaşdırdıqlarından onların qarşısını almaqdan ötrü bir sıra regional tədbirlər həyata keçirməyə başlamışdılar. Narkotiklərlə bağlı konvensiyalar isə BMT-nin yaranmasından sonrakı dövrə aiddir.

Hesab edirik ki, problemi araşdırarkən fikirlərimizi daha yaxşı əsaslandırmaq üçün ilk növbədə bəzi suallara aydınlıq gətirməliyik. Yəni, «Birləşmiş Millətlər Təşkilatı nədir?», «bu beynəlxalq təşkilat necə yaranmışdır və necə fəaliyyət göstərir?», «BMT-nin narkotiklərlə bağlı hansı konvensiyaları mövcuddur?» və s. məsələlərin izahı istər-istəməz önəmli mahiyyət daşıyır.

Məlumdur ki, birinci dünya müharibəsi milyonlarla insanın həyatına son qoydu. Müharibənin dəhşətlərini görmüş Avropa xalqları

birgə bəyanat qəbul etdilər: «Müharibə olmasın!» Sülhü müdafiə naminə ictimai təşkilatın yaradılması ilə bağlı ABŞ-ın prezidenti Vudro Vilsonun irəli sürdüyü təklif rəğbətlə qarşılandı. Beləliklə, 1919-cu ildə Millətlər Cəmiyyəti təsis olundu. Bu təşkilat elə yarandığı ilk gündən çətinliklərlə qarşılaşdı. ABŞ senatı prezidentin Millətlər Cəmiyyətinə daxil olmaq barədə təklifini rədd etdi. Sovet İttifaqı kommunist rejiminə görə Millətlər Cəmiyyətinə qəbul olunmadı. Almaniya isə bu Cəmiyyətə yalnız 1926-cı ildə qoşuldu.

Dünyada sülhün və əmin-amanlığın, insan hüquqlarının qorunmasının qarantı sayılan ən nüfuzlu beynəlxalq təşkilat nəhayət ki, XX əsrin birinci yarısınn sonuna yaxın yaradıldı. Nəhayət ki, müxtəlif çətinliklərə baxmayaraq, 1945-ci ildə Birləşmiş Millətlər Təşkilatı yaradılarkən onun Nizamnaməsini 51 dövlət imzaladı. 1946-50-ci illərdə daha 9 ölkə bu təşkilata daxil oldu. Sonrakı beş il ərzində BMT-yə heç bir ölkə qəbul edilmədi. Bunun səbəbi soyuq müharibə idi. Onun təsiri hətta BMT-də də hiss olunurdu. Baş Məclisdə həm qərb, həm də şərq ölkələri səsvermə zamanı öz səsi ilə qarşı tərəfə dəstək verə biləcək ölkənin BMT-yə daxil olmasına maneçilik törətmək məqsədilə öz veto hüquqlarından istifadə edirdilər. 1955-ci ildə BMT-yə qəbul qaydaları tam müəyyənləşdi.



Bundan sonra daha 16 ölkə onun sıralarına qatıldı.

Məlumdur ki, 1992-ci ildə Azərbaycan və digər 12 ölkə BMT-nin tam hüquqlu üzvü oldu.

Hazırda (2000-ci il) BMT özündə dünyanın 189 ölkəsini birləşdirir. 1945-ci ildə bu ölkələrin üçdə bir hissəsi müstəmləkə idi. BMT-nin ən yeni üzvü Filippindən şərqdə – Sakit okeanda yerləşən Tuvalu dövlətidir.

Miqyasından və əhalisinin sayından asılı olmayaraq, hər bir ölkə BMT-nin Baş Məclisində bir səslə təmsil olunmuşdur. (Bu məsələlərə aydınlıq gətirməkdə əsas məqsədimiz odur ki, narkotiklər haqqında konvensiyaların məqsəd və məramını daha yaxşı dərk etmək üçün oxucuda BMT haqqında vacib bilgilər olsun – S.M.)

Göründüyü kimi, ədalətli prinsiplər üzərində qurulmuş bu beynəlxalq təşkilat bu günə kimi uğurla fəaliyyət göstərir.

BMT-nin yaranması və fəaliyyətinin əsas təməl prinsipini ümümbəşəri dəyərlərə əsaslanan dinc yanaşı yaşamaq, insan hüquqları və s. məsələlər təşkil edir. Bu prinsiplərə sadiqik BMT-nin nizamnaməsində ona üzv olan ölkələrin xalqları tərəfindən də qətiyyətlə bildirilir:

- bizim dövrümüzdə bəşəriyyəti iki dəfə dərin kədərə qərq etmiş müharibənin doğurduğu fəlakətlərdən gələcək nəsilləri qurtarmaq;

- əsas insan hüquqlarına, insan şəxsiyyətinin ləyaqət və dəyərinə, qadınların və kişilərin, böyük və kiçik xalqların bərabər hüquqlu olmalarına inamı bir daha təsdiq etmək;

- ədalətin və beynəlxalq müqavilələrdən, həmçinin hüququn digər mənbələrindən irəli gələn öhdəliklərə hörmətin təmin olunmasına şərait yaratmaq;

- insanlara daha geniş azadlıqlar verməklə sosial tərəqqiyə, həyat şəraitinin yaxşılaşdırılmasına nail olmaq;

və bu məqsədlə

- tolerantlıq göstərmək və mehriban qonşular kimi bir-birimizlə sülh şəraitində yaşamaq;

- bütün dünyada sülhün və təhlükəsizliyin qorunması üçün qüvvələri birləşdirmək;

- silahlı qüvvələrdən yalnız ümumi maraqlar naminə istifadə ediləcəyinə müvafiq qanunların qəbulu və tətbiqi ilə təminat vermək;

- beynəlxalq aparatdan bütün xalqların iqtisadi və sosial tərəqqisinə yardım üçün istifadə etmək.

Bu məqsədlərə nail olmaq üçün səylərimizi birləşdirməyi qərara alırıq. (BMT Nizamnaməsinin girişindən – S.M.) Sadalanan müddəaların reallığa çevrilməsi üçün çox vaxt regional və ümumən dünya kontekstində birgə əməkdaşlığa, yeni qarşılıqlı fəaliyyətə zəruri ehtiyac yaranır. Bu



amil BMT-nin Funksional komissiyalarının adları sıralanarkən də özünü biruzə verir. Fikrimizi əsaslandırmaq üçün həmin komissiyaların siyahısını nəzərdən keçirək.

- İnsan Hüquqları Komissiyası, Cenevrə, İsveçrə (bax: səh. 25)
- Qadınların Statusu üzrə Komissiya, Nyu-York, ABŞ (bax: səh. 28)
- Cinayətin Profilaktikası və Cinayət Məhkəməsi Komissiyası, Vyana, Avstriya
- Sosial İnkişaf üzrə Komissiya, Vyana, Avstriya
- Narkomaniya ilə Mübarizə Komissiyası, Vyana, Avstriya
- Əhali Problemləri üzrə Komissiya, Nyu-York, ABŞ
- Elm və Texnologiyanın İnkişafı üzrə Komissiya, Cenevrə, İsveçrə
- Davamlı İnkişaf üzrə Komissiya, Nyu-York, ABŞ

Siyahıdan aydın görnür ki, komissiyalar məkan baxımından müxtəlif ölkələrdə yerləşir. Lakin məqsəd və məram eyni olduğu üçün istər-istəməz məkan amili burada arxa plana keçir və koordinasiyalı fəaliyyət önə keçir. Sadalanan 8 funksional komissiyanın biri araşdırmağa çalışdığımız problemlə bağlı, yeni BMT-nin narkotiklərlə ilgili konvensiyalarının həyata keçirilməsinin bəzi funksiyalarını yerinə yetirir ki,

bu da Vyanada fəaliyyət göstərən «Narkomaniya ilə mübarizə komissiyası»dır.

Tədqiqat prosesində araşdırdığımız mənbələrin bəzilərində çox təəssüf ki, BMT-nin mühüm konvensiyaları sadalanarkən narkotiklərlə bağlı konvensiyaların adı çəkilmir. Məsələn, «İnsan hüquqlarının tədrisi» adlı mənbədə 1951-ci ildən başlayaraq 1989-cu ilə qədər BMT-nin 13 mühüm konvensiyasının siyahısı verilir, lakin dünya miqyasında qlobal miqyaslı problemə çevrilən narkotiklərlə bağlı konvensiyalara yer verilmir. Halbuki dünyada baş alıb gedən cinayətlərin çoxunun nüvəsi, motivini təşkil edən narkotiklərlə mübarizəyə yönəldilmiş konvensiyaların da adını çəkmək olardı.

BMT-nin fəaliyyəti dövründə təkmilləşmə prosesinin nəticəsi kimi «Uşaq hüquqları konvensiyası»nı da xüsusilə qeyd etmək lazımdır.

Yaxşı olan hər şey uşaqlar üçün! – prinsipi əsasında hazırlanan Uşaq Hüquları Konvensiyası 20 noyabr 1989-cu ildə BMT-nin Baş Məclisi tərəfindən yekdilliklə qəbul edilmişdir. Bu sənəd beynəlxalq hüquqi qüvvəyə malikdir. Buna görə də, iştirakçı dövlətlərin hökumətləri onun icrası üçün məsuliyyət daşıyırlar. Konvensiyanı imzalamış hər bir dövlətin vətəndaşı öz hökumətindən onun hər bir bəndinə hörmətlə yanaşmağı tələb edə bilər.



26 yanvar 1990-cı ildə Konvensiya imzalanmaq üçün açıq elan edildi və elə həmin gün onu 62 dövlət imzaladı – bu ilk gün üçün rekord nəticə idi. Lakin bununla belə, həmin sənədin imzalanması hələ onun müddəalarının yerinə yetirilməsi üzrə birbaşa öhdəlik yaratmır. Sənəd yalnız ratifikasiya edildikdən sonra dövlətlər ona əməl etməyi öz üzərlərinə götürürlər. Bu o deməkdir ki, Konvensiyanın müddəaları dövlətlərin milli qanunlarında öz əksini tapmalıdır.

Hazırda (2000) Uşaq Hüquqları Konvensiyasına 185 ölkə, o cümlədən Azərbaycan da (1992-ci il) qoşulmuşdur. UNİCEF-in məlumatına əsasən, ancaq iki ölkə - ABŞ və Somalidə bu sənəd ratifikasiya edilməmişdir.

Uşaq Hüquqları Konvensiyası bütün uşaqları özünəxas hüquqları və ləyaqəti olan insanlar kimi qiymətləndirir. Bütün uşaqlar yaşamaq, təhlükəsiz şəraitdə böyümək üçün eyni hüquqlara malikdirlər. Onların düşüncə və hissləri hörmətlə qarlışanmalıdır. Uşaqların maraqlarının bütün sahələrdə makisimum qorunması prioritet götürülməlidir. Uşaqların üzləşdikləri çətinliklərə göz yuman, onların ehtiyaclarına məhəl qoymayan dövlətlər Uşaq Hüquqları Konvensiyasını pozmuş hesab olunurlar. Hesab edirik ki, bu Konvensiya sayəsində dünya gələcəkdə bütün uşaqlar üçün daha yaxşı bir məkana çevriləcəkdir.

Tədqiqatçı kimi bizi maraqlandıran cəhətlərdən biri də o oldu ki, 54 maddədən ibarət olan konvensiya bəşəri dəyərlər əsasında hazırlanmışdır. Məsələn, konvensiyanın 1-ci maddəsində

18 yaşına qədər olan hər bir bəşər övladı uşaq adlanır.

2-ci maddəsində

Bütün uşaqlar eyni hüquqlara malikdirlər. Heç bir uşaq hər hansı bir ayrı-seçkiliyə məruz qalmamalıdır.

3-cü maddəsində

Hər bir uşağın ad və vətəndaşlıq almaq hüququ vardır, prinsipləri əsas götürülürsə maddə 32-də Uşaqlar ağır və təhlükəli işlər görməkdən mühafizə olunmalıdırlar və maddə 33-də İştirakçı dövlətlər uşaqları müvafiq beynəlxalq müqavilələrdə müəyyənləşdirildiyi kimi qeyri-qanuni narkotik vasitələr və psixotropik maddələr qəbul etməkdən qorumaq və belə maddələrin qeyri-qanuni istehsalında və onların alqı-satqısında uşaqlardan istifadə edilməsinə yol verməmək üçün qanunverici, inzibati və sosial tədbirlər, habelə təhsil sahəsində tədbirlər daxil edilməklə bütün zəruri tədbirləri görürlər göstərişinin verilməsi humanist pinsiplərə əsaslanır. Yəni, uşaqlar narkotik maddələrin qeyri-qanuni istifadəsindən mühafizə olunmalıdırlar təyinatı konvensiyanın bəşəri dəyərini bir qədər də artırır.



Təcrübə göstərir ki, bəzən uşaqlar özləri üçün Konvensiyanın qərarlarına istinadən toxunulmazlıq statusu yaradırlar və buna arxalanaraq alkoqollu içkilərdən, narkotiklərdən istifadə edirlər. Nəticədə həmin uşaqlar həm cəmiyyət, həm də ailə üçün gələcək fəlakətin bünövrəsini qoyurlar. Bu cür neqativ hallar bəzən valideyn-uşaq münasibətlərindən də yarana bilər. Qeyd olunduğu kimi, əgər valideynlərdən biri nartkotik qəbul edirsə, belə olan halda həmin valideynlə ünsiyyətə girməmək uşaq üçün daha faydalı olur. Buna görə də cəmiyyət uşağın həmin valideynlə əlaqələrinin qarşısını almalıdır.

Konvensiyaların müvafiq maddələrinə istinadən və uşaqların xüsusi rejimli kolonyalarda saxlanan müəssisələrində təmasda olduğum respondentlərlə söhbətlərimə əsasən deyə bilərəm ki, 16 yaşından kiçik olan uşaqlar hələ elə bir həyat təcrübəsinə malik deyillər ki, özləri üçün nəyin xeyirli olduğunu başa düşsünlər. Buna görə də, böyüklər uşaqlara aid qərarları qəbul edərkən onların rəyinə qulaq asmamalıdırlar (haqlı və haqsız qərarları fərqləndirmək şərti ilə – S.M.).

Uşaqlar təkcə oynamalı, əylənməli və dincəlməli deyillər. Onlar, lazım gəldikdə, ailələrinə kömək etməli – öhdələrinə düşən vəzifələri də yerinə yetirməlidirlər. Digər tərəfdən, əgər valideyn və ya məktəbdə çalışan hər hansı

şəxs uşağın narkotik maddə qəbul etməsindən şübhələnirsə, onun həmin uşağın üst-başını, ciblərini, stolunun siyirmələrini, otağını axtarmaq, telefon söhbətlərinə qulaq asmaq, məktubunu oxumaq hüququ vardır. Yəni hər şey uşaqların rifahı naminə prinsipinə əsaslanmalıdır.

Hökumət uşaqları narkotik maddələrə və spirtli içkilərə meylli valideynlərdən ayırmalıdır. Əgər belə yanaşma metodu tətbiq edilməzsə və uşaq narkotik asılılığına düçar olaraq cinayət belə törətmiş olarsa, onun mühakimə olunma prosesi yenə BMT-nin Nizamnaməsində bəyan edilən ideyalar ruhunda həyata keçirilməlidir. Yəni, uşağın belə xüsusi müdafiə ilə təmin olunmasının zəruriliyinin 1924-cü il Uşaq Hüquqları haqqında Cenevrə Bəyannaməsində və 1959-cu il noyabrın 20-də Baş Assambleya tərəfindən qəbul edilən Uşaq Hüquqları Bəyannaməsində nəzərdə tutulduğunu və İnsan Hüquqları Ümumi Bəyannaməsində, Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktda (xüsusilə 23 və 24-cü maddələr), İqtisadi, Sosial və Mədəni hüıquqlar haqqında Beynəlxalq Paktda (xüsusilə 10-cu maddə), habelə uşaqların rifahı ilə məşğul olan ixtisaslaşmış təsisatların və beynəlxalq təşkilatların Nizamnamələri və müvafiq sənədlərində qəbul edildiyini nəzərə alaraq, Uşaq Hüquqları Bəyannaməsində göstərildiyi kimi, yerinə yetirmək zəruridir.



Problemlə bağlı əvvəlki tədqiqatlarımızda bəzi məsələlərə ara-sıra toxunsaq da, yəni cinayətkarlıqla, xüsusilə narkotik cinayətkarlıqla mübarizədə hüquq-mühafizə orqanlarının funksiyalarından danışsaq da onların BMT-nin müvafiq konvensiyalarının tələbləri baxımından fəaliyyətlərinin tənzimlənməsinə o qədər də geniş yer verilməmişdi.

Bu mənada beynəlxalq təcrübəni bəzi dövlətlərin timsalında nəzərdən keçirək. Məsələn, İsveç təcrübəsinə görə, yeniyetmə qanun pozuntusunun törədildiyi yerdə saxlanıldıqdan sonra polisdə dindirilir. Polis saxlanılmış şəxsi 6 saat müddətində dindirmək hüququ var, xüsusi ciddi hallarda bu müddət əlavə 6 saat da uzadıla bilər. Əgər saxlanılan şəxs 15 yaşdan kiçikdirsə, saxlanılma müddəti uyğun olaraq 3+3 saatla məhdudlaşır. Bu müddət bitdikdə prokuror yeniyetmənin gələcəkdə mühafizə altında saxlanılmasının məqsədəuyğunluğu haqqında qərar qəbul etməlidir. Əgər prokuror yeniyetmənin mühafizə altında saxlanılmasını zəruri hesab edirsə, o, yerli məhkəməyə uşağın saxlanılma müddətinin uzadılması barədə xahişnamə göndərməlidir. Məhkəmə bu xahişə ilkin saxlanılma anından sonra 96 saat ərzində baxmağa borcludur. Məhkəmənin qərarı ilə saxlanılmış şəxs onun işinin dinlənməsinə qədər istintaq təcridxanasına köçürülə bilər.

Burada əksər hallarda saxlanılmış şəxslər mühafizə altından azad edilir və gələcəkdə işin istintaqını aparan polis şöbələrinə dindirilməyə çağırırlar. İlkin saxlanılmadan təxminən iki həftə sonra yeniyetmə öz valideyni ilə birlikdə dindirilmək üçün məktubla polis şöbəsinə çağırılır. Əgər valideynlər gəlmirlərsə, istintaqı maraqlandıran olan sualları aydınlaşdırmaq üçün onlarla telefon əlaqəsi saxlayırlar. Audioyazma aparılmır, ancaq suallar və cavablar kompüterdə qeyd olunur. Dindirmə qurtardıqdan sonra dindirmənin mətni çap olunur, yeniyetmə onu oxuyur və imzalayır.

Yeni Zenlandiya Ədliyyə Sistemində isə bu məsələlərin həllində fərqli məqamlar özünü biruzə verir. Məsələn, problemin həllinə yeni yanaşma yeniyetməni bütün mümkün vasitələrlə kriminal mühitdən uzaqlaşdırmaqdan ibarət olmalı idi. Yeni Zenlandiyada artıq polisin gənclərə kömək edən və eyni zamanda qadınların zəruri hissəsinin müxtəlif etnik azlıqların nümayəndələrinin işlədiyi bölmələr fəaliyyət göstərirdi. 1989-cu il qanununa görə, polis əksər hallarda müəyyən edilmiş plan əsasında hərəkət edərək qeyri-formal metodlarla gənc insanları kriminal yoldan kənarlaşdırmağa cəhd göstərməli idi. Belə planları günahı başa düşməyə təlqin etmək, yetkinlik yaşına çatmayanların yaşayış yerinə baş çəkmək, məktəblə və zərərçəkmişlə



məsləhətləşmələr üçün düşünülmüşdür. Təkrar ciddi qanun pozuntuları baş verdikdə polis gələcək fəaliyyətin planını işləmək üçün ailə qruplarını yığmağı tələb edə bilərdi.

Avstriya sistemində isə prokurorlar bir növ mühafizəçi hesab olunurlar. Dövlət ittihamçısı funksiyasını yerinə yetirməli olan prokuror bu proses zamanı işi dayandırmaq, onları nəzarət-vasitəçilik və mühakimə üsulu sisteminə vermək hüququna da malikdir. Əgər iş vasitəçilik nizamlanmasına verilibsə, prokurorluğun ixtisas təhsili olan və yalnız vasitəçi (arbitr) vəzifəsində işləyən əməkdaşı təyin olunur. Əvvəlcə o, yeniyetmənin öz günahını boynuna alıb-almamasını aydınlaşdırmaq məqsədi ilə onunla söhbət aparır. Ancaq bu təqsiri etiraf etməyə bərabər deyil və əgər son nəticədə iş məhkəməyə verilərsə, məhkəmə təqsirləndirilən şəxsin təqsirli olmasını sübut etməlidir. Əgər qanun pozucusu törətdiyi hala görə öz məsuliyyətini boynuna alıbsa, onda onun şəxsi və sosial şəraiti müzakirə olunur, qanun pozucusuna zərərçəkənə vurulmuş mənəvi və maddi ziyana münasibətdə hansı mumkün qərarı irəli sürə bilməsi üçün düşünməyə imkan verilir. Əgər qanun pozucusu təkcə günahını boynuna almaq deyil, həm də zərəri kompensasiya etməyə və ya ödəməyə hazırdırsa, onda vasitəçi zərərçəkənlə əlaqə yaradır. Məhkəmədə və ya

məhkəmədənkənar nizamlanma işində iştirak etmək arzusunun, məsələnin pozitiv həlli üçün özünün hansısa təkliflərini irəli sürmək istəyi barədə onun fikri öyrənilir.

Monqolustan qanunlarına görə isə düzgün hüquqi mühitin yaradılmasından ötrü aşağıdakılar zəruri hesab olunur:

Polis təşkilatları, prokurorluq, məhkəmə və həbsxana işçiləri BMT-nin beynəlxalq sənədlərini; həddi-büluğa çatmamışlar üzrə ədalət mühakiməsinin həyata keçirilməsinə dair BMT-nin minimal standart qaydalarını (Pekin nizamnaməsi); həddi-büluğa çatmamışlar arasında cinayətkarlığın qarışısının alınması üçün BMT-nin rəhbər prinsiplərini (Ər-Riyad rəhbər prinsipləri); azadlıqdan məhrum edilmiş həddi-büluğa çatmamışların müdafiəsinə dair BMT-nin qaydalarını və Monqolustanın həddi-büluğa çatmamışların hüquqları və uşaq hüquqlarının müdafiəsi haqqında qanunvericiliyini (1996-ci il) dəqiqliklə öyrənməlidir.

BMT-nin problemlə bağlı müfafiq konvensiyalarına uyğun olaraq Azərbaycan Respublikasının Konstitusiyasının bəzi maddələrini diqqətə çatdırmaqla dünya təcrübəsindən gətirdiyimiz iqtibasların müqayisəli təhlilini aparmaq üçün oxucuya şərait yaratmağı zəruri hesab edirik:



**Maddə 60.** Hüquq və azadlıqların məhkəmə təminatı.

I. Hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə təminat verilir.

II. Hər kəs dövlət orqanlarının, siyasi partiyaların, həmkarlar ittifaqlarının və digər ictimai birliklərin, vəzifəli şəxslərin qərar və hərəkətlərindən (yaxud hərəkətsizliyindən) məhkəməyə şikayət edə bilər.

**Maddə 61.** Hüquqi yardım almaq hüququ.

I. Hər kəsin yüksək keyfiyyətli hüquqi yardım almaq hüququ vardır.

II. Qanunla nəzərdə tutulmuş hallarda hüquqi yardım ödənişsiz, dövlət hesabına göstərilir.

III. Hər bir şəxsin səlahiyyətli dövlət orqanları tərəfindən tutulduğu, həbsə alındığı, cinayət törədilməsində ittiham olunduğu andan müdafiəçinin köməyindən istifadə etmək hüququ vardır.

**Maddə 62.** Məhkəmə aidiyyətinin dəyişdirilməsinə yol verilməməsi.

Hər kəsin onun işinə qanunla müəyyən edilmiş məhkəmədə baxılması hüququ vardır. Şəxsin razılığı olmadan onun işinə başqa məhkəmədə baxılmasına yol verilmir.

**Maddə 63.** Təqsirsizlik prezumpsiyası.

I. Hər kəsin təqsirsizlik prezumpsiyası hüququ vardır. Cinayətin törədilməsində

təqsirləndirilən hər bir şəxs, onun təqsiri qanunla nəzərdə tutulan qaydada sübuta yetirilməyibsə və bu barədə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü yoxdursa, təqsirsiz sayılır.

II. Şəxsin təqsirli olduğuna əsaslı şübhələr varsa, onun təqsirli bilinməsinə yol verilmir.

III. Cinayətin törədilməsində təqsirləndirilən şəxs özünün təqsirsizliyini sübuta yetirməyə borclu deyildir.

IV. Ədalət mühakiməsi həyata keçirilərkən qanunu pozmaqla əldə edilmiş sübutlardan istifadə oluna bilməz.

V. Məhkəmənin hökmü olmasa kimsə cinayətdə təqsirli sayıla bilməz.

**Maddə 64.** Bir cinayətə görə təkrarən məhkum etməyə yol verilməməsi.

Heç kəs bir cinayətə görə təkrarən məhkum edilə bilməz.

**Maddə 65.** Məhkəməyə təkrar müraciət hüququ.

Məhkəmənin məhkum etdiyi hər bir şəxsin öz barəsində hökmə qanunla nəzərdə tutulan qaydada yuxarı məhkəmədə yenidən baxılması, habelə özünün əfv edilməsi və cəzasının yüngülləşdirilməsi haqqında müraciət etmək hüququ vardır.

**Maddə 66.** Qohumların əleyhinə ifadə verməyə məcbur etməyə yol verilməməsi.



Heç kəs özünə, arvadına (ərinə), övladlarına, valideynlərinə, qardaşına, bacısına qarşı ifadə verməyə məcbur edilə bilməz.

Əleyhinə ifadə verilməsi məcburi olmayan qohumların tam siyahısı qanunla müəyyən edilir.

**Maddə 67.** Tutulan, həbsə alınan və cinayət törədilməsində ittiham edilənlərin hüquqları.

Səlahiyyətli dövlət orqanlarının tutduğu, həbsə aldığı, cinayət törədilməsində ittiham etdiyi hər bir şəxsə dərhal onun hüquqları bildirilir və tutulmasının, həbsə alınmasının və cinayət məsuliyyətinə cəlb edilməsinin səbəbləri izah edilir.

**Maddə 68.** Zərərin ödənilməsini tələb etmək hüququ.

I. Cinayət, habelə hakimiyyətdən sui-istifadə nəticəsində zərər çəkmiş şəxsin hüquqları qanunla qorunur. Zərər çəkmiş şəxsin ədalət mühakiməsinin həyata keçirilməsində iştirak etmək və ona vurulmuş zərərin ödənilməsini tələb etmək hüququ vardır.

Müqayisəli təhlillər aparsaq görərik ki, BMT-nin konvensiyalarına görə tətbiq edilən qanunvericilikdə humanizm pinsipləri qabarıq şəkildə görünsə də, onu tam təkmil bir sistem kimi qeyri-şərtsiz qəbul etmək olmaz.

Azərbaycan qanunvericiliyi isə bəzi məqamlarla müqayisədə daha təkmil görünür.

Lakin bu o demək deyildir ki, bizdə qanunyaradıcılığı və qanunvericilik ideal səviyyədədir. Qanunvericiliyi, xüsusilə narkotik cinayətkarlıqla mübarizəni tənzimləyən qanunlar uzun müddət aprobasiyadan keçirilməli, nəticələr təhlil edilməli və əgər müsbət nəticə varsa onu uzun müddət tətbiq etmək olar. Buna isə güclü elmi-təqiqatlar, araşdırmalar yolu ilə nail olmaq mümkündür. Təbii olaraq qeyd olunan nəticəni almaq üçün «zaman» vacib amillərdəndir.

Azərbaycanın müstəqilliyinin bərpasından sonra qəbul olunan qanunların hamısında milli xüsusiyyətlər nəzərə alınmaqla BMT-nin konvensiyalarının tələbləri demək olar ki, həmişə ehtiva olunur. Məsələn, AR-nin 2001-ci il 20 fevral tarixli, Qanununa əsasən edilmiş əlavəyə əsasən göstərilir ki, bu qanun Azərbaycan Respublikasının Konstitusiyasına, Uşaq hüquqları Bəyannaməsinə, Uşaq Hüquqlarına dair Konvensiyaya və digər beynəlxalq hüquq normalarına uyğun olaraq Azərbaycan Respublikasında uşaqların hüquqlarını və azadlıqlarini, uşaqlar barəsində dövlət siyasətinin əsas prinsiplərini, onların müdafiəsi sahəsində dövlət orqanlarının, digər hüquqi və fiziki şəxslərin vəzifələrini müəyyən edir.

Maddə 28-də isə narkotiklərlə bağlı BMT-nin konvensiyalarına uyğun olaraq göstərilir ki,



Uşağın istismardan və zərərli təsirlərdən mühafizəsi.

Dövlət sosial, hüquqi, iqtisadi, tibbi və tərbiyəvi vasitələrlə uşaqları istismarın bütün növlərindən, ağır, zərərli və təhlükəli əməkdən mühafizə edir.

Uşaqlara qarşı fiziki və psixi zorakılıq, uşaqların cinsi istismarı, onların alkoqolizmə, dilənçiliyə, qumara, fahişəliyə, narkomaniyaya, toksikomaniyaya cəlb edilməsi, cinayətkar məqsədlər üçün onlardan istifadə edilməsi Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş müvafiq məsuliyyətə səbəb olur.

Daha bir qanuna nəzər yetirək. Biz bir neçə xarici ölkə hüquq-mühafizə orqanlarının funksiyalarına aydınlıq gətirmişdik. Bunları daha yaxşı müqayisələndirmək üçün «Polis haqqında Azərbaycan Respublikasının qanununun» bəzi madələrini diqqətə çatırmaq yerinə düşər.

**Maddə 18.** İctimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində polis əməkdaşının hüquqları.

İctmai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində polis əməkdaşının aşağıdakı hüquqları vardır:

1) inzibati hüquqpozmalara dair işlər üzrə Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulan tədbirləri görmək;

2) ictimai qayda və ya insanların təhlükəsizliyi üçün təhlükə yarandıqda ərazilərə və binalara girişi və orada olmağı məhdudlaşdırmaq, aparılan işləri dayandırmaq, nəqliyyatın hərəkətini məhdudlaşdırmaq və ya qadağan etmək;

3) inzibati hüquqpozma törətmiş şəxs barəsində protokol tərtib etmək, şəxsi baxış keçirmək, əşyalarını yoxlamaq, Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirlilmiş qaydada və müddətdə onu polisdə saxlamaq;

4) cinayət və ya inzibati hüquqpozma törətməkdə şübhələnilən hərbi qulluqçuları tutub hərbi patrullara, hərbi komendanta, qoşun hissələrinin komandirlərinə və ya hərbi komissarlara təhvil vermək;

5) ictimai yerlərdə sərxoş vəziyyətdə olan və müstəqil hərəkət etmək qabiliyyətini itirən, özünə və ya ətrafdakılara zərər yetirə bilən şəxsi xüsusi tibbi müəssisələrinə gətirmək;

6) inzibati qaydada həbs edilmiş, inzibati nəzarətdə olan, habelə polisdə profilaktika uçotunda olan şəxslərin fotoşəklini çəkmək və barmaq izlərini götürmək;

7) Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş hallarda və qaydada avaralıqla və ya dilənçiliklə məşğul olan şəxsi qəbuletmə-bölüşdürmə məntəqəsinə gətirmək;



8) ictimai təhlükəli əməllərə görə məhkəmənin qərarı ilə təyin olunmuş tibbi xarakterli məcburi tədbirlərdən yayınan ruhi xəstələri, xroniki alkoqolikləri, narkomanları tutmaq və xüsusi tibbi müəsissələrə gətirmək;

9) qanunla müəyyənləşdirilmiş hallarda və qaydada təyin olunmuş tərbiyəvi xarakterli məcburi tədbirlərdən yayınan yetkinlik yaşına çatmayan şəxsi tutmaq və xüsusi tərbiyə müəssisəsinə gətirmək;

10) hüquqi və fiziki şəxslər tərəfindən odlu silahın, döyüş sursatının, zəhərli maddələrin və digər zərərli materialların saxlandığı və isifadə olunduğu yerlərə, habelə onların dövriyyədə olduğu obyektlərə (hərbi obyektlər istisna olmaqla) baxış keçirmək, bu cür əşyaların, maddələrin və materialların istifadəsi barədə müəyyənləşdirilmiş qaydaların pozulduğu aşkar edildikdə qüsurların aradan qaldırılması haqqında icrası məcburi olan yazılı göstərişlər vermək və Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulan digər tədbirləri görmək.

Göründüyü kimi, polis haqqında qanunun 18-ci maddəsinin 11 bölməsinin ikisində, yəni 5-8-ci bəndlər narkotiklər və alkoqollu içkiləri qəbul edənlərin ictimai təhlükəli əməl törətmək ehtimalının reallaşdırıldığı hallarda polis əməkdaşlarına xüsusi səlaiyyətlər verir. Həmin maddənin digər bəndlərində səlahiyyətlərin təyinatında narkotik-

lərlə bağlı cinayətlər xatırlanmasa da, hesab edirik ki, bəzən onların əksəriyyətində uyuşdurucularla ilgili motivlər çoxdur. Polis haqqında qanunun şəxsin azadlıq, mənzil toxunulmazlığı hüquqlarının məhdudlaşdırılması, fiziki qüvvənin, xüsusi vasitələrin və ya odlu silahın tətbiqi ilə bağlı polis əməkdaşının səlahiyyətləri adlı III fəslinin 21-ci maddəsinin beş bəndindən 3-cüsündə problemlə bağlı terminlər işlədilir.

Məsələn, maddə 21. 3) yoluxucu xəstəliklərin yayılmasının qarşısı alındıqda, habelə ruhi xəstələr, alkoqoliklər, narkomanlar və avaralıqla məşğul olanlar zərərsizləşdirildikdə.

Gətirilən iqtibaslara əsasən demək olar ki, ümümmilli liderimiz Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində beynəlxalq hüquq normalarına uyğun olaraq hazırlanmış «Polis haqqında qanun»[1] da həmin sistemin işçilərinə böyük səlahiyyətlər verilmişdir ki, bu da oenların məqsədyönlü fəaliyyəti üçün ən yaxşı şərait yaradır.

Hesab edirik ki, polisə verilən səlahiyyətlər qanunla tənzimlənən həddi aşmamalıdır. Yəni burada BMT-nin İnsan Hüquqları Konvensiyasının maddələrinin sərhədləri pozulmamaldır. Əks təqdirdə, vəzifə səlahiyyətlərini aşmağa görə

[1] «Polis haqqında Azərbaycan Respublikasının qanunu». Bakı nəşriyyatı, 28 oktyabr 1999-cu il. Respublika qəzeti 29.10.99



qanuna əsasən vəzifəsindən asılı olmayaraq polisin özü məsuliyyətə cəlb edilə bilər. Belə halların baş verməməsi üçün hər bir polis əməkdaşının qanunlardan, BMT-nin konvensiyalarından nəinki xəbərdar olmalıdır, hətta bu barədə müfəssəl biliyə malik olmalıdır.

BMT-nin narkotiklər haqqında konvensiyalarının birbaşa təsiri cinayət məcəlləsində də görünür. Məsələn, hələ 1999-cu ilin 30 dekabrında qəbul edilən və 01 sentyabr 2001-ci ildə qüvvəyə minmiş «Azərbaycan Respublikasının cinayət məcəlləsi»[2]nin «Cinayət məsuliyyətinə cəlb edilməli olan şəxslər» adlı III fəslinin 20-ci maddəsi deyilənləri özündə ehtiva edir. Həmin maddəyə diqqət yetirək.

**Maddə 20.** Cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddi.

20.1. Cinayət törədənədək on altı yaşı tamam olmuş şəxs cinayət məsuliyyətinə cəlb edilir.

20.2. On dörd yaşı tamam olmuş şəxs yalnız qəsdən adam öldürməyə, qəsdən sağlamlığa az ağır və ya ağır zərər vurmağa, adam oğurlamağa, zorlamağa, seksual xarakterli zorakılıq hərəkətlərinə, oğurluğa, soyğunçuluğa, quldurluğa, hədə-qorxu ilə tələb etməyə, talama məqsədi olmadan qanunsuz olaraq avtomobil və

[2] Azərbaycan Respublikasının cinayət məcəlləsi. Respublika qəz. 29.10.2000

ya başqa nəqliyyat vasitəsi ələ keçirməyə, ağırlaşdırıcı hallarda əmlakı qəsdən məhv etməyə və ya zədələmə, terrorçuluğa, adamları girov götürməyə ağırlaşdırıcı hallarda xuliqanlığa, odlu silahı, döyüş sursatını, partlayıcı maddələri və qurğuları talamağa və ya hədə-qorxu ilə tələb etməyə, naroktik vasitələri və ya psixotrop maddələri talamağa və ya hədə-qorxu ilə tələb etməyə, nəqliyyat vasitələrini və ya yolları yararsız vəziyyətə salmağa görə cinayət məsuliyyətinə cəlb edilir.

20.3. Bu Məcəllənin 20.1 və 20.2-ci maddələrində nəzərdə tutulmuş yaş həddinə çatmış yetkinlik yaşına çatmayan, lakin böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayəti törətdiyi zaman psixi inkişafın kəmağıllıqla və ya başqa psixi pozuntu ilə əlaqədar olmayan geriliyi səbəbindən öz əməlinin (hərəkət və ya hərəkətsizliyinin) faktiki xarakterini və ictimai təhlükəsizliyini tam dərk etməyən və ya həmin əməli idarə edə bilməyən şəxs cinayət məsuliyyətinə cəlb edilmir.

20-ci maddənin ilk təsir imkanına nəzər salsaq görərik ki, «Cinayət məsuliyyətinə imkan verən yaş həddi» ifadəsi BMT-nin Uşaq Hüquqları Konvensiyasının birbaşa təyinat obyektlərindəndir. Digər bölmələrdə insan hüquqları konvensiyasının müddəaları ümumilikdə prosesin nüvəsini təşkil edir.



Biz əvvəlki tədqiqatlarımızda narkotiklərlə bağlı BMT-nin konvensiyalarına aydınlıq gətirməyə çalışmışdıq. Tədqiqatımız göstərdi ki, həmin problemə yanaşmada müxtəliflik vardır. Məsələn, «Narkomanlığa qarşı mübarizə hər bir polis əməkdaşının borcudur»[3] adlı mənbədə «Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizənin hüquqi əsasları» bölməsində çox önəmli məsələlər beynəlxalq və Azərbaycan kontekstində diqqətə çatdırılır. Məsələn:

- BMT-nin 14 dekabr 1948-ci il tarixli «İnsan Hüquqları haqqında Ümumi Bəyannamə»si;
- Avropa Şurasının 4 noyabr 1950-ci il tarixli «İnsan hüquqlarının və azadlıqlarının müdafiəsi haqqında» Avropa Konvensiyası;
- Birləşmiş Millətlər Təşkilatının 1961-ci il tarixli «Narkotik vasitələr haqqında» Vahid Konvensiyası, 1971-ci il tarixli «Psixotrop maddələr haqqında» və 1988-ci il tarixli «Narkotik vasitələr və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə mübarizə haqqında» Konvensiyaları (DİN-nin 16 saylı 21.01.1999-cu il tarixli əmri);
- Hər hansı bir formada olmasına baxmayaraq tutulmaya və bəhsə məruz qalmış bütün şəxslərin müdafiəsinin prinsipləri toplusu.

[3] Narkomanlığa qarşı mübarizə hər bir polis əməkdaşının borcudur. Bakı, 2002

BMT-nin Baş Assambleyasının 9 dekabr 1988-ci il tarixli Qətnaməsi;

- «Polis haqqında» Bəyannamə, Avropa Şurasının Parlament Assambleyasının Qətnaməsi ilə 1979-cu ildə qəbul edilmişdir;

- BMT-nin 17 dekabr 1979-cu il tarixli Qətnaməsi ilə təsdiq edilmiş «Hüquq qaydalarının mühafizəsi üzrə vəzifəli şəxslərin davranış məcəlləsi»;

- Azərbaycan Respublikasının Konstitusiyası 12.XI.1995-ci il (mad. 12, 13, 24-71 və s.).

- Azərbaycan Respublikası Prezidentinin 26.08.1996-cı il tarixli «Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı tədbirlər haqqında» Fərmanı (468 saylı 25.09.1996-cı il tarixli DİN-in əmri);

Azərbaycan Respublikası Prezidentinin 15.07.2000-ci il tarixli «Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsinə və narkomanlığın yayılması ilə mübarizə üzrə Proqramın təsdiq edilməsi barədə» Fərmanı.

- Narkotik vasitələrin, psixtrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə haqqında Azərbaycan Respublikasının 18 iyun 1999-cu il tarixli Qanunu(DİN-nin 268 saylı 09.08.1999-cu il tarixli əmri);

- Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Maddələr 234-241;



- Azərbaycan Respublikasının 2001-ci il tarixli «Narkoloji Xidmət və Nəzarət haqqında» Qanunu;

- Azərbaycan Respublikası Mülki Məcəlləsi. Maddə 32 (Fiziki şəxsin fəaliyyət qabiliyyətinin məhdudlaşdırılması);

- Azərbaycan Respublikasının 20 fevral 2001-ci il tarixli «Azərbaycan Respublikası ərazisində dövriyyəsi qadağan edilmiş, məhdudlaşdırılmış və nəzarət edilən narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların siyahısının təsdiq edilməsi barədə» Qanunu;

- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15 mart 2000-ci il tarixli 47 saylı «Narkomanlar üçün məhdudiyyətlər qoyulmuş peşə növlərinin və vəzifələrinin siyahısı» (18 növ vəzifə və peşə qeyd edilmişdir);

- Nazirlər Kabinetinin 7 avqust 2000-ci il tarixli 35 saylı «Narkotik sərxoşluq vəziyyətinin, narkotik vasitələrin və psixotrop maddələrin istehsalı və insan bədəninin daxilində narkotik vasitələrin və psixotrop maddələrin gizlədilməsi hallarının müəyyən edilməsi məqsədilə tibb müayinəsinin keçirilməsi qaydasının təsdiq edilməsi haqqında» Qərarı (DİN-nin 333 saylı 22 avqust 2000-ci il tarixli əmri ilə elan edilmişdir)

- Nazirlər Kabinetinin 31 may 2000-ci il tarixli «Müsadirə edilmiş narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların məhv

edilməsi qaydalarının təsdiq edilməsi barədə» qərarı «DİN-nin 358 saylı 7 sentyabr 2000-ci il tarixli əmri) və s.

- Nazirlər Kabinetinin 12 sentyabr 2000-ci il tarixli «Narkotik vasitələrin və psixotrop maddələrin şəxsi istehlak üçün nəzərdə tutulan miqdarı haqqında» qərarı.

DİN-in müvafiq əmr, göstəriş, kollegiya qərarları, Səhiyyə Nazirliyinin müvafiq əmrləri və s.

Sadalanan məlumatları çox dəyərli hesab edirik.

Lakin burada BMT-nin narkotiklər haqqında konvensiyalarının qəbuluna qədərki proses nəzərə alınmayıb. Bu isə həmin konvensiyaların hansı səbəbdən qəbul edilməsini əsaslandırmağı çətinləşdirir.

Mənim fikrimcə, BMT-nin konvensiyalarının qəbulunu daha yaxşı əsaslandırmaq üçün beynəlxalq əhəmiyyətə malik, dünyəvi mahiyyət daşıyan bu tədbirlərin xronolgiyasına aşağıdakıların da daxil edilməsi daha effektli olar.

- Narkotik vasitələrdən istifadəyə beynəlxalq nəzarətin müəyyən edilməsi və beynəlxalq səviyyədə narkomaniyaya qarşı tədbirlər görülməsi üzrə Çində Şanxay tiryək komissiyasının iclasları (1909-cu il fevralın 5-dən 26-dək);

- Haaqada keçirilən tiryək üzrə beynəlxalq konfransda birinci dəfə narkotiklər haqqında



1912-ci il Konvensiyasının işlənib hazırlanması (1911-1912-ci illərdə);

- Tiryək üzrə Cenevrə konfransında qəbul edilmiş 11 fevral 1925-ci il tarixli razılaşmaya görə, çəkmək üçün tiryəkin istehsalının dövlət inhisarına verilməsi (1924-1925-ci illərdə);

- Tiryək üzrə ikinci Cenevrə konfransında qəbul olunmuş 19 fevral 1925-ci il tarixli Konvensiya müəyyən etmişdir: narkotiklərin yalnız qanuni dövlət tələbatını ödəmək üçün istehsal olunmasına razılıq verilməsi (Beləliklə də, dünyanın bir neçə dövləti 1925-ci ildə tiryək üzrə ikinci Cenevrə Konvensiyasının müəyyən etdiyi bu qərardan sui-istifadə edərək narkotik vasitələrin siyahısı genişləndirilsə də, həmin siyahıya düşməyən narkotik vasitələrin istehsalına rəvac verərək narkotizmin əhatə dairəsinin daha da genişlənməsinə şərait yaratmışdır – S.M.) və narkotik vasitələrin siyahısının genişləndirilməsi (1925-ci il)[4];

- 1931-ci il iyulun 13-də Cenevrədə imzalanmış və 1933-cü ildə qüvvəyə minmiş «narkotik vasitələrin istehsalının məhdudlaşdırılması və bölüşdürülməsinin tənzim edilməsi haqqında» beynəlxalq konvensiya;

- Cenevrədə bağlanmış narkotik maddələrlə qanunsuz ticarətin qadağan edilməsinə dair

[4] Məmmədov S.S. Narkotizmin cəmiyyətdə bəzi təzahürləri və onlara qarşı mübarizə. Bakı, 2004,səh.97-98

konvensiyada narkotiklərlə bağlı cinayətlərin beynəlxalq cinayət təqibinin mümkünlüyü və əvvəlki konvensiyalarla nəzərdə tutulmuş cəzalardan daha sərt cinayət cəzasının müəyyənləşdirilməsi (1936-cı il 26 iyun)[5];

- Birləşmiş Millətlər Təşkilatının iqtisadi və sosial şurasının narkotik vasitələr üzərində daimi beynəlxalq nəzarətin təmin edilməsi və bunun üçün narkotik vasitələr üzrə komissiya yaradılması haqqında qətnaməsi (1946-cı il);

- BMT-nin Baş Məclisinin 19 noyabr 1946-cı il tarixli 54/1 nömrəli qətnaməsi ilə 1946-cı il dekabrın 11-də Leyk-Saksessdə imzalanmış narkotiklərə dair Protokolunun təsdiqi;

- Narkotik vasitələr üzrə komissiyanın təşəbbüsü ilə 1931-ci il Konvensiyasının təsirindən kənarda qalan narkotik vasitələrə beynəlxalq nəzarət müəyyən edən Protokolun BMT Baş Məclisinin üçüncü sessiyasında təsdiqi (19 noyabr 1948-ci il);

- Nyu-Yorkda BMT-nin tiryək üzrə konfransında Premambula və Yekun aktı da daxil olan, xammal (tiryək xaşxaşı) üzərində nəzarət müəyyənləşdirən beynəlxalq müqavilə – Protokol imzalanması (23 iyun 1953-cü il)[6];

- BMT-nin Nyu-Yorkda keçirilən konfransında narkotik vasitələrə dair Vahid Konvensiyanın qəbul edilməsi və həmin konvensiyanın bu gün də qüvvədə qalması (1961-ci il);

[5] Yenə orada,səh.99-100
[6] Yenə orada,səh.101-102



- Vyanada keçirilən xüsusi diplomatik konfransda psixotrop vasitələr üzərində nəzarət müəyyən olunmasına dair Konvensiyanın qəbul edilməsi (1971-ci il);

- BMT-nin Vyanada keçirilən konfransında narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında Konvensiyanın qəbulu (1988-ci il);

Aparıcı yeddi sənaye dövləti və ya hökumət başçılarının, eyni zamanda Avropa birlikləri Komissiyasının sədrinin qərarına müvafiq olaraq iqtisadi məsələlər üzrə Parisdə keçirilən on beşinci zirvə görüşündə cinayət yolu ilə əldə edilən pul vəsaitinin «təmizə çıxarılmasına dair maliyyə məsələləri üzrə xüsusi əməliyyat qrupunun təsis edilməsi və bu qrupun tövsiyələrinə əsasən, narkotiklərə nəzarət üzrə beynəlxalq şuranın bütün dövlətlərə təklifinə əsasən nakotiklərin qanunsuz dövriyyəsi nəticəsində əldə olunan pulların «təmizə çıxarılması» ilə mübarizə haqqında qanunvericilik aktlarının qəbul olunması və onların səmərəli tətbiqiylə bağlı qərarın verilməsi (1989-cu il) və s.

Çünki, xronoloji ardıcıllıqla verilmiş mənbədən görünür ki, narkotiklərlə bağlı konvensiyalar qəbul olunanadək bu proses müəyyən zaman kəsiyində müxtəlif beynəlxalq

səviyyədə müzakirə obyekti olmuş və sonra müvafiq konvensiya statusu almışdır.

BMT-nin bütün konvensiyaları, o cümlədən narkotiklər haqqında konvensiyaları bu gün də ümumbəşəri dəyərlərə daima hörmətlə yanaşan dünya dövlətlərinin diqqət mərkəzindədir və onun müddəaları həmin ölkələrin qanunvericiliyində kifayət qədər əksini tapmışdır.

### *1.2. BMT-nin konvensiyalarında narkotik vasitələr, beynəlxalq cinayətlərin subyekti kimi*

Birləşmiş Millətlər Təşkilatının narkotik vasitələr və psixotrop maddələr haqqında konvensiyaları haqqında bəzi tədqiqatlar aparılmış, həmin araşdırmaların nəticəsi kimi dəyərli elmi əsərlər yazılmışdır. E.H.Həsənovun «Narkotik cinayətkarlıqla mübarizə»[7] V.N.Kurçenkonun «Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə əks təsir»[8] T.M.Klimenkonun «Narkotiklərin qanunsuz dövriyyəsinə görə cinayət məsuliyyəti»[9], A.A.Mayorovun «Narkotiklər: cinayət və cinayətkarlıq»[10] və s. tədqiqat əsərləri problemin öyrənilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

[7] Həsənov E.H. «Narkotik cinayətkarlıqla mübarizə». Bakı,2001

[8] Курченко В.Н. «Противодействие незаконному обороту наркотических средств и психотропных веществ. Санкт-Петербург, 2003

[9] Клименко Т.М. «Уголовная отвественност за незаконной обород наркотиков» Криминалистических и уголовно правовой аспекты. Саратов,1999



Həmin tədqiqatlarda araşdırma obyekti kimi götürdüyümüz problemin mühüm cəhətlərinə toxunulsa da məsələlər tam əhatə olunmur. Bütün bunları nəzərə alaraq biz də çalışmışıq ki, bu barədə söylənən qiymətli fikirləri bir qədər də genişləndirək.

Əvvəlcə Birləşmiş Millətlər Təşkilatının narkotik vasitələr və psixotrop maddələr haqqında konvensiyaları haqda müfəssəl məlumat verməyə çalışaq, sonra isə onu beynəlxalq cinayətlərin subyekti kimi təhlil etməyə çalışaq.

İlk öncə qeyd olunmalıdır ki, BMT həmin konvensiyaları qəbul etməyə hazırlıq kimi və onların reallaşdırılmasını əsaslandırmaqdan ötrü xüsusi konrfrans keçirmiş, yekun aktı qəbul etmişdir. BMT başlanğıc kimi Birləşmiş Millətlər Təşkilatının İqtisadi və Sosial Şura 28 iyul 1958-ci il tarixli 689 J (XXMI) qətnaməsi ilə Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin 62-ci maddəsinin 4-cü bəndinə və Baş Assambleyanın 3 dekabr 1949-cu il tarixli 366-cı (IV) qətnaməsinin qərarlarına uyğun olaraq, bu sahədə mövcud olan çoxtərəfli muqavilələri vahid

[10] Майоров А.А.,Малинин В.Б. «Наркотики: преступност и преступления». Изд-во Юридический центр Прес,2002

sənədlə əvəz edərək Narkotik vasitələr haqqında Vahid Konvensiyanı qəbul etmək, müstəsna olaraq narkotik vasitələr üzərində nəzarəti həyata keçirən beynəlxalq müqavilə orqanlarının sayını azaltmaq və narkotik xammalın istehsalı üzərinə nəzarət qoymaq üçün səlahiyyətli nümayəndələrin konfransını çağırmağı qərara almışdır.

Beləliklə də, Narkotik vasitələr haqqında Vahid Konvensiyanın qəbul edilməsi üçün Birləşmiş Millətlər Təşkilatının Konfransı 1961-ci il yanvarın 24-dən martın 25-nə kimi Birləşmiş Millətlər Təşkilatının Mərkəzi idarələrində keçirilmişdir ki, orada yetmiş üç dövlətin nümayəndələri Konfransda təmsil olunurdu:

Albaniya
Almaniya Federativ Respublikası
Amerika Birləşmiş Ştatları
Argentina
Avstraliya
Belorusiya Sovet Sosialist Respublikası
Birləşmiş Ərəb Respublikası
Birma
Bolqarıstan
Boliviya
Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı
Braziliya
Çad



Çexoslovakiya
Çili
Çin
Danimarka
Daqomeya
Dominikan Respublikası
Əfqanıstan
Filippin
Finlandiya
Fransa
Haiti
Hindistan
İndoneziya
İordaniya
İran
İraq
İspaniya
İsrail
İsveç
İsveçrə
İtaliya
Kamboca
Kanada
Konqo (Lepoldvil)
Koreya Respublikası
Kosta-Rika
Qana
Qvatemala
Liberiya

Livan
Macarıstan
Madaqaskar
Meksika
Mərakeş
Monako
Niderland
Nigeriya
Nikaraqua
Norveç
Pakistan
Panama
Paraqvay
Peru
Polşa
Portuqaliya
Rumıniya
Salvador
Seneqal
Sovet Sosialist Respublikaları İttifaqı
Tailand
Tunis
Türkiyə
Ukrayna Sovet Sosialist Respublikası
Uruqvay
Vatikan
Venesuela
Yuqoslaviya
Yaponiya



Yeni Zenlandiya
Yunanıstan

Təqdim olunan siyahıdakı ölkələr içərisində Sovet Sosialist Respublikaları İttifaqının adı çəkilməklə yanaşı, onun subyektləri, müstəqil dövlətlər kimi Ukrayna Sovet Sosialist Respublikasının və Belorusiya SSR-nin də adı çəkilir. Azərbaycanın isə digər respublikalar kimi adı vurğulanmır (yəqin ki, bu amil keçimiş SSRİ-nin daxili və xarici siyasəti ilə birbaşa ilgili məsələdir – S.M.). Təkcə Seylon dövləti müşahidəçi ilə həmin konfransda təmsil olunurdu.

Bunlardan əlavə ixtisaslaşdırılmış təsisatlardan ümumdünya Səhiyyə Təşkilatı ilə yanaşı, beynəlxalq Mülki Aviasiya, əmək və ərzaq təşkilatları da iştirakçılar arasında olmuşdur. Problemin beynəlxalq cinayət subyekti xarakterli olduğu səbəbindən həmin konfransda «Opium üzrə daimi mərkəzi komitə», Narkotik Vasitələr Üzrə Nəzarət Orqanı, Kriminal Polisin Beynəlxalq Əməkdaşlıq Təşkilatı və s. qurumlar da prosesə cəlb olunmuşdur.

Biz əvvəlki tədqiqatlarımızda dünyanın bəzi dövlətlərində narkotiklərin qanunsuz kultivasiyası və istehsalında fərqlənən bir neçə dövləti iqtibas kimi gətirmişdik («Narkotizmin cəmiyyətdə bəzi təzahürləri və onlara qarşı mübarizə», «Narkotik cinayətkarlıqların təzahürləri və onlara qarşı

mübarizənin problemləri (cinayət prossesual aspektlər)» – S.M.). Məhz həmin dövlətlərin bəzilərinin nümayəndələri yeni yaradılan komitələrə sədr təyin edilmişlər.

Məsələn, **Üçüncü layihənin 2-ci və 3-cü maddələri üzrə Xüsusi komitə** (Konvensiyanın tətbiqi sahəsi və onun digər maddələrə tətbiqi üsulları)

Sədr: cənab B.Təbibinin (Əfqanıstan);

**25-ci, 30-cu və 40-43-cü maddələr üzrə Xüsusi komitə** (Dövlət nəzarəti: ümumi qərarlar)

Sədr: cənab B.Banercinin (Hindistan);

**31-34-cü maddələr üzrə Xüsusi komitə** (Dövlət nəzarəti: tiryək xaşxaşı və xaşxaş küləşi)

Sədr: cənab L.İqnasio-Pentonun (Daqomeya),

Sədrin müavini: cənab İ.Q.Koxun (Danimarka);

**35-38-ci maddələr üzrə Xüsusi komitə** (Dövlət nəzarəti: kök yarpağı)

Sədr: K.Tikaraisinin (Yaponiya);

**39-cu maddə üzrə Xüsusi komitə** (Dövlət nəzarəti: kannabis)

Sədr: B.Qrinberqin (Bolqarıstan);

**26-cı, 27-29-cu, 20-21-ci, 4-cü maddələr üzrə Xüsusi komitə** (Hökumətlər tərəfindən təqdim olunmuş məlumatlar; hesablama və statistika məlumatları sistemi; hökumətlərin ümumi öhdəlikləri)



Sədr: cənab E.Rodriqes-Fabreqatın (Uruqvay),

Sədrin müavini: cənab İ.Bertşingerin (İsveçrə);

**22-ci maddə üzrə Xüsusi komitə** (Konvensiyanın qərarlarının yerinə yetirilmədiyi halda Komitənin görə biləcəyi tədbirlər)

Sədr: cənab A.Qurinoviçin (Belorusiya Sovet Sosialist Respublikası);

**5-11-cı, 13-19-cu, 23-cü maddələr üzrə Xüsusi komitə** (Beynəlxalq orqanlar: tərkibi, funksiyaları və katiblik)

Sədr: cənab Q.Blomştedtin (Finlandiya);

**44-46-cı maddələr üzrə Xüsusi komitə** (Qanunsuz dövriyyəyə qarşı birbaşa tədbirlər)

Sədr: cənab A.Bittenkurtun (Braziliya) təyin edilməsi bizim fikir və mülahizələrimizin düzgünlüyünün təsdiqi kimi götürülə bilər. Çünki adı çəkilən ölklərin əksəriyyətində həqiqətən də digər dövlətlərlə müqayisədə narkotiklərin istehsalı külli miqdarda çoxdur.

Əksər beynəlxalq cinayətlərin subyektlərindən sayılan narkotik vasitələr haqqında BMT-nin konvensiyasının III-qətnaməsi tövsiyə xarakterli olsa da, onda ehtiva olunan cəhətlər hər bir dövlətin milli qanunvericiliyində təsbit olunmaq imkanını gücləndirir. Məsələn, «Qanunsuz dövriyyə ilə məşğul olan şəxslər» adlandırılan III-qətnamədə deyilir:

«**Konfrans,**

**1)** qanunsuz dövriyyə ilə məşğul olan şəxslərə aid olan və hazırda Kriminal Polisin Beynəlxalq Əməkdaşlıq Təşkilatı tərəfindən saxlanılan texniki yazıların əhəmiyyətini nəzərə çatdırır;

**2)** bu yazıların, imkan daxilində, bütün Tərəflər tərəfindən artırılması və qanunsuz dövriyyə ilə məşğul olan şəxsləri təsvir etməklə məlumatların göndərilməsi məqsədilə həmin Təşkilat tərəfindən geniş istifadə olunmasını tövsiyyə edir».

Bəzi beynəlxalq cinayətlərin subyektləri sayılan Narkotik vasitələr haqqında 1961-ci il vahid konvensiyasına düzəlişlərə baxılması üçün Birləşmiş Millətlər Təşkilatı daha bir konfrans keçirərək yekun aktı qəbul etmişdir.

Həmin yekun aktda deyilir:

**1.** Birləşmiş Millətlər Təşkilatının İqtisadi və Sosial Şurası Narkotik vasitələr haqqında 1961-ci il Vahid Konvensiyasına düzəlişlər təklif olunması faktını qeyd edərək və bu Konvensiyanın 47-ci maddəsini nəzərə alaraq, özünün 21 may 1971-ci il tarixli 1577-ci (L) qətnaməsində Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin 62-ci maddəsinin 4-cü bəndinə əsasən Narkotik vasitələr haqqında 1961-ci il Vahid Konvensiyasına təklif olunmuş bütün düzəlişlərə baxılması üçün



səlahiyyətli nümayəndələrin konfransının çağırılmasını qərara aldı.

**2.** Narkotik vasitələr haqqında 1961-ci il Vahid Konvensiyasına düzəlişlərə baxılması üçün Birləşmiş Millətlər Təşkilatının Konfransı Birləşmiş Millətlər Təşkilatının Cenevrədəki Bölməsində 1972-ci il martın 6-dan 24-nə kimi keçirildi.

**3.** Konfransda aşağıdakı göstərilən 97 dövlət öz nümayəndələri vasitəsilə təmsil olunurdu:

Almaniya Federativ Respublikası
Amerika Birləşmiş Ştatları
Argentina
Avstraliya
Avstriya
Belorusiya Sovet Sosialist Respublikası
Belçika
Birma
Bolqarıstan
Boliviya
Braziliya
Brundi
Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı
Cənubi Afrika
Çexoslovakiya
Çili
Danimarka
Daqomeya

Ekvador
Əlcazair
Əfqanıstan
Fil Dişi Sahili
Fillippin
Finlandiya
Fransa
Haiti
Hindistan
İndoneziya
İordaniya
İraq
İran
İrlandiya
İspaniya
İsrail
İsveç
İsveçrə
İtaliya
Kanada
Keniya
Kxmer Respublikası
Kipr
Kolumbiya
Koreya Respublikası
Kosta-Rika
Kuba
Küveyt
Qabon



Qambiya
Qana
Qvatemala
Laos
Liberiya
Lixtenşteyn
Livan
Liviya Ərəb Respublikası
Lyuksemburq
Madaqaskar
Macarıstan
Malavi
Meksika
Mərakeş
Misir
Monako
Monqolustan Xalq Respublikası
Niderland
Niger
Nigeriya
Nikaraqua
Norveç
Panama
Pakistan
Peru
Polşa
Portuqaliya
Salvador
Seneqal

Seylon
Səudiyyə Ərəbistanı
Sinqapur
Sovet Sosialist Respublikaları İttifaqı
Sudan
Syera Leone
Tailand
Toqo
Tunis
Türkiyə
Uruqvay
Ukrayna Sovet Sosialist Respublikası
Vatikan
Venesuela
Vyetnam Respublikası
Yamayka
Yaponiya
Yeni Zenlandiya
Yuqoslaviya
Yunanıstan
Zair

**4.** Aşağıdakı dövlətlər Konfransda müşahidəçilərlə təmsil olunurdu:

Dominikan Respublikası
Kamerun
Malayziya
Malta
Rumıniya



Göründüyu kimi, narkotiklər beynəlxalq cinayətlər subyektlərini təşkil edən amil kimi qloballaşdıqca onunla mübarizəni zəruri hesab edən iştirakçı dövlətlərin sayı 73-dən 97-yə çatmışdır.

Digər tərəfdən İqtisadi və Sosial Şura özünün 1577-ci (L) qətnaməsi ilə Ümumdünya Səhiyyə Təşkilatının və digər maraqlı ixtisaslaşdırılmış təsisatların, Narkotiklər Üzərində Nəzarət üzrə Beynəlxalq Komitənin və Kriminal Polisin Beynəlxalq Təşkilatının nümayəndələrinin Konfransa dəvət olunmasını Baş katibdən xahiş etmişdi. Nəticədə Ümumdünya Səhiyyə Təşkilatı, Narkotiklər Üzərində Nəzarət üzrə Beynəlxalq Komitə və Kriminal Polisin Beynəlxalq Təşkilatı konfransda təmsil olunurdular.

Narkotik vasitələr haqqında 1961-ci il vahid konvensiyasına düzəlişlər haqqında 1972-ci il protokoluna uyğun olaraq ona edilmiş düzəlişlərlə olan Narkotik vasitələr haqqında 1961-ci il vahid konvensiyasının ayrı-ayrı maddələri də cinayətlərin subyektlərinin motivlərini aydın şəkildə özündə ehtiva edir.

Düzdür, humanist prinsiplər əsasında yazılan preambulada tövsiyə xaratkterli məsələlər diqqətə çatdırılsa da onda beynəlxalq səviyyəli cinayətlərin törədilməsini özündə ehtiva edən elementlər çoxdur.

Preambulada yazılır:

Bəşəriyyətin sağlamlığı və rifahına görə təlaş keçirən Tərəflər, ağrıların və iztirabların yüngülləşdirilməsi üçün narkotik vasitələrin tibbdə tətbiq olunması zərurətinin mövcudluğunu və bu məqsədlər üçün narkotik vasitələrə olan tələbatın təmin olunması üçün lazımi tədbirlər görülməli olduğunu etiraf edərək,

narkomanlığın ayrı-ayrı şəxslər üçün ciddi bəla olduğunu və bəşəriyyət üçün sosial və iqtisadi təhlükə törədə biləcəyini etiraf edərək,

özünün bu bəlanın qarşısını almaq və onunla mübarizə aparmaq vəzifəsini dərk edərək,

narkotik vasitələrdən sui-istifadəyə qarşı səmərəli tədbirlərin əlaqələndirilmiş və universal tədbirlər görülməsini tələb etdiyini nəzərə alaraq,

belə universal tədbirlərin ümumi mədsəqlərin əldə olunmasına yönəlmiş və həmin prinsiplərlə idarə olunan beynəlxalq əməkdaşlıq tələb etdiyini anlayaraq,

narkotiklər üzərində nəzarət sahəsində Birləşmiş Millətlər Təşkilatının səlahiyyətini etiraf edərək və maraqlı beynəlxalq orqanların bu Təşkilat çərçivəsində olmasını istəyərək,

narkotik vasitələr haqqında mövcud müqavilələri əvəz edən, narkotik vasitələrin tibbi və elmi məqsədlərlə məhdudlaşdıran və bu prinsiplərin və məqsədlərin həyata keçirilməsi üçün daimi beynəlxalq əməkdaşlığı və nəzarəti nəzərdə tutan, hamı tərəfindən qəbul edilə



biləcək beynəlxalq konvensiyanın bağlanmasını istəyərək,

bununla da aşağıdakılar barədə razılığa gəldilər:

Maddədə bir də ümumi anlayışlar haqqında açıqlama verilir (bu barədə müxtəlif mənbələrdə, o cümlədən «Narkotik vasitələr, psixotrop maddələr və prekursorlar» sənədlər toplusu və s. məlumat verildiyini nəzərə alaraq həmin problemə toxunmuruq – S.M.) və onların mənası aydınlaşdırılır.

Lakin 4-cü maddə ümumi öhdəliklər adlanır ki, burada ehtiva olunanlar iştirakçı dövlətlərin hər birinin qanunvericiliyin formalaşmasında və beynəlxalq cinayətlərin subyekti ola bilən narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı koordinasiyalı birgə mübarizədə mühüm vasitə rolunu oynadığı şəksizdir.

4-cü maddə ilə bərabər 5,6,7,8,9-cu maddələrlə birlikdə eyni konteksti də nəzərdən keçirək:

Ümumi öhdəliklər (Maddə 4) Tərəflər aşağıdakılar üçün zəruri ola bilən qanunvericilik tədbirləri və inzibati tədbirlər görürlər:

a) onların öz ərazi hüdudlarında bu Konvensiyanın qərarlarının qüvvəyə mindirilməsi və yerinə yetirilməsi;

b) bu Konvensiyanın qərarlarının yerinə yetirilməsində digər dövlətlərlə əməkdaşlıq edilməsi; və

c) bu Konvensiyanın qərarlarına riayət olunması şərti ilə narkotik vasitələrin istehsalının, hazırlanmasının, ixracının, idxalının, paylanmasının, onlarla ticarətin və onların tətbiqinin və saxlanmasının müstəsna olaraq tibbi və elmi məqsədlərlə məhdudlaşdırılması.

Beynəlxalq nəzarət orqanları (Maddə 5) Tərəflər, narkotik vasitələr üzərində beynəlxalq nəzarət barəsində Birləşmiş Millətlər Təşkilatının səlahiyyətlərini tanıyaraq, bu Konvensiyaya uyğun olaraq İqtisadi və Sosial Şuranın narkotik vasitələr üzrə Komissiyasına və Narkotiklər Üzərində Nəzarət üzrə Beynəlxalq Komitəyə verilmiş funksiyaların müvafiq olaraq onlara həvalə olunması ilə razılaşırlar.

Beynəlxalq nəzarət orqanlarının xərcləri (Maddə 6) Komissiyanın və Komitənin xərclərini Baş Assambleyanın müəyyən edəcəyi qaydada Birləşmiş Millətlər Təşkilatı ödəyir. Birləşmiş Millətlər Təşkilatının üzvü olmayan Tərəflər bu xərclərin ödənməsi üçün Baş Assambleyanın ədalətli hesab etdiyi və vaxtaşırı olaraq həmin Tərəflərin hökumətləri ilə məsləhətləşmələr yolu ilə müəyyən etdiyi məbləği ödəyirlər.



Beynəlxalq nəzarət orqanlarının xərcləri (Maddə 7) 3-cü maddəyə uyğun olaraq qəbul edilmiş qərarlar istisna olunmaqla, Komissiyanın bu Konvensiyanın qərarları əsasında qəbul edilmiş hər bir qərarı, yaxud tövsiyyəsi, onun digər qərarları, yaxud tövsiyyələri kimi Şura və ya Baş Assambleya tərəfindən təsdiq edilməli, yaxud dəyişdirilməlidir.

Konvensiyanın funksiyaları (Maddə 8) Komissiya bu Konvensiyanın mədsəqlərinə aidiyyəti olan bütün məsələlərə baxmaq hüququna malikdir və o cümlədən də:

a) 3-cü maddəyə uyğun olaraq siyahılara dəyişiklik etmək;

b) Komitənin diqqətini Komitənin funksiyalarına aidiyyəti ola bilən istənilən hadisəyə cəlb etmək;

c) elmi tədqiqatlar proqramını, elmi və texniki məlumat mübadiləsini də daxil etməklə bu Konvensiyanın məqsədlərinin və qərarlarının həyata keçirilməsi barədə tövsiyyələr etmək; və

d) Konvensiyanın iştirakçısı olmayan dövlətlərin diqqətini, onun bu Konvensiya əsasında qəbul etdiyi qərar və tövsiyyələrə, onların həmin qərar və tövsiyyələrə uyğun olan tədbirlər görülməsi məsələsinə baxmaları məqsədilə cəlb etmək.

Komitənin tərkibi və funksiyaları (Maddə 9) **1.** Komitə Şura tərəfindən aşağıdakı şəkildə seçilən on üç üzvdən ibarətdir:

a) **tibbi, farmokoloji, yaxud farmasevtik təcrübəyə malik üç üzv** – Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən göstərilən ən azı beş nəfər şəxsin daxil edildiyi siyahıdan; və

b) **on üzv** - Birləşmiş Millətlər Təşkilatının üzvü olan dövlətlərin və Birləşmiş Millətlər Təşkilatının üzvü olmayan Tərəflərin göstərdiyi şəxslərin siyahısından.

**2.** Özünün kompetentliyi, qərəzsizliyi və maraqlı tərəf olmaması baxımından hamının etimadını qazanmış şəxslər Komitənin üzvü ola bilərlər. Bu vəzifədə olduqları müddət ərzində onlar, öz funksiyalarının yerinə yetilirməsi zamanı onların qərəzsizliyinə zərər vura bilən hər hansı bir vəzifə tutmamalı, yaxud hər hansı bir fəaliyyətlə məşğul olmamalıdırlar. Şura Komitə ilə məsləhətləşərək öz funksiyalarının yerinə yetirilməsi zamanı Komitənin tam texniki müstəqilliyinin təmin edilməsi üçün bütün zəruri tədbirləri görür.

**3.** Şura, ədalətli coğrafi təmsilçilik prinsipini lazımi şəkildə əsas götürərək, narkotikləri istehsal edən, hazırlayan və həmçinin istehlak edən ölkələrdə narkotik vasitələrlə bağlı vəziyyəti bilən və belə ölkələrlə əlaqəli olan şəxslərin



ədalətli say mütənasibliyi ilə Komitənin tərkibinə daxil edilməsinin əhəmiyyətliliyini nəzərə alır.

**4.** Komitə hökumətlərlə əməkdaşlıq etməklə və bu Konvensiyanın qərarlarını nəzərə alaraq, narkotik vasitələrin becərilməsini, istehsalını, hazırlanmasını və istifadə olunmasını tibbi və elmi məqsədlər üçün zəruri olan miqdarla məhdudlaşdırmağa, belə məqsədlər üçün onların mövcudluğunu təmin etməyə və narkotik vasitələrin qanunsuz becərilməsinin, istehsalının, hazırlanmasının, istifadə olunmasının və narkotik vasitələrin qanunsuz dövriyyəsinin qarşısını almağa çalışır.

**5.** Bu Konvensiyaya uyğun olaraq Komitənin gördüyü bütün tədbirlər hökumətlər və Komitə arasında əməkdaşlığın inkişafına yardım məqsədlərinə və hökumətlər və Komitə arasında daimi dialoq üçün mexanizmin təmin olunmasına ən yüksək dərəcədə cavab verən tədbirlər olmalıdır. Həmin dialoq isə bu Konvensiyanın məqsədlərinə nail olunmasına yönəlmiş effektiv milli tədbirlərin keçirilməsinə kömək edəcək və imkan yaradacaqdır.

Narkotik vasitələrin qanunsuz dövriyyəsini hər bir dövlətin qanunvericiliyində əsaslandırmağa və ona qarşı mübarizəni qanuniləşdirməyə imkan verən digər maddələri də nəzərdən keçirək:

Narkotik vasitələrin saxlanması (Maddə 33) Tərəflər qanuni hüquqlar olmadan narkotik vasitələrin saxlanmasına icazə vermirlər.

## Maddə 34
## NƏZARƏT VƏ TƏFTİŞ TƏDBİRLƏRİ

Tərəflər tələb edirlər ki:

a) Bu Konvensiyanın qərarlarına uyğun olaraq lisenziya alan, yaxud bu Konvensiyaya uyğun olaraq yaradılmış dövlət müəssisələrində direktor və ya nəzarətedici vəzifələr tutan bütün şəxslər bu məqsədlə qəbul olunmuş qanunların və qaydaların qərarlarının effektiv və dəqiq həyata keçirilməsi üçün lazımi ixtisasa malik olsunlar; və

b) hökumət orqanları, fabrik sahibləri, ticarətçilər, alimlər, elmi institutlar və xəstəxanalar hazırlanmış hər bir narkotik vasitənin miqdarını və narkotik vasitələrin hər bir ayrıca əldə etmə və istifadə halını göstərən yazılar aparsınlar. Bu yazılar müvafiq olaraq iki ildən az olmayan müddət ərzində saxlanılır. Reseptlərin yazılması üçün kötüklü kitabçalardan istifadə edildikdə (30-cu maddənin 2 b bəndi) kötüyü də daxil edilməklə bu kitabçalar həmçinin iki ildən az olmayan müddət ərzində saxlanılır.

Qanunsuz dövriyyə ilə mübarizə tədbirləri (maddə 35) Özlərinin konstitusiya, hüquqi və inzibati sistemlərini lazımi qaydada nəzərə almaqla, Tərəflər:

a) qanunsuz dövriyyəyə qarşı preventiv və repressiv tədbirlərin koordinasiyası üçün dövlətdaxili tədbirlər görürlər; bu məqsədlə onlar işin xeyrinə olaraq belə koordinasiyaya görə məsuliyyət daşıyacaq müvafiq orqanı təyin edə bilərlər;

b) qanunsuz dövriyyə ilə mübarizə üzrə kompaniyanın keçirilməsində bir-birinə kömək edirlər;

c) qanunsuz dövriyyə ilə mübarizə üzrə razılaşdırılmış kompaniyanın keçirilməsi üçün bir-biri ilə və üzv olduqları səlahiyyətli beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq edirlər;

d) müvafiq orqanlar arasında beynəlxalq əməkdaşlığın çevik həyata keçirilməsini təmin edirlər;

e) məhkəmə təqibi üçün beynəlxalq qaydada hüquqi sənədlərin verilməsi tələb olunduğu hallarda, Tərəflərin göstərdiyi orqanlara belə verilmənin çevik şəkildə icra edilməsini təmin edirlər. Bu tələb Tərəflərin rəsmi sənədlərin onlara diplomatik yolla göndərilməsini tələb etmək hüququnu pozmur.

f) əgər onlar məqsədəuyğun hesab edirlərsə Baş katib vasitəsi ilə Komitəyə və Komissiyaya 18-ci maddəyə əsasən tələb olunan məlumatlara əlavə olaraq narkotik vasitələrlə

bağlı öz ərazi hüdudlarında qanunsuz fəaliyyət haqqında məlumatları, o cümlədən qanunsuz becərmə, istehsal, hazırlama və narkotik vasitələrin qanunsuz dövriyyəsi və istifadəsi barədə məlumatları təqdim edirlər; və

g) bu mümkün olduğu qədər, əvvəlki bənddə qeyd olunan məlumatları, Komitənin xahiş etdiyi şəkildə və müddətlərdə təqdim edirlər; Tərəfdən xahiş daxil olduğu halda Komitə ona bu məlumatların təqdim olunması və narkotik vasitələrlə bağlı qanunsuz fəaliyyətin onun öz ərazi hüdudlarında azaldılmasına çalışmaq barədə öz məsləhətlərini təklif edə bilər.

Cəzalar haqqında qərarlar (Maddə 36) **1.** a) Özünün konstitusiya məhdudiyyətlərinə riayət etməklə hər bir Tərəf, bu Konvensiyanın qərarlarını pozmaqla narkotik vasitələrin becərilməsi və istehsalının, hazırlanmasının, tərkibdən çıxarılmasının, hasil edilməsinin, saxlanmasının, təklif edilməsinin, kommersiya məqsədi ilə təklif edilməsinin, paylanmasının, satın alınmasının, satılmasının, istənilən şərtlə çatdırılmasının, dəllallığının, göndərilməsinin, tranzitlə yenidən göndərilməsinin, daşınmasının, idxalının və ixracının və Tərəflərin rəyinə görə bu Konvensiyanın qərarlarına zidd sayıla biləcək istənilən digər hərəkətin qəsdən törədildiyi halda cəzalandırılmalı olan əməl sayılması, eləcə də ciddi cinayətlərin müvafiq cəzalanmaya, xüsusən də həbsxanada saxlamaqla azadlıqdan məhrumetmə, yaxud digər üsulla azadlıqdan məhrumetmə növündə cəzalanmaya məruz qoyulmasını təmin edəcək tədbirlər görür;

b) bu maddənin əvvəlki yarımbəndinin qərarlarından asılı olmayaraq, narkotik vasitələrdən sui-istifadə edən şəxslər belə cinayətləri törətdikləri hallarda Tərəflər məhkumetmənin, yaxud cəzanın əvəz edilməsi və ya cəzaya əlavə olaraq 38-ci maddənin 1-ci bəndinə əsasən, belə şəxslər barəsində onların müalicəsinə, tərbiyə olunmasına, müalicə başa çatdıqdan sonra onlara nəzarət olunmasına, əmək qabiliyyətinin bərpa olunmasına və onların cəmiyyətə qaytarılmasına yönələn tədbirləri *nəzərdə tuta bilərlər.*

**2.** Tərəflərin konstitusiya məhdudiyyətlərinə, onların hüquq və daxili qanun sisteminə riayət etməklə,

a) I) 1-ci bənddə sadalanan cinayətlərdən hər birinə, əgər onlar müxtəlif ölkələrdə törədilmişdirsə, ayrıca cinayət kimi baxılacaqdır;

II) belə cinayətlərdən hər hansı birində qəsdən iştirak etmə, belə cinayətlərin törədilməsi və törədilməsinə qəsd məqsədi ilə cinayətkar birlikdə iştirak etmə və hazırlıq hərəkətləri və bu maddədə sadalanan cinayətlə bağlı maliyyə əməliyyatları 1-ci bənddə nəzərdə tutulmuş cəzalanmalı olan əməllər kimi tanınacaq;

III) belə cinayətlərə görə xarici məhkəmələrin hökmləri residivin müəyyən edilməsi məqsədləri üçün nəzərə alınacaq;

IV) yuxarıda qeyd olunan ciddi cinayətlər, əgər onlar həmin ölkənin vətəndaşı, yaxud əcnəbilər tərəfindən törədilmişdirsə, ərazisində həmin cinayət törədilmiş Tərəf, yaxud ərazisində cinayətkar aşkar olunmuş Tərəf tərəfindən təqib olunur, əgər ekstradisiya müvafiq xahişin ünvanlanmış olduğu Tərəfin qanunlarına görə yolverilməzdirsə və əgər cinayətkar hələ məhkəmə təqibinə məruz qoyulmamışdırsa və onun işi üzrə hökm çıxarılmamşdırsa.

b) I) Bu maddənin 1 və 2 **a**, II bəndlərində sadalanan cinayətlərdən hər biri ekstradisiyaya səbəb olan cinayət kimi ekstradisiya haqqında tərəflər arasında bağlanmış istənilən müqaviləyə daxil edimәli olan cinayət sayılır. Tərəflər belə cinayətləri, ekstradisiyaya səbəb olan cinayət kimi, onlar arasında bağlanan ekstradisiya haqqında istənilən müqaviləyə daxil etməyi öhdələrinə götürürlər;

II) əgər ekstradisiyanı müqavilənin mövcudluğu ilə şərtləndirən Tərəf, onunla ekstradisiya haqqında müqaviləsi olmayan digər tərəfdən ekstradisiya haqqında xahiş alırsa, o, öz mülahizəsinə görə bu maddənin 1 və 2 **a**, II bəndlərində sadalanan cinayətlər barəsində bu konvensiyaya ekstradisiya üçün hüquqi əsas kimi



baxa bilər. Ekstradisiya haqqında xahişin ünvanlandığı tərəfin qanunvericiliyində nəzərdə tutulmuş digər şərtlərə əsasən həyata keçirilir;

III) ekstradisiyanı müqavilənin mövcudluğu ilə şərtləndirməyən tərəflər öz aralarındakı münasibətlərdə bu maddənin 1 və 2 **a**, II bəndlərində sadalanan cinayətlərə ekstradisiya haqqında xahişin ünvanlandığı Tərəfin qanunvericiliyində nəzərdə tutulmuş şərtlərlə ekstradisiyaya səbəb olan cinayət kimi baxırlar;

IV) ekstradisiya ekstradisiya haqqında xahişin ünvanlandığı tərəfin qanunvericiliyinə əsasən həll edilir və **b** bəndinin I, II və III müddəalarından asılı olmayaraq həmin Tərəf, onun səlahiyyətli hökumət orqanları bu cinayəti kifayət qədər ciddi hesab etmədiyi hallarda ekstradisiyanı rədd edə bilər.

**3.** Yuridiksiya məsələlərində maraqlı Tərəfin cinayət hüququnun qərarları bu maddənin qərarlarına qarşı üstün qüvvəyə malikdir.

4. Bu maddədə olan heç nə, cinayətin həmin Tərəfin daxili hüquqlarına əsasən onun özü tərəfindən müəyyən olunması, təqib olunması və cəzalandırılması prinsipinə toxunmur.

Üzərinə həbs qoyma və müsadirə (Maddə 37) 36-cı maddədə barəsində danışılan istənilən narkotik vasitələr, maddələr və cinayət törədilməsində istifadə olunmuş, yaxud bu məqsədlə istifadə olunacağı nəzərdə tutulan

avadanlıq predmetləri üzərinə həbs qoyulmalı və müsadirə olunmalıdır.

Hesab edirik ki, bu maddələrə əsaslanaraq digər dünya ölkələri kimi müstəqil Azərbaycan dövləti də narkotik vasitələrin beynəlxalq cinayətlərin subyektinə çevrilməməsi üçün bu istiqamətdə qanunvericiliyini formalaşdırır və təkmilləşdirir. Müstəqilliyin bərpasından sonra görülən işlər bunu deməyə əsas verir.

Yəni, son illər narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində qəbul edilmiş qanunlar, Azərbaycan Respublikası Prezidentinin Fərmanları və digər normativ-hüquqi sənədlər ölkəmizdə narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə işinn təşkilində xüsusi rol oynamış, onunla mübarizədə geniş hüquqi baza yaratmış, müvafiq dövlət və ictimai qurumlar qarşısında konkret və vacib vəzifələr qoymuşdur.

Baş Narkotiklərlə Mübarizə İdarəsi təşkilatçılıq fəaliyyətinin və nəzarət mexanizminin yaxşılaşdırması, ərazi orqanlarının fəaliyyətinin əlaqələndirilməsi, ölkədə narkotik vəziyyətə nəzarət olunması istiqamətində konkret tədbirlər həyata keçirmiş, hüquq mühafizə və digər dövlət orqanları ilə səmərəli qarşılıqlı əlaqələr yaratmışdır.

Respublika ərazisində narkotik vəziyyətə nəzarət etmək üçün yerli polis orqanlarının



gördükləri işlərin gündəlik operativ uçotu aparılmaqla fəaliyyətsizliyə yol verən orqanların rəhbərləri məlumatlandırılmış, «2004-cü ildə daxili işlər orqanları tərəfindən narkotiklərlə mübarizənin vəziyyətinə dair» 11 fevral 2005-ci il tarixdə 16/xiü nömrəli icmal «Agentura-əməliyyat fəaliyyətinə dair», «Əməliyyat-uçot işlərinin vəziyyətinə dair», «İnzibati qaydada məsuliyyətə cəlb olunmuş şəxslər barədə», «Müsadirə olunmuş narkotik vasitələrin, psixotrop dərmanların, Səhiyyə Nazirliyinin labaratoriyasına göndərilməsi barədə», Polis orqanlarının narkotiklərlə mübarizədə gördükləri işi əks etdirən hesabatların vaxtında təqdim olunmasına dair» göstərişlər, ölkə ərazisində qanunsuz kultivasiya edilən və yabanı halda yayılan narkotik xassəli bitkilərin aşkarlanıb məhv edilməsi məqsədi «Xaş-Xaş-2005» şərti adı altında kompleks əməliyyat-axtarış və profilaktik tədbirlərin keçirilməsi ilə əlaqədar 10.04.2005-ci il tarixli 1/31xiü nömrəli tədbirlər planı və həmin planın icrası ilə bağlı 18.04.2005-ci il tarixdə «Narkotiklərlə mübarizənin gücləndirilməsi tədbirlərinə dair» 38 nömrəli göstəriş hazırlanıb yerlərə göndərilərək icrası nəzarətə götürülmüşdür.

Yaxın tariximizə nəzər salsaq görərik ki, keçirilən səmərəli əməliyyatlar nəticəsində tonlarla narkotik vasitələrin Azərbaycan ərazi-

sindən keçirilməsinə cəhdlərin qarşısı alınmış, yəni beynəlxalq cinayətlərin subyektləri kimi çoxlu sayda narkotik qaçaqmalçılığı ilə məşğul olan mütəşəkkil cinayətkar dəstələr zərərsizləşdirilərək cinayət məsuliyyətinə alınmışdır.

**Qeyd:** Gətirilən iqtibaslar əsasən Rusiya Daxili İşlər Nazirliyinin Milis Akademiyasının arxiv materiallarından və S.S.Məmmədovun şəxsi arxivindəndir.

### *1.3 Konvensiyaya qoşulmuş dövlətlərin psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə mübarizədə birgə fəaliyyətinin zəruriliyi*

Problemin daha yaxşı tədqiqinə nail olmaqdan ötrü əvvəlcə «Psixotrop maddələr» termininin mənasına diqqət yetirək. Psixotrop maddələr haqqında konvensiyanın 1-ci maddəsinin **e** bəndində bu terminin açımı belə verilmişdir: «Psixotrop maddə» - I, II, III, yaxud IV siyahıya daxil edilmiş istənilən təbii və ya sintetik maddə, yaxud istənilən təbii material deməkdir (I siyahıya Brolamfetamin, katinon, psilosilin, Tenosiklidin və s., II siyahıya Amftamin, Deksamfetamin, Fensiklidin, sekobarbital və s. III siyahıya Buprenorfin, Butalbitil, skilobarbital, pentobarbital və s. daxildir – S.M.). Həmin terminlər bəzi mənbələrdə aşağıdakı kimi verilir: «Psixotrop maddələr – Azərbaycan



Respublikasının qanunvericiliyi ilə bu cür təsnif edilmiş və dövriyyəsi məhdudlaşdırılmış hər hansı təbii və ya süni maddələr, təbii materiallar, habelə qanunvericiliklə yuxarıda göstərilən kateqoriyalara aid edilmiş və sui-istifadə zamanı insanların sağlamlığı üçün təhlükə yaradan digər vasitələr və materiallardır»[11].

Zənnimizcə bu terminin açıqlaması verilərkən «Psixotrop maddələr haqqında 1971-ci il Konvensiyasını əsas götürərək I, II, III və IV siyahıya daxil edilmiş istənilən təbii və ya sintetik maddə» sözləri daxil edilsəydi həmin fikrin BMT-nin konvensiyasına əsaslandığı təsdiqlənərdi.

Demək psixotrop maddələr haqqında az da olsa bilgi aldıq. Müxtəlif növ narkotiklərin hazırlanmasında onlara bərabər analoqlardan istifadə edərək daha güclü təsirə malik narkotik vasitələr hazırlanaraq onların qanunsuz dövriyyəsinə cəhd göstərilməsi dünya ictimaiyyətini ciddi şəkildə narahat edən qlobal problemlərdən olduğundan bu məsələ təbii olaraq BMT-nin diqqətindən kənarda qala bilməzdi. Odur ki, insanların həyatı və sağlamlığı üçün daima təhlükə mənbəyi olan bu problemin müsbət həllinə nail olmaqdan ötrü Birləşmiş Millətlər Təşkilatı 1971-ci ildə psixotrop maddələr haqında konvensiya qəbul etdi və bu müdhiş

[11] Narkotik vasitələr,psixotrop maddələr və prekursorlar (sənədlər toplusu). Hüquq ədəbiyyatı nəşriyyatı,Bakı,2003

bəlanın fəsadlarını daima hiss edən 71 dövlətin nümayəndələri yanvarın 11-dən fevralın 21-nədək Vyanada keçirilən konfransda itşitak etdi. Burada cəmi dörd dövlət, yəni Çexoslovakiya, Rumınıya, Vyetnam Respublikası və Uruqvay dövlətləri müşahidəçilərlə təmsil olunurdular. Əvvəlki konfranslarda olduğu kimi bu konvensiyanın qəbulu ilə bağlı konfransda Ümumdünya Səhiyyə Təşkilatının, beynəlxalq orqanların müvafiq qurumları kimi Narkotiklər Üzərində Nəzarət Üzrə Beynəlxalq Komitənin. İqtisadi və Sosial Şuranın 1474 (XLVIII) saylı qətnaməsinə uyğun olaraq Kriminal Polisin Beynəlxalq Təşkilatının (KPBT/İNTERPOL) nümayəndələri iştirak etmişlər.

BMT-nin psixotrop maddələr haqqında konvensiyasına qoşulmuş dövlətlərin həmin maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizədə birgə fəaliyyətinin zəruriliyi ayrı-ayrı maddələrdə də təsbit olunmuşdur.

Yəni ilk öncə psixotrop maddələr haqqında Konvensiyanın preambulasında da demək olar ki, dünya dövlətlərinin əksəriyyətində mövcud olan bu maddələrdən sui-istifadə halları nəzərə çatdırılaraq ciddi narahatlıq ifadə olunur. Konvensiyanın preambulasında yazılır:

Tərəflər, bəşəriyyətin sağlamlığı və rifahının qayğısına qalaraq, bəzi psixotrop maddələrdən sui-istifadə nəticəsində yaranan, əhalinin



sağlamlığı üçün problemlərin və sosial problemlərin mövcudluğunu narahatlıqla **qeyd edərək,**

belə maddələrdən sui-istifadənin və onun doğurduğu qanunsuz dövriyyənin qarşısını almaq və ona qarşı mübarizə aparmaq **qətiyyətinə gələrək,**

belə maddələrdən istifadənin qanuni mədsəqlərlə istifadə çərçivəsində məhdudlaşdırılırması üçün ciddi tədbirlərin zəruri olduğunu **hesab edərək,**

psixotrop maddələrdən tibbi və elmi məqsədlər üçün istifadənin zəruri olduğunu və onlardan bu məqsədlər üçün istifadə imkanının həddindən artıq məhdudlaşdırılmamalı olduğunu **təsdiq edərək,**

belə maddələrdən sui-istifadəyə qarşı tədbirlərin effektiv olması üçün onların əlaqəli və universal olmalı olduğunu **hesab edərək,**

psixotrop maddələr üzərində nəzarət sahəsində Birləşmiş Millətlər Təşkilatının səlahiyyətli olmasını təsdiq edərək və maraqlı beynəlxalq orqanların bu Təşkilat çərçivəsində olmasını **istəyərək,**

bu məqsədlərə nail olunması üçün beynəlxalq konvensiyanın zəruriliyini **təsdiq edərək,**

aşağıdakılar barədə razılığa gəldilər:

Bundan sonra psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizədə iştirakçı dövlətlərin birgə fəaliyyətinə zəmin yaradan, mövcud hüquqi qaydaları ehtiva edən maddələr təsbit olunur.

Məsələn, maddə 20-də Psixotrop maddələrdən istifadəyə qarşı tədbirlər adlı bölmənin 3 bəndində hər bir dövlət üçün yerli mahiyyət daşıyan göstərişləridir.

**1.** Tərəflər psixotrop maddələrdən sui-istifadənin qarşısının alınması, müvafiq şəxslərin ilkin çağlarda müəyyən edilməsinə, müalicə olunmasına, tərbiyə edilməsinə, əmək qabiliyyətinin bərpasına, cəmiyyətə qaytarılmasına və müalicə başa çatdıqdan sonra onlar üzərində nəzarətə yönəlmiş bütün mümkün təbdirləri görür, həmçinin, bu məqsədlərə nail olunması üçün öz səylərini əlaqələndirirlər.

**2.** Tərəflər psixotrop maddələrdən sui-istifadə edən şəxslərin müalicə olunması, əmək qabiliyyətinin bərpa edilməsi, cəmiyyətə qaytarılması, həmçinin, müalicə başa çatdıqdan sonra onlar üzərində nəzarət aparılması üçün kadrların hazırlanmasına mümkün qədər yardım edirlər.

**3.** Tərəflər müvafiq şəxslərin (əmək fəaliyyətinə görə zəruri olanların) psixotrop maddələrdən sui-istifadə və onun qarşısının alınması problemləri ilə tanış olmasına yardım



etmək, eləcə də narkotik vasitələrdən sui-istifadənin geniş ölçüləri almaq təhlükəsi olduğu halda əhalinin bu problemlərlə tanış olmasına kömək etmək üçün bütün mümkün tədbirləri görürlər.

Qanunsuz dövriyyəyə qarşı tədbirlər adlı Maddə 21-in təyinatı isə beynəlxalq mahiyyət daşıyır və istər-istəməz iştirakçı dövlətlərin psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizədə birgə fəaliyyəti qanuniləşdirməyə imkan verir.

Özlərinin konstitusiya, hüquqi və inzibati sistemlərini lazımi qaydada nəzərə almaqla Tərəflər:

a) qanunsuz dövriyyəyə qarşı preventiv və repressiv tədbirlərin əlaqələndirilməsi üçün dövlətdaxili tədbirlər görürlər; bu məqsədlə onlar, işin xeyrinə olaraq, belə əlaqələndirməyə görə məsuliyyət daşıyan müvafiq orqan təyin edə bilərlər.

b) psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə mübarizə üzrə kompaniyanın keçirilməsində bir-birinə kömək edir və o cümlədən, ləngimədən diplomatik kanallar, yaxud Tərəflərin bu məqsədlər üçün təyin etdikləri səlahiyyətli orqanlar vasitəsilə, digər bilavasitə maraqlı Tərəflərə 16-cı maddəyə uyğun olaraq onların qanunsuz dövriyyə hadisəsinin müəyyən edilməsi ilə bağlı, yaxud götürmə ilə əlaqədar

Baş katibə göndərdikləri istənilən bildirişin surətini göndərirlər.

c) qanunsuz dövriyyə ilə mübarizə üzrə razılaşdırılmış kompaniyanın keçirilməsi məqsədilə bir-biri ilə və üzvləri olduqları səlahiyyətli beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq edirlər;

d) müvafiq orqanlar arasında beynəlxalq əməkdaşlığın operativ həyata keçirilməsini təmin edirlər; və

e) məhkəmə təqibi üçün beynəlxalq qaydada hüquqi sənədlərin verilməsi tələb olunduğu hallarda belə verilmənin Tərəflərin təyin etdikləri orqanlara operativ şəkildə həyata keçirilməsini təmin edirlər. Bu tələb Tərəflərin hüquqi sənədlərin onlara diplomatik yolla göndərilməsini tələb etmək hüququnu pozmur.

Cəzalar haqqında müddəalar adlı Maddə 22-də isə problemin hər bir dövlətin konstitusiya çərçivəsində həlli məqbul sayılır.

Həmin müddəaları nəzərdən keçirək:

1. a) Özünün konstitusiya məhdudiyyətlərinə riayət etməklə hər bir Tərəf bu Konvensiya üzrə öz öhdəliklərinin icrası naminə qəbul olunmuş hər hansı qanuna, yaxud qərarı zidd olan istənilən əmələ, qəsdən törədildiyi halda, cəzaya səbəb olan hüquqpozması kimi baxır və ciddi hüquqpozmalarının müvafiq cəzalandırılmaya, o cümlədən, həbsxanada saxlamaqla azadlıqdan məhrum etməyə, yaxud digər



formada azadlıqdan məhrum etmə cəzasına məruz qoyulmasını təmin edir.

b) bu maddənin əvvəlki yarımbəndinin müddəalarından asılı olmayaraq, psixotrop maddələrdən sui-istifadə edən şəxslər belə hüquqpozmaları törətdikləri hallarda, Tərəflər məhkum etmənin, yaxud cəzanın əvəz edilməsi və ya cəzaya əlavə olaraq, 20-ci maddənin 1-ci bəndinə uyğun olaraq belə şəxslərin müalicə olunmasına, tərbiyə edilməsinə, müalicə başa çatdıqdan sonra onlara nəzarət olunmasına, əmək qabiliyyətinin bərpasına və onların cəmiyyətə qaytarılmasına yönəlmiş tədbiləri nəzərdə tuta bilərlər.

**2.** Bu və ya digər Tərəfin konstitusiya məhdudiyyətlərinə, onun hüquq sisteminə və daxili hüququna riayət etməklə,

a) I) 1-ci bəndə uyğun olaraq hüquqpozmanı təşkil edən bir sıra qarşılıqlı əlaqəli əməllər müxtəlif ölkələrdə törədilmişdirsə, bu əməllərdən hər birinə ayrıca hüquqpozma kimi baxılır;

II) istənilən belə hüquqpozmanın törədilməsində qəsdən iştirak etmə, hüquqpozmanın törədilməsi məqsədlə razılaşma və onun törədilməsinə cəhd, eləcə də bu maddədə qeyd olunan hüquqpozmalarla bağlı hazırlıq hərəkətləri və maliyyə əməliyyatları 1-ci bənddə nəzərdə

tutulduğu kimi, cəzalanmalı olan hüquqpozmalardır;

III) belə hüquqpozmalarına görə xarici məhkəmələrin hökmləri cinayətin residivliyinin müəyyən edilməsi məqsədləri üçün nəzərə alınır; və

IV) həmin ölkənin vətəndaşları, yaxud əcnəbilər tərəfindən törədilmiş yuxarıda qeyd olunan ciddi hüquqpozmaları, ərazisində həmin hüquqpozması törədlimiş Tərəf, yaxud ərazisində cinayətkar aşkar olunmuş Tərəf tərəfindən, əgər ekstradisiya müvafiq xahişin ünvanlanmış olduğu Tərəfin qanunlarına görə yolverilməzdir və əgər cinayətkar hələ məhkəmə təqibinə məruz qoyulmamışdırsa və onun işi üzrə hökm çıxarılmamışdırsa, təqib olunur.

b) Yaxşı olardı ki, 1-ci bənddə və 2-ci bənddə **a** II yarımbəndində göstərilən hüquqpozmalar, istənilən Tərəflər arasında bağlanmış, yaxud sonradan bağlana biləcək ekstradisiya haqqında istənilən müqavilədə təqsirkarların eksrtadisiyasını nəzərdə tutan cinayətlərin sırasına daxil edilsin və belə müqavilələr ekstradisiyanı müqavilənin mövcudluğu, yaxud təqsirli şəxslərin ekstradisiyasını mümkün edən cinayətlərin qarşılıqlı olaraq tanınmasını şərtləndirməyən istənilən Tərəf 23-cü Maddə isə bu Konvensiya ilə nəzərdə tutulan tədbirlərdən daha



ciddi nəzarət tədbirlərinin tətbiq olunmasına imkan verir.

Məsələn, əgər Tərəfin fikrincə, əhalinin sağlamlağının və rifahının qorunması üçün belə tədbirlər arzuolunan, yaxud zəruridirsə, o bu Konvensiya ilə nəzərdə tutulan tədbirlərdən daha ciddi, yaxud sərt nəzarət tədbirləri görə bilər.

Zənnimizcə, bu amil özü BMT-nin hər bir dövlətin milli qanunvericiliyinə hörmətlə yanaşma prinsipini ehtiva edir.

E.M.Həsənovun «Narkotik cinayətkarlıqla mübarizə» adlı kitabında qeyd edilir ki, Birləşmiş Millətlər Təşkilatı (BMT) tərəfindən qəbul edilən Narkotik vasitələr haqqında 1961-ci il Vahid Konvensiyası (Narkotik vasitələr haqqında 1961-ci il Vahid Konvensiyasına düzəlişlər haqqında Protokola müvafiq olaraq edilmiş düzəlişlərlə (bundan sonra – düzəlişlərlə 1961-ci il Vahid Konvensiyası)), Psixotrop maddələr haqqında 1971-ci il Konvensiyası (bundan sonra – 1971-ci il il Konvensiyası), Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında 1988-ci il Konvensiyası (bundan sonra – 1988-ci il Konvensiyası) narkotizmlə mübarizəni tənzimləyən əsas beynəlxalq-hüquqi aktlardır. Həmin konvensiyalarda narkotizmlə mübarizənin beynəlxalq praktika ilə təsdiqlənən müddəaları, bu mübarizənin müxtəlif və rəngarəng hüduqdlarını

tənzimləyən, o cümlədən real ictimai təhlükəni özündə əks etridən, narkotik vasitələrlə və psixotrop maddələrlə bağlı əməllərin optimal dairəsini müəyyən edən müddəalar nəzərdə tutulmuşdur.[12] Daha sonra o, bir neçə müəllifin fikrinə istinadən bildirir ki, onlar tərəfindən bu proses zamanı «cinayət-hüquqi aspektə xüsusi üstünlük verilmişdir»[13].

Bununla yanaşı, dünya birliyinin müasir inkişaf mərhələsində narkotik cinayətkarlıqla mübarizənin beynəlxalq aspekti prioritet əhəmiyyət kəsb edir. Bu ilk növbədə onunla şərtlənir ki, cinayətkarlığın bu növü bütün dünyanı əhatə etmişdir; narkotiklərlə bağlı cinayətlər beynəlxalq xarakterli cinayətlər kimi qiymətləndirilir[14], transmilli cinayətlər kateqoriyasına aid edilir; narkotizm yer kürəsinin bütün guşələrinə sirayət etmişdir. Bundan savayı, beynəlxalq səviyyədə narkotiklərlə bağlı cinayətlərin predmeti kimi narkotik vasitələrlə yanaşı, psixotrop maddələr də tanınır. Eyni zamanda,

[12] Həsənov E.M. Narkotik cinayətkarlıqla mübarizə. Bakı, 2001

[13] Bax: Гасанов Э.Г. Антинаркотизм. Уголовно-правовые проблемы. – Баку: Азернешр, 1994; его же. Наркотизм: тенденциии и меры преодоления (на материалах Азербайджанской Республики). – М.: Учебно-консультационный центр «ЮрИнфор», 1997; его же. Уголовно-правовые и криминологические проблемы борьбы с преступлениями, связанными с наркотиками (Антинаркотизм). – Одесса: Астропринт, 1998.

[14] Bax, məsələn: Карпец И.И. Преступления международного характера. – М.: Юридическая литература, 1979. С. 48-49.



heç də bütün dövlətlərin cinayət qanunvericiliyində sonuncular deyilən cinayətlərin predmetinə aid edilməmişdir, bu isə o deməkdir ki, həmin ictimai təhlükəli əməllərlə mübarizənin cinayət-hüquqi aspekti müxtəlif dövlətlərin cinayət qanunvericiliyində eyni cür təmsil olunmamışdır. Qeyd olunan məqamlar narkotik cinayətkarlıqla mübarizənin beynəlxalq və müqayisəli-hüquqi aspektlərinin aktuallığına və çox yüksək dərəcədə əhəmiyyətinə dəlalət edir.

Çox böyük önəmə malik bu əsərdə konvensiyanın təhlilinə cəhd göstərilsə də onun maddələr üzrə müqayisələrinə ötəri toxunulur.

V.N.Kurçenkonun «Narkotik vasitələr və psixotrop maddələrin qanunsuz dövriyyəsinə əks təsir» mövzusunda təqdim etdiyi kitabda narkotiklərin qəbulu cinayətkarlığın xarakteri, dinamikası kontekstində tədqiqata cəlb edilmişdir. Lakin bu dəyərli tədqiqat əsərində də konvensiyalarla bağlı mühüm əhəmiyyət kəsb edən beynəlxalq səviyyəli sənədlərdən istifadə edilsə də, BMT-nin psixotrop maddələr haqqında 1971-ci il konvensiyasının müvafiq maddələri iştirakçı dövlətlərin birgə mübarizəsini zəruri edən şərtlər kontekstində geniş təhlildən keçirilmişdir. Zənnimizcə narkotik vasitələrin və psixotrop maddələrin istehsalı, istehlakı və qanunsuz dövriyyəsinə qarşı koordinasiyalı mübarizənin zərurətə çevrilməsini ehtiva edən amil kimi ayrı-

ayrı ölkələrdəki mövcud durum da tədqiqata cəlb edilsəydi həmin əsərlər öz dəyərini və əhəmiyyətini bir qədər də artırardı.

Məhz bu amilləri nəzərə alaraq biz araşdırmalarımız vaxtı daha yaxşı müqayisəli təhlillər aparmaq üçün müxtəlif dünya ölkələrində narkosituasiyanı öyrənməyə çalışdıq. İlk öncə İran İslam Respublikasına aid bir məlumatdakı fakta diqqət yetirməklə vəziyyəti qiymətləndirməyə çalışaq.

Məsələn, İran mətbuatının 2000-ci ilin noyabr ayında verdiyi məlumatı – «yalnız ötən 6 ay ərzində İran-Əfqanıstan sərhədində 4000 narkotika daşıyıcıları tutulmuşdur»[15] xəbərini götürmək olar.

Daha sonra Pakistanın da adı narkotiklərin qaçaqmalçılıq yolu ilə yayılmasında tez-tez vurğulanır. Məsələn, tanınmış politoloq İkram-ül-Haq özünün «Pakistan: Həşişdən heroinə doğru» kitabında Pakistanın narkotik kontrabanda ilə məşğul olan cinayətkarlarının narkotikləri əsasən dəniz və hava yolları vasitəsi ilə göndərildiklərini göstərir.

Cənubi Afrika Respublikasında da narkotik cinayətkarlığa qarşı mübarizənin müasir vəziyyətinə baxış onu göstərir ki, həmin məsələ

[15] Аргунова М. «Иран в борьбе с белой смертью», «Азия и Африка сегодня», жур. № 9, 2000, стр. 33.



bu ölkədə problem olaraq qalır. Yəni, ona qarşı ciddi mübarizə tədbirlərinin görülməsinə baxmayaraq, narkotik cinayətkarlığın kökünü kəsmək mümkün olmamışdır. Müvafiq mənbələrin araşdırılması onu göstərdi ki, həmin prosesə əngəl törədən bəzi qüvvələr var ki, onların da bu işdə həm maddi, həm də siyasi maraqları var. Məhz həmin maraqların nəticəsində Cənubi Afrika Respublikasında narkotik cinayətkarlığa qarşı mübarizədə çətin situasiyalar yaranır. İlk növbədə, səbəblərdən biri kimi ölkədə fəaliyyət göstərən, ümumən, yaxud ayrı-ayrı adamların maraqlarına xidmət edən müxtəlif təşkilatların yaradılması və onların bəzən adına, məramına uyğun fəaliyyət göstərməməsidir. Bu cür böyük təşkilatlardan biri «Xalq qanqsterlərin və narkotiklərin əleyhinədir»[16] adlı təşkilatdır. Əvvəllər xalqın mənafeyinə, ölkədə baş verən qarətlərə, narkotik cinayətlərə qarşı mübarizədə mühüm vasitə kimi yaradılan həmin təşkilat xeyli xoşməramlı işlər görmüş, lakin getdikcə onun üzvlüyünə daxil olan müəyyən qüvvələrin təkidi ilə o, özünün təyinatında bəzi dəyişikliklər etmişdir. Lakin bütün bunlara baxmayaraq, təşkilatın sıraları sağlam düşüncəli adamlarla zənginləşdi və xalqın gələcəyinə

[16] Готтшалк Кейт. «Под маской борьбы с наркодельцами». «Азия и Африка сегодня», жур. 2000, с. 45.

biganə qalmayan həmin insanlar narkotik cinayətkarlığa qarşı mübarizəni zəruri və təxirəsalınmaz bir vəzifə kimi qarşıya qoydular. Onun dəstələri, hətta kiçik qəsəbələr də belə, yaradıldı. Bunun yaddaqalan fəaliyyətinin bir məqamı diqqəti daha çox çəkir. O da 1996-cı ilin mayında parlament qarşısında etiraz zamanı 60 gün ərzində narkotika alverçiliyinə qarşı ciddi ölçü götürülməsi tələbinin qoyulmasıdır. Görünür, bu, kartın bizə tərəf dayanan üzüdür. Onun görünməyən pərdəsi arxasında, guya, xalqın mənafeyini qoruyan dırnaqarası qəhrəmanlar daha çox imiş. Bu ad altında fəaliyyət göstərən qruplar çox vaxt ölkənin qanunlarına tabe olmayaraq narkotiklərə qarşı mübarizə fonunda özlərinin çirkin niyyətlərini həyata keçirir, yəni, müxtəlif terror hadisələri törədirdilər. Əlbəttə, Cənubi Afrika Respublikasında belə bir vəziyyət ölkədə hərc-mərcliyə gəlib çıxmış mühitin reallığını əks etdirirdi. Ona görə də milli konqresin müvafiq qərar qəbul etməsi məcburi gediş olsa da, onun əhəmiyyəti böyük oldu. Yəni, getdikcə hadisələrin sürətlə inkişafının qarşısının alınmasında bu qərar müəyyən vasitəyə çevrildi və narkotik cinayətkarlığın bir növ müasir simasının açılmasına rəvac verdi. ümumillikdə götürdükdə isə bunlar CAR-da narkotik cinayətkarlığın müasir vəziyyətinin bir parçasını əks etdirir.



Tarixçi L.Xevelinq korrupsiyanın, əsas gəlir mənbəyi sayılan narkobiznesin səviyyəsinə görə Nigeriyanın 1990-cı illərdə liderlər səviyyəsində olduğunu yazır. O qeyd edir ki, hələ on il əvvəl narkobiznesə Nigeriyada sərbəst gizli iqtisadiyyatın əsası kimi baxmaq lazımdır.[17] Problemlə bağlı bu ölkədə bəzi məsələlərə nəzər yetirməyi də vacib sayırıq. Hələ 1960-cı illərdə Nigeriya yüngül narkotiklərin, xüsusilə, kannobitkilərdən hazırlanan narkotik vasitələr bazarına daxil edildi. İlk dövrlərdə narkotik vasitələrin hazırlanması, kontrabanda yolu ilə göndərilməsi ayrı-ayrı fərdlər, yaxud azsaylı üzvləri olan kiçik qruplar tərəfindən yerinə yetirilirdi. Getdikcə təcrübə qazanan narkobaronlar narkotiklərə bazarda tələbat artdıqca öz işlərini həmin meyara uyğun qurmağa çalışır və gələn gəlirlər onların gözlərini də elə qapayırdı ki, fərqinə varmadan cinayətkar əməllərini davam etdirirdilər. Məsələn, 1982-ci ildə Nigeriyanın Oyo adlı ştatında yalnız bir ay ərzində polis tərəfindən 7 fermanın qeyri-qanuni narkotik vasitələr hazırlamaq üçün hind çətənəsinin əkilib-becərilən plantasiyaları aşkar edildi. Bu dırnaqarası təsərrüfatlarda əldə olunan marixuana həm ölkə daxilində istifadəyə, həm də hissə-hissə xarici bazarlarda satılmaq üçün hazırlanırdı. Bu mənada Laqos yaxınlığında 10

[17] Хевелинг Л. «Нигерия против наркомафии». ААС, жур. 2000, с.21.

milyon dollar qiymətində hind çətənəsinin sərhəddən ötürülməsi planlaşdırılan böyük bir bazasının tapılmasını da xatırlamaq yerinə düşər. Ümumiyyətlə, bu narkotiklərin əsasən son məntəqə kimi Liverpula, yaxud da Qərbi Avropa şəhərlərinə göndərilməsi qabaqcadan qərarlaşdırılırdı. Müəyyən dövrlərdə Qərbi Afrikada gömrukxana və pasport rejiminin zəifləməsi bu ölkədən narkotiklərin göndərilməsinə xüsusi şərait yaratdı. Yəni, cinayətkarlar narkotik vasitələri, əsasən, Avropa, Asiya və Şimali Amerika marşrutları ilə göndərirdilər. Artıq Nigeriyada fəaliyyətdə olan narkotik cinayətkarlar daha çox təsirə malik və dəbdə olan narkotiklərin kokain və heroinin istehsalının sirlərini də öyrəndilər. Narkotika üzrə araşdırıcı ekspert Cozef Didjenover bu barədə şahidlik edir ki, son dövrlərə qədər bu işdə yeniyetmə sayılan Nigeriya buna baxmayaraq, heroin satışından güclü gəlir əldə edir. Onun əsas səbəblərindən biri isə ölkədəki mövcud şərait və bazarın tələbatıdır. Qeyd olunan illərdə bu ölkə eyni zamanda Hindistandan, Pakistandan Avropa və Amerikaya daşınan heroinin marşrutlarının keçdiyi tranzit ölkə olub. Məhz bu cür amillər də narkotik cinayətkarlığın artmasına rəvac verir və onun coğrafiyasının genişlənməsinə səbəb olur.

Cinayət yolunu seçmiş insanların qeyri-qanuni əməllərinin qarşısının alınmasına isə



həmişə cəhdlər göstərilmiş və göstəriləcək. Narkotik cinayətkarlığa qarşı mübarizənin müasir vəziyyətini daha yaxşı aydınlaşdırmaq üçün yenə də faktlara və rəqəmlərə müraciət edək. Məsələn, Laqos aeroportunda iki nəfər pilot 4,4 kq heroini keçirmək istəyərkən yaxalanmış, Hindistanda 128 kq. heroini Afrikadan keçirməyə cəhd göstərən 74 narkokuryer tutulmuş və həmin narkotika müsadirə edilmiş, məhz bu illərdə müxtəlif Afrika dövlətlərində narkotik cinayətlərə qarşı mübarizə tədbirləri gücləndirilmiş, dövlət orqanlarının mədsəqyönlü fəaliyyəti nəticəsində külli miqdarda güclü, ağır xüsusiyyətə malik maddələr müsadirə olunmuş və çoxlu sayda cinayətkarlar məsuliyyətə alınmışdır.

.Təbii olaraq dünyada cərəyan edən bu proses beynəlxalq təşkilatları və inkişaf etmiş aparıcı dövlətləri narahat etməyə bilməz. Bu mənada «Gömrükxana və narkotiklər» 1997-ci ildə, 1998-ci ilin iyununda Mərakeşdə «Ümumdünya Gömrük Təşkilatı İttifaqı»nın 91 və 92-ci sessiyalarında edilən çıxışlara nəzər salmaqla bəzi Afrika ölkələrində narkobiznesin necə inkişaf etdiyinin obyektiv təsvirini hiss etmək olar. Həqiqətən də, 1998-ci ilin təkcə dekabr ayında CAR-ın əksəriyyətini narkotik tərkibli maddələr təşkil edən 8200 müxtəlif tərkibli yükü tutuldu. Yəni, 11600 alkoqollu içki şüşəsindən qəsdən 360 kq. kokain yerləşdirmişdilər ki, bu cür

cinayətlərə göz yummaq isə özü cinayətkar dünyasına ən yaxşı xidmət olardı. Lakin onun qarşısı qətiyyətlə alınmışdı.

Sadalananları böyük narahatlıqla qəbul edən dünyanın inkişaf etmiş dövlətlərindən biri ABŞ bu məsələyə biganə qalmadı və dərhal ona reaksiya verdi. Belə ki, mövcud vəziyyəti analiz edən ABŞ Konqresi 1990-cı ildə Amerikanın gizli xidmət işlərinə əlavə fond ayırdı ki, təhqiqat işlərini aparmaq üçün xüsusi qrup yaradılsın. Bu eks-prezident B.Klintonun prioritet istiqamətlərdən biri sayılan milli təhlükəsizliyin qorunması naminə atdığı addımlardan biri idi. Həmin illərə aid Amerika Birləşmiş Ştatları Dövlət Departamentinin illik hesabatında Nigeriyanı narkotizmə qarşı mübarizədə milli strategiyanın həyata keçirilməsini pis maliyyələşdirən ölkə saydıqları Kolumbiya və Rusiya ilə eyni qəbildən olan ölkələr sırasına salmışdılar.

Narkotik cinayətkarlığa qarşı mübarizənin müasir vəziyyətindən danışırıqsa, onun təzahürlərindən biri də narkobiznes yolu ilə əldə olunmuş çirkli pullardır. Narkoişbazlar isə həmişə bu çirkli pulların yuyulması və onun yenidən açıq şəkildə dövriyyədə lazımi yerini tutmasına çalışır, niyyətlərini həyata keçirmək üçün daim yollar axtarırlar. Bu kimi neqativ halların qarşısının alınması isə narkobaronlara cinayət əməllərinin qarşısının alınması isə narkobaronlara cinayət



əməllərini öz qanunları ilə leqallaşdırmağa imkan vermir. Belə ki, son dövrlərdə narkotik cinayətkarlıq faktlarını aşkarlamaq və çirkli pulların yuyulmasının qarşısını almaq üçün əksər dünya dövlətlərində müxtəlif təsirli tədbirlər görülür, banklardakı hesablara nəzarət edilir, kimlərin ki hesabında birdən-birə külli miqdarda vəsait toplanırsa, dərhal onun mənbəyi axtarılır və nəticədə narkotik cinayətkarlıq vasitəsilə əldə olunan vəsaitlər aşkarlanır. Təbii olaraq həmin araşdırmaların nəticəsi narkotik cinayətkarlığa qarşı mübarizənin istər bir ölkə daxilində, istərsə də beynəlxalq səviyyədə effektli şəkildə həyata keçirilməsinə lazımi şərait yaradır.

Müqayisəli təhlillər apararaq dünya ölkələrindəki mövcud narkosituasiyanın araşdırılmasının nəticəsi kimi deyə bilərik ki, narkotiklərin xüsusilə psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəni zəruri edən amillərdən biri məhz müxtəlif regionlarda yerləşən dünya dövlətlərindəki narkosituasiyanın ağır durumudur. Bütün bu prosesin, yeni müxtəlif mübarizə üsullarını və metodlarını, tənzimlənmə qaydalarını özündə ehtiva edən ən mühüm qanuni beynəlxalq sənəd BMT-nin narkotiklər haqqında konvensiyalarıdır.

# FƏSİL II. NARKOTİK VASİTƏLƏR VƏ PSİXOTROP MADDƏLƏR HAQQINDA BMT-nin KONVENSİYALARI VƏ AZƏRBAYCAN RESPUBLİKASININ CİNAYYƏT-PROSESSUAL QANUNVERİCİLİYİ

## *2.1. BMT-nin narkotiklər haqqında konvensiyaları Azərbaycan respublikasının cinayyət-prosessual qanunvericiliyi kontekstində*

Bəşəriyyətin inkişafı, gələcək taleyi üçün ən mühüm problemlərdən birincisi cəmiyyətin əsasını təşkil edən əhali və onların hüquqlarının, sağlamlığının qorunmasıdır. Bunları nəzərə alan BMT problemin qloballığını nəzərə alaraq həmin məsələni daimi diqqət mərkəzində saxlayır. Bu mənada narkotik vasitələr haqqında 1961, psixotrop maddələr haqqında 1971-ci il konvensiyalarının bu məqsədə xidmət etdiyi şəksizdir. BMT-nin həmin istiqamətdə gördüyü ümumbəşəri dəyərlərə əsaslanan xoşməramlı işlərindən biri də 1988-ci ildə qəbul olunmuş narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında konvensiyadır. Həmin Konvensiyaya psixotrop maddələr haqqında Protokolun qəbul olunması üçün Birləşmiş Millətlər Təşkilatının Konfransı tərəfindən təsdiq



edilmiş Yekun aktı, qətnamələr və maddələr də daxil edilmişdir.

Bu konvensiyanın əvvəlkilərindən daha təkmil və əhatəli olduğunu nəzərə alaraq şəxsi arxivimdə saxladığım 1988-ci il konvensiyasının ingilis və rus dillərində olan variantlarından istifadə edərək bəzi məqamlara nəzər yetirməyi lazım bilirəm.

Narkotik vasitələr və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında Konvensiya qəbul olunana qədər əvvəlcə onun layihəsi hazırlanmışdır. Sonra isə hökumətlərin layihəyə olan iradlarına və onun 1987-ci ildə narkotik vasitələr üzrə Komissiyanın otuz ikinci sessiyasındakı müzakirəsinə əsasən Baş katib 1987-ci ilin aprelində bütün hökumətlərə göndərilmiş ümumi işçi sənəd hazırladı və ona açıq tərkibli hökumətlərarası ekspert qrupunun iki sessiyasında baxılmışdır. 1987-ci il dekabrın 7-də Baş Assambleya Konvensiyanın layihəsinin hazırlanması üzrə işin aktivləşdirilməsinə dair sonrakı göstərişləri özündə əks etdirən 42/111 saylı qətnaməni qəbul etdi. Ekspertlər qrupunun sərəncamında olan vaxt ona bütün maddələrə təfsilatı ilə baxmağa imkan vermədiyi üçün Baş Assambleya 1988-ci ilin fevralında narkotik vasitələr üzrə Komissiyanın onuncu xüsusi sessiyasının başlamasından əvvəl Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz

dövriyyəsinə qarşı mübarizə haqqında Konvensiyanın layihəsi üzrə işçi sənədə baxılmasının davam etdirilməsi və imkan daxilində Konvensiya barəsində razılığın əldə olunması üçün hökumətlərarası ekspert qrupunun iki həftəlik əlavə iclasının çağırılması məsələsinə baxmağı Baş katibdən xahiş etdi.

Daha sonra bu məsələni reallaşdırmaq üçün Narkotik vasitələr üzrə Komissiya 1988-ci il fevralın 8-dən 19-na kimi Vyanada keçirilmiş özünün onuncu xüsusi sessiyasında konvensiyanın layihəsinin mətninə baxdı və konvensiyanın bəzi maddələrinin Konvensiyanın qəbul edilməsi üçün çağırılacaq Konfransın baxışına verilməsi barədə qərar qəbul etdi. Komissiya, həmçinin, İqtisadi və Sosial Şuraya konvensiyanın layihəsinin hazırlanmasına bəzi yardım tədbirləri tövsiyyə etdi.

Nəhayət ki, özünün 1988 120 saylı, həmçinin, 29 may 1988-ci il tarixli qərarı ilə Şuranın qətnaməsinə əsasən Narkotik vasitələr və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında Konvensiyanın qəbul edilməsi üçün BMT-nin Konfransı 1988-ci il noyabrın 25-dən dekabrın 20-nə kimi Yeni Xofburqda (Vyanada) keçirildi. 106 ölkənin nümayəndə heyətinin təmsil olunduğu dövlətlər içərisində keçmiş SSRİ-də dağılma prosesinin ilkin motivləri real şəkildə görünsə də, yenə də



Sovet Sosialist Respublikaları İttifaqı, Ukrayna və Belorusiya SSR rəsmi nümayəndə heyəti ilə Konfransda iştirak edirdilər.

34 maddədən ibarət olan Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında Birləşmiş Millətlər Təşkilatının Konvensiyası 1988-ci il dekabrın 19-da Konfrans tərəfindən onun geniş iclasında qəbul olundu.

Humanist prinsiplərin və ümumbəşəri dəyərlərin meyar kimi götürüldüyü Konvensiyanın qəbul olunma zərurəti aşağıdakı kimi əsaslandırılır.

**Bu Konvensiyanın Tərəfləri,**

insanların sağlamlığı və rifahına ciddi təhlükə yaradan, cəmiyyətin iqtisadi, mədəni və siyasi əsaslarına mənfi təsir göstərən, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz istehsalı, tələbatı və dövriyyəsinin artım miqyası və təmayülündən **dərindən narahat olaraq,**

müxtəlif sosial qruplar arasında narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinin daha da geniş yayılmasından və xüsusən də uşaqların dünyanın bir çox rayonlarında qanunsuz narkotik vasitələrin və psixotrop maddələrin istehlakçıları kimi istifadə olunmasından, həmin vasitələrin və psixotrop maddələrin qanunsuz istehsalı və dövriyyəsi zamanı istismar edilməsindən (bu isə çox böyük

təhlükə deməkdir), həmçinin **dərindən narahat olaraq,**

qanunsuz dövriyyə və mütəşəkkil cinayətkarlığın qanuni iqtisadiyyatı dağıdan və dövlətlərin stabilliyinə, təhlükəsizliyinə və suverenliyinə təhlükə yaradan digər əlaqəli formaları arasında qarşılıqlı əlaqələrin mövcudluğunu **təsdiq edərək,**

qarşısının alınması təxirəsalınmaz və ən ilknövbəli diqqət tələb edən qanunsuz dövriyyənin beynəlxalq cinayətkar fəaliyyət olduğunu həmçinin **təsdiq edərək,**

qanunsuz dövriyyənin böyük gəlirlər və maliyyə vəsaitləri gətirdiyini, bunun isə transmilli cinayətkar təşkilatlara hakimiyyət mexanizmlərinə, qanuni ticarət və maliyyə fəaliyyətinə və cəmiyyətin bütün səviyyələrinə müdaxilə etmək, onları pozmaq və dağıtmaq imkanı verdiyini **dərk edərək,**

qanunsuz dövriyyə ilə məşğul olan şəxsləri cinayətkar fəaliyyətdən əldə olunan gəlirlərdən məhrum etmək və bununla da onları bu fəaliyyətə təhrik edən əsas motivi aradan qaldırmaq **qətiyyətinə gələrək,**

belə vasitələrə və maddələrə olan tələbatı və qanunsuz dövriyyədən alınan çox böyük gəlirləri də daxil etməklə, narkotik vasitələrdən və psixotrop maddələrdən sui-istifadə probleminin əsl səbəblərini aradan qaldırmağa **çalışaraq,**

bəzi maddələr, o cümlədən narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz hazırlanmasında istifadə edilən prekursorlar, kimyəvi maddələr və həlledici məhlullar (asan əldə olunması narkotik vasitələrin və psixotrop maddələrin gizli istehsalının artımına səbəb olmuş) üzərində nəzarət tədbirlərini zəruri **hesab edərək,**

dənizdə qanunsuz dövriyyənin qarşısını almaq məqsədi ilə beynəlxalq əməkdaşlığın yaxşılaşdırılmasına **çalışaraq,**

qanunsuz dövriyyənin aradan qaldırılmasının bütün dövlətlərin kollektiv vəzifəsi olduğunu və bu məqsədlə beynəlxalq əməkdaşlıq çərçivəsində səylərin koordinasiyasının zəruriliyini **təsdiq edərək,**

narkotik vasitələr və psixotrop maddələrin üzərində nəzarət sahəsində Birləşmiş Millətlər Təşkilatının səlahiyyətlərini tanıyaraq və belə nəzarətlə məşğul olan beynəlxalq orqanların bu Təşkilat çərçivəsində olmasını **istəyərək,**

narkotik vasitələrə və psixotrop maddələrə dair mövcud müqavilələrin rəhbər pinsiplərini və onlarla nəzərdə tutulan nəzarət sistemini **yenidən təsdiq edərək,**

qanunsuz dövriyyənin və onun ciddi nəticələrinin təsirinin və miqyaslarının azaldılması

məqsədilə, Narkotik vasitələr haqqında 1961-ci il Vahid Konvensiyası, Narkotik vasitələr haqqında 1961-ci il Vahid Konvensiyasına düzəlişlər haqqında 1972-ci il Protokoluna uyğun olaraq edilmiş düzəlişlərlə olan həmin Konvensiya və Psixotrop maddələr haqqında 1971-ci il Konvensiyası ilə nəzərdə tutulan tədbirlərin möhkəmləndirilməsinin və genişləndirilməsinin vacibliyini **təsdiq edərək,**

beynəlxalq cinayətkar fəaliyyət olan qanunsuz dövriyyənin qarşısının alınması üçün hüquqi sahədə beynəlxalq əməkdaşlığın effektiv hüquqi vasitələrinin möhkəmləndirilməsinin və gücləndirilməsinin mühüm əhəmiyyətini, həmçinin, **təsdiq edərək,**

bütünlüklə, problemin müxtəlif aspektlərini, xüsusilə də onlardan narkotik vasitələrə və psixotrop maddələrə dair mövcud müqavilələrdə nəzərdə tutulmayanları özündə əks etdirən, xüsusi olaraq qanunsuz dövriyyə ilə mübarizəyə yönəlmiş, geniş əhatəli, effektiv və təsirli beynəlxalq konvensiyanın bağlanmasını **istəyərək,**

bununla aşağıdakılar barədə **razılığa gəldilər:**

Daha sonra 34 maddənin təyinatı verilir.

Tədqiqatımızın bu bölməsində BMT-nin narkotik vasitələr və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı konvensiyası və



Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyinin müqayisəli təhlilini aparacağımızı nəzərə alaraq konvensiyanın ayrı-ayrı maddələrinə diqqət yetirək.

İlk öncə qeyd etməliyik ki, konvensiyanın əsaslandırılmasını ehtiva edən və mövcud durumun kritik həddə olduğundan narahatlıq formasında diqqətə çatdırılan müvafiq maddə «Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə haqqında» Azərbaycan Respublikasının 18 iyun 1999-cu il tarixli qanununda (19 aprel 2002-ci il tarixli qanunla edilmiş dəyişiklik və əlavələrlə) təsbit olunmuşdur. Yəni, tövsiyyə xarakterli müddəalar artıq Azərbaycan qanunvericiliyi ilə CM-nin və CPM-nin təyinatını müəyyənləşdirmişdir. Bu qanunun başlanğıc müddəasında yazılır:

«Bu Qanun narkotik vasitələrin, psixotrop maddələrin prekursorların qanunsuz dövriyyəsi ilə bağlı hüquq pozuntularının təhlükəliliyini vurğulayaraq, narkotik vasitələrin, psixotrop maddələrin prekursorların qanunsuz dövriyyəsi ilə bağlı cinayətkar fəaliyyətin qarşısının alınmasının, həmin əməlləri törədən şəxslərin aşkar edilməsinin və cəzalandırılmasının hüquqi əsaslarını və bununla əlaqədar dövlət

orqanlarının, fiziki və hüquqi şəxslərin hüquq və vəzifələrini müəyyən edir»[18].

Konvensiyanın 1-ci maddəsində «Psixotrop maddələr» termini – istənilən təbii, yaxud sintetik maddə və ya 1971-ci il Konvensiyasının I, II, III və IV siyahısına daxil edilmiş istənilən təbii material deməkdir kimi izah edilir.[19]

Azərbaycan qanunvericiliyində isə həmin termin aşağıdakı kimi dəyərləndirilir:

«Psixotrop maddələr» - Azərbaycan Respublikasının qanunvericiliyi ilə bu cür təsnif edilmiş və dövriyyəsi məhdudlaşdırılmış hər hansı təbii və ya süni maddələr, təbii materiallar, habelə qanunvericiliklə yuxarıda göstərilən kateqoriyalara aid edilmiş və sui-istifadə zamanı insanların sağlamlığı üçün təhlükə yaradan digər vasitələr və materiallardır.[20]

Düzdür burada Konvensiyanın siyahıları və oradakı maddələrin adları çəkilməsə də belə bir

[18] Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə haqqında Azərbaycan Respublikasının 18 iyun 1999-cu il tarixli qanunu. Respublika qəz. 19. 04.99

[19] Narkotik vasitələr və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında BMT-nin Konvensiyasınn 1-ci maddəsinin «r» bəndi

[20] Azərbaycan Respublikasının «Narkotik vasitələr, psixotrop maddələr və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə haqqında» qanunun ümumi müddəalarının 1-ci maddəsi. Azərbaycan qəz. 19. 04.99



qənaət qanunvericilik baxımından əhəmiyyətli hesab oluna bilər.

Yuxarıda qeyd etdiyimiz kimi tədqiqatımızın bu bölməsində araşdırmalarımızı əsasən Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyi kontekstində aparmağı nəzərdə tutduğumuzdan həmin prosesə bu nöqteyi-nəzərdən daha fundamental şəkildə yanaşmağa çalışaq. Yəni, problemə ümumən Azərbaycan qanunvericiliyi kontekstində aydınlıq gətirməyə səy göstərsək də zəruri saydığımız cinayət-prosessual aspektlər tədqiqat obyekti kimi daha dərindən araşdırılmalıdır. Bunları nəzərə alaraq BMT-nin narkotiklər haqqında konvensiyalarının, xüsusilə «Narkotik vasitələr və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında» 1988-ci il konvensiyası ilə Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyindəki paralellikləri, fərqləri və digər elementləri müqayisəli şəkildə təhlil etməyə səy göstərək.

Əvvəlcə «Azərbaycan Respublikasının Cinayət-Prosessual qanunvericiliyi»nə şərh verək. Cinayət prosessual qanunvericiliyin mənbələri sadalanarkən ilk növbədə Azərbaycan Respublikasının Konstitusiyasının adı çəkilir. Daha sonra «Azərbaycan Respublikasının cinayət-prosessual məcəlləsi, Azərbaycan Respubli-

kasının digər qanunları və AR-nın tərəfdar çıxdığı beynəlxalq müqavilələr mənbə kimi göstərilir».[21]

Cinayət-Prosessual qanunvericiliyinin təyinatı da bir sıra səciyyəvi xüsusiyyətləri özündə ehtiva edir. Məsələn, 1-ci maddənin 1.1. bəndində yazılır ki, Azərbaycan Respublikasının Cinayət-Prosessual qanunvericiliyi cinayətin əlamətlərini əks etdirən əməllərin cinayət olub-olmamasını, cinayət törətməkdə təqsirləndirilən şəxsin təqsirli olub-olmamasını, habelə cinayət qanunu ilə nəzərdə tutulmuş əməlləri törətməkdə şübhəli və ya təqsirləndirilən şəxsin cinayət təqibinin və müdafiəsinin hüquqi prosedurlarını müəyyən edir[22].

Bu maddənin təyinatını araşdırdıqda ilk nəzərə çarpan cəhət CPM-in insan hüquqlarının qorunmasını mühüm amil kimi özündə ehtiva etməsidir. Həmin maddənin motivlərində BMT-nin konvensiyalarındakı insan azadlıqlarının və hüquqlarının elementləri aydın şəkildə görünür. Diqqətə çatdırdığımız bu cəhət CPM-in 1.2.2. bəndində daha qabarıq şəkildə görünür. Yəni fikrimizin təsdiqinin ehtiva edildiyi həmin bənddə yazılır: «Cinayət törətməkdə təqsiri olmayan heç kəsi cinayət prosesini həyata keçirən vəzifəli şəxslərin və ya hakimlərin özbaşına hərəkətləri

[21] Yenə orada, Maddə. 2. 2.1.1., 2.1.2., 2.1.3., 2.1.4. səh. 4.

[22] Azərbaycan Respublikasının cinayət-prosessual Məcəlləsi. Maddə. 1.; 1.1., Bakı, «Hüquq ədəbiyyatı» nəşr. səh. 3. 2006



ilə qanunsuz şübhə altına almaq, ittiham və ya məhkum etmək mümkün olmasın».[23] Yaxud da 1.2.3.-də «heç kəs qanunsuz və ya zərurət olmadan prosessual məcburiyyət tədbirlərinə, insan və vətəndaş hüquq və azadlıqlarının digər məhdudiyyətlərinə məruz qalmasın».[24] Təsir dairəsini müəyyənləşdirən bənddə də AR-nin Cinayət Prosessual Qanunvericiliyinin BMT-nin müvafiq konvensiyalarının maddələrinə uyğunluğunu göstərir. (əvvəlki tədqiqatlarda bu maddələrin təyinatı BMT-nin konvensiyaları konteksində təhlildən keçirilməmişdi – S.M.).

Azərbaycan Respublikasının Cinayət-Prosessual Qanunvericiliyinin məkana və zamana görə qüvvəsini müəyyənləşdirən maddələri də bəzi istisnalar olmaq şərtilə BMT-nin müvafiq konvensiyalarına uyğun təsirə malikdir. Məsələn, məkana görə, Cinayət Prosessual Qanunvericiliyinin təsir qüvvəsini müəyyənləşdirən CPM-nin 3-cü maddənin ayrı-ayrı bəndlərində AR-nin bayrağı və ya onun tanınma nişanlarını daşıyan müxtəlif nəqliyyat vasitələrinin Azərbaycan ərazisindən kənarda hərəkət zamanı belə bu qanunun tətbiqi zəruri hesab olunur. Lakin milli qanunvericiliyin bəzi spesifik xüsusiyyətlərinin nəzərə alındığı 3.4. bəndində lokal şəkildə bildirilir ki, xarici dövlətin

[23] Yenə orada, Maddə 1.; 1.2.2., səh. 4

[24] Yenə orada, Maddə 1.; 1.2.3., səh. 4

cinayət-prosessual qanunvericiliyinin normalarının AR-nin ərazisində tətbiqinə yalnız Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulduqda və AR-sı Cinayət Prosessual Qanunvericiliyinin vəzifə və prinsiplərinə zidd olmadıqda yol verilir. Beynəlxalq müqavilələrin və öhdəliklərin əsas məkanı, dünya dövlətlərini qlobal problemlərin müsbət həlli naminə koordinasiyalı fəaliyyətə cəlb edən ən mühüm beynəlxalq qurum məhz BMT olduğu üçün ayrı-ayrı ölkələrin cinayət-prosessual qanunvericiliyinin təyinatındakı fərqlərin uyğunlaşdırılmasına bu təşkilat daima cəhd göstərir.

Azərbaycan Respublikasının Cinayət-Prosessual qanunvericiliyinin zamana görə qüvvəsi 4-cü maddənin ayrı-ayrı bəndlərində məkana görə qüvvəni vaxt baxımından tamamlayır. 4.1. bəndində bu belə ehtiva olunur: «Azərbaycan Respublikasında cinayət-Prosessual hərəkətlərin aparılması, cinayət-prosessual qərarların qəbul və icra edilməsi həmin anda qüvvədə olan Azərbaycan Respublikası cinayət-prosessual qanunvericiliyinin müddəalarına uyğun keçirilir». [25]

Zənnimizcə burada nəzərə çarpan fərqlərdən biri odur ki, məkana görə qanunun

[25] Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi. Maddə. 4.; 4.1., Bakı, «Hüquq ədəbiyyatı» nəşr. səh. 5. 2006



təsir dairəsi 3-cü maddənin 2-ci bəndində açıq şəkildə bildirilsə də, qanunvericiliyin zamana görə qüvvəsini bildirən 4-cü maddədə bu məsələ qaranlıq qalır.

Azərbaycan Respublikasının Cinayət-Prosessual Qanunvericiliyi ilə BMT-nin «Narkotik vasitələr və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında»[26] konvensiyanın ayrı-ayrı müddəalarının müqayisəsi zamanı da çoxlu sayda paralelliklərlə yanaşı müxtəlif fərqlərə də rast gəlirik.

Məsələn, BMT-nin 1988-ci il konvensiyasının «dənizdə qanunsuz dövriyyə» adlı müvafiq maddəsi Azərbaycan Respublikasının Cinayət-Prosessual Qanunvericiliyində narkotik vasitələrin və psixotrop maddələrin bu yolla qanunsuz dövriyyəsinə qarşı mübarizəni tənzimləyən qaydaların təsbitinə imkan yaradır. Həmin maddənin bir neçə bəndinə diqqət yetirək:

**1.** Tərəflər beynəlxalq dəniz hüququna uyğun olaraq dənizdə qanunsuz dövriyyənin qarşısını almaq məqsədilə maksimum dərəcədə əməkdaşlıq edirlər.

**2.** Onun bayrağı altında üzən, yaxud bayrağı və ya onun qeydiyyatını göstərən fərqlənmə nişanları olmayan gəminin qanunsuz

[26] BMT-nin Narkotik vasitələr və psixotrop maddələrinin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında 1988-ci il konvensiyası.

dövriyyədə iştirak etməsindən şübhələnməyə məntiqi əsasları olan Tərəf, gəminin bu məqsədlə istifadə olunmasının qarşısını almaq üçün digər Tərəflərdən yardım istəyə bilər. Bu cür xahişlə müraciət olunan Tərəflər belə yardımı öz sərəncamlarında olan vasitələr çərçivəsində təqdim edirlər.

**3.** Beynəlxalq hüquqa uyğun olaraq azad gəmiçiliyi həyata keçirən və başqa Tərəfin bayrağını və ya qeydiyyatı göstərən fərqlənmə nişanlarını daşıyan hər hansı bir gəminin qanunsuz dövriyyədə iştirak etməsindən şübhələnməyə məntiqi əsasları olan Tərəf, bu barədə bayraq sahibi olan dövləti xəbərdar edə bilər, qeydiyyatı təsdiq etməsi barədə sorğu verə bilər, təsdiq alındığı halda isə bayraq sahibi olan dövlətdən həmin gəmi barədə lazımi tədbirlər görməyə icazə verməsini xahiş edə bilər.

**4.** 3-cü bəndə uyğun olaraq, yaxud onlar arasında qüvvədə olan müqaviləyə müvafiq şəkildə və ya həmin Tərəflər arasında başqa şəkildə əldə olunmuş istənilən sazişə və ya razılaşmaya əsasən bayraq sahibi olan dövlət sorğu göndərən dövlətə, o cümlədən , aşağıdakılara icazə verə bilər:

a) həmin gəmiyə daxil olmağa;

b) gəmiyə baxış keçirməyə;

c) qanunsuz dövriyyədə iştirak təsdiq edən sübutlar müəyyən edildikdə həmin gəmi, oradakı



şəxslər və göyərtədəki yüklər barədə lazımi tədbirlər görməyə.

**5.** Müvafiq Tərəflər bu maddə əsasında tədbirlər gördükləri halda, dənizdə həyatı, gəmini və yükləri təhlükə altına qoymamaq, eyni zamanda bayraq sahibi olan dövlətin, yaxud istənilən digər maraqlı dövlətin kommersiya maraqlarına, təhlükəsizliyinə və digər qanuni mənafelərinə zərər vurmamaq zərurətini nəzərə alırlar.

**6.** Bayraq sahibi olan dövlət verdiyi icazəyə, bu maddənin 1-ci bəndindən irəli gələn öz öhdəliklərinə uyğun olaraq, onunla sorğu göndərən Tərəf arasında qarşılıqlı şəkildə razılaşdırılmalı olan şərtlər (cavabdehliklə bağlı şərtlər də daxil olmaqla) daxil edə bilər.

Yaxud Azad ticarət zonaları və azad limanlar adlanan maddə 18-in 1-ci və 2-ci bəndini nəzərdən keçirək:

**1.** Narkotik vasitələrin, psixotrop maddələrin və **I Cədvələ** və **II Cədvələ** daxil edilmiş maddələrin qanunsuz dövriyyəsinin qarşısını almaq məqsədilə Tərəflər, azad ticarət zonalarında və azad limanlarda onların ərazilərinin digər hissələrində tətbiq olunanlardan az ciddi olmayan tədbirlər görürlər.

**2.** Tərəflər çalışırlar ki:

a) azad ticarət zonalarında və azad limanlarda malların və insanların hərəkətinə

nəzarəti həyata keçirsinlər (bu məqsədlə səlaihyyətli milli orqanlara gəzinti və balıqçılıq gəmiləri də daxil edilməklə, gələn və gedən gəmilərin yüklərinə, eləcə də təyyarələrə və quru nəqliyyat vasitələrinə, zərurət olduqda isə ekipaj üzvlərinə və sərnişinlərə, həmçinin, onların yüklərinə baxış keçirmək səlahiyyəti verirlər).

Müddəaların təyinatından görünür ki, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinin təminatında dəniz nəqliyyatı vasitələri böyük rol oynayır. Ona görə də qeyd olunan maddələrdə bu məsələ geniş izah olunur.

Lakin, nədənsə bu kimi hallara qarşı mübarizədə Azərbaycan Respublikasının Cinayət Prosessual Qanunvericiliyinın təsirinin sərhədlərində qeyri müəyyənlik vardır.[27] Zənnimizcə, fərqlərin biri kimi bu amili göstərə bilərik.

Konvensiyanın «poçt göndərişlərinin istifadə olunması» adlı 19-cu maddəsinin təyinatı isə AR-nın cinayət-prosessual məcəlləsində[28] daha ətraflı şərh olunur. Məsələn, Konvensiyanın 19-cu maddəsində yazılır:

---

[27] Bax: BMT-nin Narkotik vasitələr və psixotrop maddələrin qanunsuz dövriyyəsi haqqında 1988-ci il konvensiyasının 17-18-ci maddələri və Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin XI fəslinin müvafiq maddələri.

[28] AR-nın CPM. XXXIII fəsil, maddə 255. Bakı; 2006, səh. 230.



**1.** Ümumdünya Poçt İttifaqının konvensiyaları üzrə öz öhdəliklərinə və öz milli hüquq sistemlərinin əsas prinsiplərinə uyğun olaraq Tərəflər poçt göndərişlərinin qanunsuz dövriyyə üçün istifadə olunmasının qarşısının alınması üzrə tədbirlər görür və bu məqsədlə bir-biri ilə əməkdaşlıq edirlər

**2.** Bu maddənin 1-ci bəndində qeyd olunan tədbirlər, o cümlədən, aşağıdakıları əhatə edir:

a) poçt göndərişlərinin qanunsuz dövriyyə üçün istifadə olunmasının qarşısının alınması və aradan qaldırılması üzrə əlaqələndirilmiş hərəkətlər;

b) hüquq-mühafizə orqanlarının səlahiyyətli işçiləri tərəfindən narkotik vasitələrin, psixotrop maddələrin **I Cədvələ** və **II Cədvələ** daxil edilmiş maddələrin qanunsuz göndərişlərinin poçtda aşkar edilməsi üçün nəzərdə tutulmuş axtarış və nəzarət metod və vasitələrinin tətbiqi və istifadə edilməsi;

c) cinayət təqibi üçün zəruri olan sübutların əldə edilməsi məqsədilə müvafiq vasitələrin istifadəsinə imkan verən qanunvericilik tədbirləri.

Göstərilən müddəalar AR-nın CPM-nin XXXIII fəslinin 255-ci maddəsinin əksər bəndlərində təsbiq olunmuşdur. Lakin hesab edirik ki, bütün növdən olan məktubların, banderolların, sovqatların, poçt konteynerlərinin, pul baratlarının dəniz nəqliyyatı vasitəsilə

göndərilməsini və onların içərisində gizli şəkildə narkotik vasitələrin, psixotrop maddələrin də qanunsuz dövriyyəsinə cəhdlərin reallığını nəzərə alaraq CPM-nin 3-cü maddəsinin 3.2. bəndinə uyğun bir maddə də formalaşdırmaq olardı. Fikrimizi belə əsaslandıra bilərik ki, CPM-in 177-ci maddəsinin 177.2. bəndini «istintaq hərəkətinin aparılmasına müvafiq şəxs tərəfindən icazə verilmədiyi və onun məcburi aparılması üçün məhkəmənin qərarı tələb olunduğu halda, müstəntiqin əsaslandırılmış vəsatəti ilə razı olan ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror məhkəməyə təqdimatla müraciət edir»[29], yaxud da 177-ci maddənin 5-ci bəndinə əsasən istintaq hərəkətləri təxirə salına bilməyən hallarda müstəntiqin əsaslandırılmış qərarı ilə aparılmışdırsa, müstəntiqin bu məcəllənin 443.2-ci maddəsində nəzərdə tutulan vəzifələrin yerinə yetirilməsini ehtiva edirsə bu maddənin təyinatına uyğun olaraq beynəlxalq kontekstdə bu səpkili problemlərlə üzləşdikdə təxirə salınmaz fəaliyyət üçün əsas verən maddə əlavə edilə bilərdi. Yəni bunun üçün Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsinin 443.2. maddəsi əsas kimi götürülə bilərdi. Düzdür bu maddənin təyinatı Azərbaycan qanunvericiliyinə görə Azərbaycanın hüdudlarını əhatə edir. Lakin burada göstərilən hallarda, yəni

[29] Yenə orada, səh. 2002.



müstəntiqin əsaslandırılmış qərarına görə, məhkəmənin qərarı olmadan apardığı istintaq hərəkətlərindən sonra müəyyənləşdirilən vəzifələri[30] imkan verir ki, Azərbaycan Respublikasının Cinayət-Prosessual Qanunvericiliyinin məkana görə qüvvəsini ehtiva edən müddəalara uyğun bir maddə də təsbit olunsun. Bu isə beynəlxalq hüquq normalarına uyğun olmalıdır. Hesab edirik narkotiklərin qanunsuz dövriyyəsi qlobal problem səviyyəsinə çatıbsa, BMT bunu böyük təhlükə mənbəyi və bəşəriyyətə qarşı cinayət hesab edərək, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı konvensiyalar qəbul edirsə bu məsələlər AR-nın cinayət prosessual qanunvericiliyində də daha geniş, ətraflı şəkildə əksini tapmalıdır.

## *2.2. Azərbaycan Respublikasının Cinayət-Prosessual qanunvericiliyinə əsasən narkotik vasitələrin, psixotrop maddələrin və prekursorlarn qanunsuz dövriyyəsinə qarşı mübarizənin bəzi aspektləri*

Cinayət-prosessual qanunvericiliyinin mənbələri sadalanarkən qeyd etdiyimiz kimi ilk öncə Azərbaycan Respublikasının Konstitusiyasının adı vurğulanır (bununla bağlı narkotik cina-

[30] Bax: AR. CPM-nin 443.2., 443.2.1., 443.2.2. maddələri.

yətkarlığa qarşı mübarizəyə həsr olunmuş «Narkotizmin cəmiyyətdə bəzi təzahürləri və onlara qarşı mübarizə», «Narkotik cinayətkarlıqların təzahürləri və onlara qarşı mübarizənin probemləri» adlı kitablarımda bu məsələlərlə ilgili təhlillər aparılmışdır – S.M.), sonra isə cinayət prosessual məcəlləsi, AR-nin digər qanunları və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr əsas mənbə kimi göstərilir.

Tədqiqatımızın bu bölməsində problemin çözümünü Azərbaycan Respublikasının Cinayət-prosessual qanunvericiliyinə və BMT-nin narkotiklər haqqında müvafiq konvensiyalarına uyğun olaraq məsələləri fundamental şəkildə araşdırmağa çalışacağıq.

Hesab edirik ki, məqsədimizə nail olmaqdan ötrü BMT-nin narkotiklər haqqında konvensiyaları, AR-nın CPM ilə yanaşı, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin bəzi maddələrini də araşdırmaya cəlb etmək vacibdir.

Əvvəlcə BMT-nin narkotik vasitələr və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında 1988-ci il konvensiyasının «Hüquq pozuntuları və sanksiyalar» adlı 3-cü maddəsinin təyinatına diqqət yetirək, sonra isə Azərbaycan qanunvericiliyində tətbiqini müəyyənləşdirək. Həmin maddənin bəzi bəndlərini nəzərdən keçirək:



1. Hər bir Tərəf, qəsdən törədildiyi hallarda, aşağıdakı hərəkətlərin öz qanunvericiliyinə müvafiq olaraq cinayət kimi tanınması üçün tələb oluna biləcək tədbirlər görür:

a) I) 1961-ci il Konvensiyasının, düzəlişlərlə olan həmin Konvensiyanın, yaxud 1971-ci il Konvensiyasının müddəalarına zidd olaraq istənilən narkotik vasitələrin və ya psixotrop maddənin istehsalı, hazırlanması, ayrılması, təklif edilməsi, satış məqsədilə təklif edilməsi, yayılması, satışı, istənilən şərtlə göndərilməsi, vasitəçiliyi, keçirilməsi, tranzit yolla göndərilməsi, danışması, idxalı və ya ixracı;

II) 1961-ci il Konvensiyasının və düzəlişlərlə olan həmin Konvensiyanın müddəalarına zidd olaraq narkotik vasitələrin istehsalı məqsədilə tiryək xaşxaşının, kokain kolunun və ya kannabis bitkisinin becərilməsi;

III) yuxarıdakı V yarımbənddə sadalanan istənilən fəaliyyət növü məqsədi üçün istənilən narkotik vasitənin və ya psixotrop maddənin saxlanması və alınması;

IV) narkotik vasitələrin və ya psixotrop maddələrnin qanunsuz becərilməsi, istehsalı, yaxud hazırlanması məqsədilə istifadə olunacağı məlum olduğu halda avadanlıqların, **I Cədvəldə** və **II Cədvəldə** göstərilən materialların, yaxud maddələrin hazırlanması, daşınması və ya yayılması;

V) yuxarıdakı I, II, III və IV yarımbəndlərdə sadalanan istənilən hüquqpozmanın təşkili, onlara rəhbərlik və onların müəyyənləşdirilməsi;

Yaxud da bəzi bəndlərdə yazılır ki,

c) özünün konstitusiya müddəalarını və öz hüqüq sisteminin əsas prinsiplərini nəzərə almaqla:

I) mülkiyyətin əldə edilməsi, ona malik olma və ya ondan istifadə, əgər belə mülkiyyətin bu bəndin **a** yarımbəndində nəzərdə tutulmuş hüquqpozma, yaxud hüquqpozmalar nəticəsində, yaxud belə hüquqpozmada və ya hüquqpozmalarda iştirak nəticəsində əldə edilməsi məlum olmuşdursa;

II) avadanlığa, yaxud materiallara, yaxud **I Cədvəldə** və **II Cədvəldə** göstərilmiş maddələrə malik olma, əgər onların hər hansı bir narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz becərilməsi, istehsalı və ya hazırlanması məqsədləri üçün istifadə olunması, yaxud istifadə olunacağının nəzərdə tutulması məlumdursa;

III) istənilən vasitələrlə başqalarını bu maddədə nəzərdə tutulmuş hüquqpozmaların törədilməsinə, yaxud narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz istifadəsinə açıq təhrik etmə, yaxud vadar etmə;

IV) bu maddədə nəzərdə tutulmuş hüquqpozmanın, yaxud hüquqpozmaların törədilməsində iştirak etmə, əlaqəli olma, yaxud



həmin məqsədlə cinayət əlaqəsinə girmə, belə hüquqpozmanı və ya hüquqpozmaları törətməyə cəhd, həmçinin, onların törədilməsi zamanı kömək etmə, təhrik etmə, yardım göstərmə və ya məsləhətlər vermə.

**2.** Özünün konstitusiya müddəalarını və hüquq sisteminin əsas prinsiplərini nəzərə almaqla hər bir Tərəf, 1961-ci il Konvensiyasının, düzəlişlərlə 1961-ci il Konvensiyanın, yaxud 1971-ci il Konvensiyasının müddəalarını pozmaqla istənilən narkotik vasitənin və ya psixotrop maddənin şəxsi istehlak məqsədilə saxlanılmasının, əldə edilməsinin, yaxud becərilməsinin, qəsdən törədildiyi halda, öz qanunvericiliyinə müvafiq olaraq hüquqpozma kimi qiymətləndirilməsi üçün tələb oluna biləcək tədbirləri görür.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 234-cü maddəsinin 234.1, 234.3 bəndlərində narkotik vasitələrin, psixotrop maddələrin və ya prekursorların hazırlama, istehsal etmə, əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlər sayılır, bu cür əməllərə görə cəza müddəti təyin olunur. Daha yaxşı müqayisə aparmaq üçün bu maddənin ayrı-ayrı bəndlərinə diqqət yetirək:

- Satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri

şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə və ya saxlama (Maddə 234.1.) üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

- Satış məqsədi ilə qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri əldə etmə və ya saxlama, hazırlama, istehsal etmə, emal etmə, daşıma, göndərmə, yaxud qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri satma (Maddə 234.2.) əmlakı müsadirə olunmaqla və ya olunmamaqla üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

- Narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz hazırlanmasında və emalında istifadə etmək məqsədi ilə prekursorları hazırlama, əldə etmə, saxlama, göndərmə, daşıma və ya satma (234.3.) əmlakı müsadirə olunmaqla və ya olunmamaqla üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

- Narkotik vasitələri və ya psixotrop maddələri hazırlamaq üçün istifadə edilən və xüsusi nəzarət altında olan xammalın, prekursorların, alətlərin və ya avadanlıqların, habelə narkotik vasitələrin və ya psixotrop maddələrin istehsalı, hazırlanması, emalı, saxlanması, buraxılması, satılması, bölüşdürülməsi, daşınması, göndərilməsi, əldə edilməsi, istifadə



edilməsi, idxalı, ixracı və ya məhv edilməsi qaydalarının, bu qaydalara riayət etməli olan şəxs tərəfindən pozulması (234.5.) minimum əmək haqqı məbləğinin iki yüz mislindən min mislinədək miqdarda cərimə və ya beş ilədək müddətə muəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Göründüyü kimi, Konvensiyanın «Hüquq pozuntuları və sanksiyalar» maddəsinin əksər göstərişləri Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 234-cü maddəsində qanunla tənzimlənmə və əmələ görə cəza müəyyən etmə dəqiqləşdirilmişdir.

Belə bir səlahiyyət ayrı-ayrı dövlətlərə verildiyi kimi Azərbaycana da verildiyindən, O, öz qanunvericiliyində bunları təsbit etmişdir. Həqiətən də, BMT-nin 1988-ci il konvensiyası qanunyaradıcılığı zamanı hər bir dövlətə milli qanunvericiliyini formalaşdırarkən müəyyən sərbəstlik və səlahiyyətlər verir. Məsələn, 3-cü maddənin 6-11-ci maddələrinə nəzər yetirmək fikrimizin təsdiqinə kifayət edər:

**6.** Tərəflər bu maddədə nəzərdə tutulmuş istənilən hüquqpozmalar barəsində hüquq mühafizə tədbirlərinin maksimal effektliyinə nail olmaq məqsədilə və belə hüquqpozmaların törədilməsinə mane olmağın zəruriliyini nəzərə

almaqla, həmin hüquqpozmalara görə şəxslərin cinayət təqibinə aid istənilən diskresion hüquq səlahiyyətlərinin öz milli qanunvericiliklərinə müvafiq olaraq istifadəsini təmin etməyə çalışırlar.

**7.** Tərəflər, onların məhkəmələrinin, yaxud digər səlahiyyətli orqanlarının, belə hüquqpozmalara görə məhkum edilmiş şəxslərin vaxtından əvvəl və ya şərti azad edilməsinin mümkünlüyü məsələsinə baxarkən bu maddənin 1-ci bəndində sadalanan hüquqpozmaların və bu maddənin 5-ci bəndində sadalanan halların ciddi xarakterini nəzərə almalarını təmin edirlər.

**8.** Hər bir Tərəf, zəruri hallarda, özünün milli qanunvericiliyinə uyğun olaraq, bu maddənin 1-ci bəndində nəzərdə tutulmuş istənilən hüquqpozmaya görə cinayət təqibi üçün uzun müddət və ehtimal edilən hüquqpozucusunun ədalət məhkəməsindən gizləndiyi hallarda isə daha uzun müddət müəyyən edir.

**9.** Hər bir Tərəf, bu maddənin 1-ci bəndində sadalanan hüquqpozmaya görə təqsirli bilinən və ya məhkum olunmuş və onun ərazisində olan şəxsin zəruri cinayət araşdırmasında iştirakını təmin etmək məqsədilə özünün hüquq sisteminə uyğun olaraq zəruri tədbirlər görür.

**10.** Bu Konvensiyaya müvafiq olaraq, o cümlədən, 5-ci, 6-cı, 7-ci və 9-cu maddələrə əsasən əməkdaşlıq da daxil olmaqla, Tərəflər



arasında əməkdaşlığın məqsədləri üçün, bu maddədə nəzərdə tutulan hüquqpozmalara, Tərəflərin konstutusiya məhdudiyyətlərinə və əsas milli qanunlarına zərər vurmadan, maliyyə və ya siyasi hüquqpozmalar və ya siyasi motivlərlə törədilən hüquqpozmalar kimi baxılmır.

**11.** Bu maddədə heç nə, barəsində danışılan hüquqpozmaların təsvirinin hər bir Tərəfin milli qanunvericiliyinin səlahiyyətinə aid olması və belə hüquqpozmalara görə təqibin və cəzanın bu qanunvericiliyə müvafiq olaraq həyata keçirilməsi prinsipinə toxunmur.

Lakin təcrübə göstərri ki, informasiya bankının zəif olması, bəzən tələm-tələsik və əsaslandırılmamış qərarların çıxarılmasına gətirib çıxarır. Burada istisnalıq təşkil edən digər hallar da mövcud olur. Məsələn, şəxsin tutulmasına əsas verən AR CPM-nin müvafiq maddələrində göstərilən dəlillər kifayət qədər olmadığı halda anonim məlumatlar olur. Bunları dəqiqləşdirmək üçünsə AR CPM-nin 148-ci maddəsinin 4-cü bəndinin təyinatı müəyyən məhdudiyyətlər yaradır.

Əslində bu maddə BMT-nin narkotiklər haqqında konvensiyalarına uyğun olaraq insan hüquqları və azadlıqlarının təminatını özündə ehtiva edir. Lakin, prosessual hərəkətlərin icrası zamanı 148.4. maddəsinin tələblərinin icra olunması bəzi hallarda cinayətkarın bəraət

qazanmasına bu qədər şərait yaradır. Həmin maddəni prosessual icraya dair qəti göstərişi, yəni cinayət işinin başlanması şəxsin tutulduğu andan 24 saat keçənədək reallaşdırılmazsa onun dərhal azad olunması, yaxud da şəxsin tutulması *48 saatdan artıq davam edə bilməz və s.* qərarların icrasının həmin işə məsul şəxslərin qarşısında vəzifə kimi qoyulması hərdən cinayətkarın sərbəst buraxılmasına səbəb olur (Azərbaycan Respublikasnının Cinayət Prosessual Məcəlləsinin 148.4. maddəsi). Hesab edirik ki, bu cür halların baş verməməsi üçün prosessual icraatı yerinə yetirən orqanın işçilərinə istisnalıq təşkil edən həmin məqamlarda BMT-nin insan hüquq və *azadlıqlarını pozmamaq şərti ilə* yuxarı instansiyalara müraciət edərək nəzərdə tutulduğundan əlavə vaxt almaq hüququnun verilməsi Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsində əksini tapsa, bəlkə də bunun daha yaxşı effekti olar (belə məqamlar, sübutların toplanması – maddə 143., sübutların yoxlanılması – maddə 144., sübutların qiymətləndirilməsi – maddə 145. və sübutların kifayət etməsi – 146-cü maddənin tələbləri yerinə yetirilən anlarda özünü daha çox büruzə verir- S.M.).



*BMT-nin narkotiklər haqqında* konvensiyasının[31] «müsadirə» adlı 5-ci maddəsi ilə Azərbaycan Respublikasının cinayət prosessual Qanunvericiliyinin mənbələrindən sayılan CPM-nini «Axtarış və götürmə» maddəsinin bəzi aspektlərinə nəzər yetirək. Maraqlıdır ki, BMT-nin müvafiq konvensiyasında problem beynəlxalq əməkdaşlıq çərçivəsində verilsə də, həmin məsələnin tənzimlənməsi «Müsadirə» bölməsində müəyyən qədər əksini tapmışdır. Məsələyə *bir neçə aspektdən yanaşmağa çalışaq.*

BMT-nin konvensiyasının «Müsadirə» adlı 5-ci maddəsində göstərilir:

**1.** Hər bir Tərəf aşağıdakıların müsadirəsi üçün tələb oluna bilən müvafiq tədbirlər görür:

a) 3-cü maddənin 1-ci bəndinə əsasən tanınmış hüquqpozmaların törədilməsi nəticəsində əldə olunmuş gəlirlərin, yaxud dəyəri həmin gəlirlərə uyğun gələn mülkiyyətin;

b) 3-cü maddənin 1-ci bəndinə əsasən tanınmış hüquqpozmaların törədilməsində istifadə olunmuş, yaxud hər hansı bir şəkildə istifadə olunması nəzərdə tutulan narkotik vasitələrin və psixotrop maddələrin, materialların və avadanlıqların və ya digər vasitələrin.

[31] BMT-nin narkotik vasitələr və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında 1988-ci il konvensiyası nəzərdə tutulur

**2.** Hər bir Tərəf, bu maddənin 1-ci bəndində qeyd olunan gəlirlərin, mülkiyyətin, vasitələrin və ya istənilən digər əşyaların, sonradan müsadirə olunması üçün özünün səlahiyyətli orqanları tərəfindən müəyyən olunması, aşkar edilməsi və dondurulması, yaxud həbs edilməsi üçün tələb oluna biləcək müvafiq tədbirləri görür.

**3.** Bu maddədə göstərilən tədbirlərin həyata keçirilməsi məqsədilə hər bir Tərəf öz məhkəmələrinə, yaxud digər səlahiyyətli orqanlarına bank, maliyyə və ya kommersiya sənədlərinin təqdim olunması, yaxud həbs edilməsi barədə qərar vermək səlahiyyəti verir. Tərəf, bank sirrinin qorunması zərurətinə istinad etməklə bu bəndin müddəalarına uyğun olaraq tədbir görməkdən boyun qaçırmır.

Müsadirə üçün müxtəlif amillərdən biri axtarış və götürmə ola bilər. AR CPM-nin 242.1. maddəsində prosessual icraatı həyata keçirən müstəntiqə «Əldə edilmiş (mövcud) sübutlar və ya əməliyyat-axtarış fəaliyyətinin materialları hər hansı yaşayış xidməti və ya istehsal binasında, digər yerdə, yaxud hər hansı şəxsdə iş üzrə sübut əhəmiyyətinə malik ola biləcək əşyaların və ya sənədlərin olmasını güman etməyə kifayət qədər əsas verdikdə axtarış aparmaq səlahiyyətləri verilir. Yaxud da 242.3. maddəsində «Toplanmış sübutlarla və ya



əməliyyat-axtarış fəaliyyətinin materialları ilə sübut əhəmiyyətinə malik ola biləcək əşyaların və sənədlərin kimdə və harada olması müəyyən edildikdə müstəntiq həmin əşya və sənədləri götürə bilər»[32] səlahiyyətlərini ehtiva etdiyindən narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövrsiyyəsini həyata keçirməyə imkan verən narkotiklərin gizlədildiyi, saxlandığı və konservasiya edildiyi yerlərdən «nəqliyyat vasitələri – gəmilər, maşınlar, qarajlar və s. müsadirə üçün ona imkan verir» təyinatı probleme yanaşma nöqteyi-nəzərindən daha qətiyyətli fəaliyyətə əsas verir. (5.1. b. bəndi nəzərdə tutulur – S.M.).

Narkotiklər haqqında həmin konvensiya təkcə bu məsələni yox, digər problemlərin qarşısını almaq imkanı da yaradır. Qeyd olunan amilə daha yaxşı aydınlıq gətirmək üçün yenə də konvensiyanın 5-ci maddəsinin başqa müddəalarına baxaq:

**4.** a) Ərazisində bu maddənin 1-ci bəndində qeyd olunan gəlirlər, mülkiyyət, vasitələr və istənilən digər əşyalar olan Tərəf, səlahiyyətinə 3-cü maddənin 1-ci bəndinə əsasən tanınmış hüquqpozmalar aid edilən digər

---

[32] BMT-nin «Narkotik vasitələr və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında» 1988-ci il konvensiyasının 5-ci maddəsi.

Tərəfin bu maddəyə əsasən göstərdiyi xahişi aldıqda:

I) müsadirə barədə qərarı almaq məqsədilə öz səlahiyyətli orqanlarına sorğu göndərir və belə qərarın verildiyi halda onu icra edir; yaxud

II) sorğu verən Tərəfin bu maddənin 1-ci bəndinə uyğun olaraq müsadirə haqqında çıxardığı qərarı göstərilən həcmdə və sorğu alan Tərəfin ərazisində olan gəlirlərə, mülkiyyətə, yaxud 1-ci bənddə qeyd olunan istənilən digər əşyalara aidiyyət həddinə uyğun olaraq icra olunması üçün özünün səlahiyyətli orqanlarına təqdim edir.

b) Bu maddəyə uyğun olaraq səlahiyyətinə 3-cü maddənin 1-ci bəndinə əsasən tanınmış hüquqpozmalar aid edilən digər Tərəfin göndərdiyi xahişi alan Tərəf, sonrakı müsadirə məqsədilə bu maddənin 1-ci bəndində göstərilən gəlirlərin, mülkiyyətin, vasitələrin və istənilən digər əşyaların müəyyən olunması, aşkar edilməsi və dondurulması, yaxud həbs edilməsi üçün tədbirləri görür. Müsadirə barədə qərarı sorğunu göndərən Tərəf, yaxud xahişə uyğun olaraq, bu bəndin **a** yarımbəndinə əsasən sorğunu alan Tərəf verir.

Yaxud da həmin maddənin aşağıdakı bəndlərində göstərilən müsadirənin sonrakı mərhələlərinin təyinatını verir.



**6.** a) Əgər gəlirlər digər mülkiyyətə çevrilmiş, yaxud dəyişdirilmişdirsə, bu maddədə göstərilən tədbirlər gəlirlər barəsində deyil, belə mülkiyyət barəsində tətbiq olunur.

b) Əgər gəlirlər qanuni mənbələrdən əldə edilmiş mülkiyyətə əlavə olunmuşdursa, belə mülkiyyət həbsqoyma, yaxud dondurmaya dair istənilən səlahiyyətlərə zərər vurmadan, əlavə olunmuş belə gəlirlərin qiymətləndirilmiş dəyərinə müvafiq həcmdə müsadirə olunmalıdır.

c) Aşağıdakı:

I) gəlirlərdən;

II) gəlirlərin çevrilməsi, yaxud dəyişdirilməsi nəticəsində əldə olunmuş mülkiyyətdən; və ya

III) gəlirlərin əlavə olunduğu mülkiyyətdən

əldə olunmuş daxilolmalar və mədaxillər barəsində də, bu maddədə göstərilən tədbirlər gəlirlər barəsində olan şəkildə və həcmdə tətbiq olunur.

**7.** Hər bir Tərəf özünün milli qanunvericiliyinin prinsiplərinə, məhkəmə və digər araşdırmaların xarakterinə uyğun dərəcədə müsadirə olunmalı olan gəlirlərin və digər mülkiyyətin ehtimal olunan qanuni mənbəyini sübut etmək vəzifəsinin keçirilməsinin təmin edilməsi imkanına baxa bilər.

**8.** Heç bir halda bu maddənin müddəalarına vicdanla hərəkət edən üçüncü

Tərəflərin hüquqlarına zərər vuran norma kimi baxılmır.

**9.** Bu maddədə olan heç nə nəzərdə tutulan tədbirlərin müvafiq Tərəfin milli qanunvericiliyinə uyğun olaraq və onun müddəaları əsasında müəyyən olunması və həyata keçirilməsi prinsipinə toxunmur.

Maddələrin ayrı-ayrı bəndlərinin təsir dairələrindən bəlli olur ki, bunların milli qanunvericilikdə təsbit edilməsində əsasən təkid deyil, sərbəstlik vardır. Digər tərəfdənsə, bunlar təkcə narkotiklərin müsadirəsi deyil, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsindən əldə olunan vəsaitlərin müsadirəsinə də imkan verir.

Məsələn, AR CPM-nin Cinayət prosesində digər prosessual məcburiyyət tədbirlərinin tətbiqi fəslində qeyd olunur ki, (maddə 176) bu məcəllənin 147 və 154-cü maddələrində nəzərdə tutulmuş məcburi prosessual məcburiyyət təbdilərindən başqa cinayət prosesini həyata keçirən orqan sübutların əldə edilməsinə mane olan halları müəyyən etdikdə prosessual hərəkətlərin aparılması üçün digər məcburiyyət tədbirləri tətbiq edilə bilər. Bu Məcəllənin 444.1.4. və 444.2.-ci maddələrində nəzərdə tutulmuş hallarda prosessual məcburiyyət tədbirləri məhkəmənin qərarı əsasında tətbiq olunur. Məhz bu maddədən sonra gələn «İstintaq hərəkətlərinin məcburi aparılması hüququ» adlı 177-ci maddənin 177.3.6. bəndinin təyinatında isə bir başa aydın şəkildə göstərilir ki, «maliyyə əməliyyatlarının, bank hesablarının vəziyyəti və vergilərin ödənilməsi barədə məlumatlar daxil olmaqla şəxsi, ailə, dövlət, kommersiya və ya peşə sirrini təşkil edən məlumatların ələ keçirilməsi» müvafiq maddə ilə təsbit olunur ki, (maddə 177.3. – Ağaşıdakı istintaq hərəkətlərinin məcburi aparılması üçün bir qayda olaraq məhkəmə qərarının alınması tələb olunur) bunun da nəticəsində narkotik vasitələrin, psixotrop maddələrin və digər narkotiklərin qanunsuz dövriyyəsindən, satışından əldə olunan vəsaitlərin leqallaşdırılması üçün banklara yatırılmış çirkli pulları aşkar etmək mümkün olur. Beləliklə, bütün dünyanı narahat edən qlobal problemlərdən biri kimi narkotiklərin qanunsuz dövriyyəsindən narkobiznes məqsədi ilə istifadəsi nəticəsində əldə olunan çirkli pulların aşkarlanmasına cəhd BMT-nin müvafiq tövsiyələrinə istinadən, Azərbaycan Cinayət Prosessual qanunvericiliyinə əsasən də həyata keçirilə bilər. Belə bir qənaətə gəlməyimizə səbəb Azərbaycan Respublikasının Cinayət Prosessual Qanunvericiliyinə əsasən narkotik vasitələrin, psixotrop maddələrin və digər narkotiklərin qanunsuz dövriyyəsinin bəzi aspektlərinin araşdırılması oldu.

### 2.3. Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyinə və BMT-nin narkotiklər haqqında kovensiyalarına istinadən narkotik cinayətlərin istintaqı

Tədqiqatın nəticələrinin əks olunduğu əvvəlki bölmələrdə narkotiklər haqqında konvensiyaların ayrı-ayrı maddələrinə Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyi kontekstində şərh verməyə çalışmışıq. Bu bölmədə isə Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyinin narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlərin istintaqdakı roluna aydınlıq gətirməyə səy göstərəcəyik.

Qeyd etmək lazımdır ki, bu prosesin vacib şərtlərindən biri, yəni həmin tip cinayətlərin obyektiv cəhətinə münasibətdə hər şeydən əvvəl narkotik vasitələrlə cinayətkar hərəkətlərin törədildiyinin aşkar olunmasıdır.

Əvvəlcə bu cür əməllərin hansılarının cinayət olduğunun bəzi aspektilərinə diqqət yetirək:

- Narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz hazırlanmasında və emalında istifadə etmək məqsədi ilə prekursorları talama və ya hədə qorxu ilə tələb etmə – (maddə 235.2.);



- Narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakına təhrik etmə – (maddə 236.1.);
- Cinayət Məcəlləsinin 236.1 və 236.2-ci maddələrində nəzərdə tutulmuş əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya başqa ağır nəticələrə səbəb olduqda – (maddə 236.3.);
- Qanunsuz olaraq narkotik xassəli bitkiləri kultivasiya etmə – (maddə 237.);
- Qanunsuz olaraq narkotik xassəli bitkiləri əkmə, yetişdirmə, onları (onların hissələrini) toplama, habelə çətənə, xaşxaş növlərini və ya tərkibində narkotik maddələr olan digər bitkiləri kultivasiya etmə – (maddə 237.1.);
- Narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakı üçün tiryəkxanalar təşkil etmə və ya saxlama – (maddə 238.);
- Narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakı üçün tiryəkxanalar təşkil etmə, saxlama və ya bu məqsədlər üçün binalar vermə – (maddə 238.1.);
- Narkotik vasitələri və ya psixotrop maddələri əldə etmək hüququ verən reseptləri tibbi göstəricilər olmadan qanunsuz vermə və ya saxtalaşdırma – (maddə 239.);
- Güclü təsir edən və ya zəhərli maddələrin satışı məqsədilə qanunsuz dövriyyəsi – (maddə 240.);

- Narkotik vasitələrə və ya psixotrop maddələrə aid olmayan güclü təsir edən və ya zəhərli maddələri satış məqsədi ilə qanunsuz hazırlanma, emal etmə, əldə etmə, saxlama, daşıma və ya göndərmə, habelə bu maddələri və ya onları hazırlamaq, yaxud emal etmək üçün avadanlığı qanunsuz satma – (maddə 240.1.);

- Güclü təsir edən və ya zəhərli maddələrin istehsalı, əldə edilməsi, uçotu, saxlanması, buraxılması daşınması və ya göndərilməsi qaydalarının pozulması ehtiyatsızlıqdan onların talanmasına və ya başqa mühüm ziyan vurulmasına səbəb olduqda – (maddə 240.4.);

- Narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz dövriyyəsindən əldə edilmiş pul vəsaitinin və ya digər əmlakı leqallaşdırma – (maddə 241.);

- Narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz dövriyyəsindən əldə edilmiş pul vəsaitlərindən və ya digər əmlakdan istifadə etməklə maliyyə əməliyyatları və digər əqidlər həyata keçirmə, habelə sahibkarlıq və ya digər iqtisadi fəaliyyətin həyata keçirilməsi üçün göstərilən vəsaitlərdən və ya digər əmlakdan istifadə etmə – (maddə 241.1.) və s.

AR CM-dən gətirdiyimiz iqtibaslar BMT-nin narkotiklər haqında konvensiyalarının müvafiq maddələrinə uyğun olaraq bu cür əməllərə görə



cəza təyin etmənin sərhədlərini müəyyənləşdirmək üçün çox əhəmiyyətlidir.

Lakin burada başlıca prioritet təşkil edən cəhətlərdən biri narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların yuxarıda göstərilən hallarda prosessual hərəkətləri yerinə yetirənlərin fəayyətini tənzimləyən Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyinə riayət olunması məsələsidir.

Mənbələrin bəzilərində bu problemlə ilgili az da olsa araşdırmalara rast gəldik. Onlarda əsasən problemə CM-nin müvafiq maddələrinə toxunularaq şərh verilməsinə səy göstərilir və yeri gəldikdə cinayət-prosessual qanunvericiliyinə istinad olunur. Məsələn, həmin mənbələrin birində («Narkotik vasitələr və ya psixotrop maddələrlə əlaqədar cinayətlərin istintaqı»[33] adlı məqalənin «Rukovodstvo dlya sledovateley» kitabı əsasında hazırlandığı bildirilsə də onun müəllifi bəlli deyildir – S.M.) cinayət-prosessual qanunvericiliyinə uyğun olaraq məsuliyyəti ağırlaşdıran və yüngülləşdirən hallar göstərilmişdir. Məsələn, ağırlaşdırıcı hallar sadalanarkən:

[33] Narkotik vasitələrin və ya psixotrop maddələrlə əlaqədar cinayətlərin istintaq. Hüquqi dövlət və qanun jurnalı. № 7, səh. 38.

1.4. şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədilməsi (maddə 235.3.3; 241.2.3);

1.5. həyat və ya sağlamlıq üçün təhlükəli olmayan zor tətbiq etməklə və ya belə zor tətbiq etmək hədəsi ilə törədilməsi (maddə 235.3.4);

1.6. bilə-bilə yetkinlik yaşına çatmayan, iki və ya daha çox şəxs barəsində törədilməsi (maddə 236.2.3);

1.7. zor tətbiq etməklə və ya belə zor tətbiq etmək hədəsi ilə törədilməsi ; (maddə 236.2.4) və s. maddələr

2.1. cinayətin mütəşəkkil dəstə tərəfindən törədilməsi (maddə 235.4.1; 241.3.1);

2.2. külli miqdarda törədilməsi (maddə 235.4.2; 241.3.2);

2.3. həyat və ya sağlamlıq üçün təhlükəli olan zor tətbiq etməklə və ya zor tətbiq etmək hədəsi ilə törədilməsi (maddə 235.4.3);

2.4. əvvəllər talama və ya hədə-qorxu ilə tələb etməyə görə iki dəfə və ya daha çox məhkum edilmiş şəxs tərəfindən törədilməsi (maddə 235.4.4);

2.5. CM-nin 236.1 və 236.2-ci maddələrində nəzərdə tutulmuş əməllərin ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya başqa ağır nəticələrə səbəb olması (maddə 236.3) maddələr isə xüsusilə ağırlaşdırıcı halların əsası kimi göstərilir.



Mənbədə «Bunlardan başqa, CM-in 61-ci maddəsilə nəzərdə tutulan sair ağırlaşdırıcı halların mövcudluğu araşdırılmalıdır və Külli miqdarda əlamətini müəyyən edərkən, Narkotik vasitələrin miqdara görə təsnifatına istinad etmək lazımdır»[34] tövsiyəsinin verilməsi önəmli əhəmiyyət daşıyır. Lakin, göstərilən maddələrə uyğun cəmi iki tövsiyənin verilməsi məncə kifayət deyildir. Bunları hər bir maddəyə istinadən daha geniş şərh etmək olardı. Yəni, Azərbaycan Respublikasının Cinayət-Prosessual Qanunvericiliyinin mənbəyi sayılan AR CPM-in müvafiq maddələri ilə göstərilən müddəaların müqayisəli təhlilinin aparılması mənbənin dəyərini bir qədər də artırardı.

Məsələn, yetkinlik yaşına çatmayan şəxs barəsində törədilməsini ehtiva edən cinayət halları zamanı AR CPM-nin 435-ci maddəsinin 435.4. bəndində yazılır ki, «Yetkinlik yaşına çatmayan şəxs barəsində cəza tədbiri seçərkən məhkəmə aşağıdakıları nəzərdə tutmalıdır:»

435.4.1 Cəza tədbiri yalnız törədilmiş cinayətin hallarına və ağırlığına deyil, həmçinin yetkinlik yaşına çatmayan şəxsin vəziyyətinə və tələbatına, habelə cəmiyyətin tələbatına uyğun olmalıdır;

[34] AR CPM, 435-ci maddəsinin 435.4. bəndi. Bakı, 2006, səh. 464.

435.4.2 Yetkinlik yaşına çatmayan şəxsin azadlıqdan məhrum edilməsi ilə bağlı olan cəza tədbiri yalnız həmin məsələnin mükəmməl baxılmasnıdan sonra tətbiq edilməli və imkan daxilində aşağı həddə endirilməlidir;

435.4.3. Yetkinlik yaşına çatmayan şəxs ağır və ya xüsusilə ağır cinayətin, habelə ağır nəticələrə səbəb olan zor tətbiq etməklə qəsdən törədilmiş cinayətin və ya daha ağır cinayətin təkrarən törədilməsində təqsirli bilinmədiyi halda onun azadlıqdan məhrum edilməsi məqsədəuyğun deyildir.

435.5. Yekun məhkəmə qərarını çıxararkən yetkinlik yaşına çatmayan şəxsin cəza tədbiri tətbiq edilmədən islah ediləbiləcəyi nəticəyə gəldikdə, məhkəmə tərbiyəvi xarakterli məcburi tədbirlər tətbiq etməklə yetkinlik yaşına çatmayan şəxsi cəzadan azad edə bilər.

Göründüyü kimi, yetkinlik yaşına çatmayanların cinayət tərkibinin ağır və ya xüsusilə ağır olduğu hallarda cəzatəyinetmə mərhələsində Cinayət Məcəlləsinin təyinatına görə göstərilən müddətdə müxtəliflik bir başa AR CPM-də tənzimlənmə imkanı əldə edir. Demək, bu cür tədqiqatlar zamanı problemə həmin nöqteyi-nəzərdən də yanaşmaq daha yaxşı fundamental nəticələrə gəlməyə əsas verər.

Təbii olaraq bu cür yanaşmalar narkotik vasitələrin, psixotrop maddələrin və



prekursorların qanunsuz dövriyyəsi və ümumilikdə narkotik cinayətlərlə əlaqədar istintaq prosesində də effektli ola bilər.

Digər bir məqama da diqqət yetirək. Məlumdur ki, narkotik cinayətkarlıqla bağlı cinayətlərin araşdırılması Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyinə uyğun olaraq, istintaq təhqiqat və ibtidai araşdırma formasında həyata keçirilir. Azərbaycan Respublikasının Cinayət Prosessual Qanunvericiliyinin mənbələrindən sayılan CPM təhqiqat və ibtidai istintaq orqanlarının dairəsini lokal şəkildə müəyyənləşdirir və beləliklə də sadalananlar məcəllənin 215.2. maddəsində «cinayət işləri üzrə ibtadi istintaq prokurorluq və Azərbaycan Respublikasının müavafiq icra hakimiyyəti orqanları tərəfindən aparılır»[35] təyinatı ilə təsdiqlənir. Burada müvafiq icra hakimiyyəti orqanları dedikdə:

- Azərbaycan Respublikasının Prokurorluq orqanları;
- Azərbaycan Respublikasının Daxili İşlər;
- Milli Təhlükəsizlik;
- Ədliyyə;
- Vergilər nazirlikləri;
- Dövlət Sərhəd Xidməti və Dövlət Gömrük Komitəsi;

[35] AR CPM. 215.2 maddəsi. Bakı, 2006, səh. 238.

- Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi

nəzərdə tutulur (həmin səlahiyyətlər bu orqanlara yalnız narkotiklərlə bağlı deyil, digər xarakterli cinayətlərin istintaqına da imkan verir – S.M.).

Təbii olaraq Azərbaycan Respublikasının Cinayət-Prosessual Qanunvericiliyinə əsasən göstərilən icra hakimiyyəti orqanlarının bu istiqamətdə fəaliyyətini onların səlahiyyətli nümayəndələri olan müstəntiqlər həyata keçirir.

Bəzi tədqiqatlarda gəlinən qənaətə görə istintaq təyinatı və ibtidai araşdırma mərhələsində prosessual fəaliyyəti yerinə yetirən müstəntiqin funksiyalarına verilən şərtlər narkotik cinayətlərlə ilgili işlərin istintaqını aparan müstəntiqlər üçün də əhəmiyyətli sayılmalıdır. Bu barədə araşdırıcı F.Qasımov yazır: «Qeyd etmək lazımdır ki, istintaq idarəsi və ya şöbəsi deyil, məhz müstəntiq cinayətkarların istintaqı üzrə dövlət-hüquqi funksiyasını həyata keçirir və bu zaman o, dövlət orqanı kimi çıxış edir. Müstəntiq vəzifəsi məhz bu funksiyanı həyata keçirməkdən ötrü xüsusi olaraq təsis edilmişdir.

Prosessual funksiyalara müstəntiqin prosessual fəaliyyətinin cinayət işinə nəticə verilməsinin asılı olduğu növlərini aid etmək lazımdır. Belə mövqe, səciyyəvi istiqamət qismində prossesual fəaliyyətin növlərini əsaslı



şəkildə fərqləndirməyə imkan verir və bununla yanaşı, fəaliyyətin bütün növlərini zəruri tamlıqla müəyyən etməyə şərait yaradır».[36]

Daha bir incə məqama diqqət yetirək: «Müstəntiqin bu və ya digər idarədə, yaxud şöbədə yerləşməsi onun prosessual vəziyyətinə təsir göstərmir. Hər hansı işin istintaqında müstəntiq eyni həcmdə prosessual səlahiyyətlərə malik olur və onun prosessual vəziyyəti dəyişmir. İbtidai araşdırmanın hər hansı orqanın müstəntiqləri tərəfindən aparılmasından asılı olmayaraq, müstəntiq eyni prosessual səlahiyyətləri daşıyır»[37].

Tədqiqatçının istintaq funksiyasını yerinə yetirən müstəntiqin prosessual fəaliyyətindəki bəzi səlaiyyətlərinin dəqiqləşdirilməsi məncə çox aydın şəkildə verilmişdir.

Zənnimizcə bu cür sanksiyalarda, xüsusilə narkotik cinayətkarlıqların istintaqı zamanı müstəntiq dövlət-hüqüq funksiyasını yerinə yetirməklə, dövlət orqanı kimi çıxış etməklə yanaşı, şübhəli şəxs qismində cəlb olunnanlara münasibətdə Azərbaycan Respublikasının Cinayət Prosessual Qanunvericiliyinin insana hüquq və azadlıqlarını ehtiva edən maddələrini də unutmamalıdır. Məsələn, AR CPM-nin

[36] Qasımov F. Mü stəntiqin prosessual fəaliyyəti və ittiham funksiyası. Hüquqi Dövlət və Qanun jur. №. 3, Bakı, 2002, səh. 22.
[37] Yenə orada, səh. 22.

«cinayət mühakimə icraatının vəzifələri»[38] adlı 8-ci maddəsinin 8.0.1. bəndində göstərilir: «şəxsiyyəti, cəmiyyəti və dövləti cinayətkar qəsdlərdən qorumaq», «həqiqi və ya ehtimal edilən cinayət törətməsi ilə əlaqədar şəxsiyyəti vəzifə səlahiyyətlərindən sui-istifadə edilməsi hallarından qorumaq»[39], «cinayətləri tezliklə açmaq, cinayət təqibi ilə bağlı bütün halları hərtərəfli, tam və obyektiv araşdırmaq»[40] və s. göstərişlər qanunla təsbit olunur. Bütün bunlar prosessual fəaliyyəti yerinə yetirən müstəntiqin daima diqqətində olmalıdır.

İş təcrübəmə istinadən narkotiklərlə bağlı cinayətlərin istintaqı zamanı prosessual fəaliyyətdə rastlaşdığım bəzi məqamlarda tətbiq etdiyim metodlardan və vasitələrdən bir neçəsini diqqətə çatdırıram. Təqsirləndirilən şəxslərin dinrdirilməsi prosesində narkotik qəbul etmiş şəxs çox vaxt onun təsirinin keçdiyi bir gün ərzində qeyri ixtiyari olaraq həqiqəti söyləməkdən imtina edir. Ona görə də dindirmədən əvvəl həmin şəxsin narkotik qəbul edib-etməməsini yoxlatdırırdım. Digər bir cəhəti isə xüsusi olaraq nəzərə alırdım. Yəni dindirilən şəxsin hərəkətləri, cavabları, suallara reaksiyası qeyri-normal təsir bağışlayırdısa dindirməni başqa vaxta (cinayət-

[38] AR CPM. Maddə 8. Bakı, 2006, səh. 12.
[39] Yenə orada, səh. 22.
[40] Yenə orada, 8.0.3., səh. 12.



prosessual məcəllənin müvafiq maddələrinin göstərilşlərinə əməl etmək şərti ilə – S.M.) keçirirdim.

Artıq, məndə dindirilən şəxsin narkotik asılılığına şübhə olmadıqda onun dindirilməsini başlayırdım. Nəticə etibarı ilə demək olar ki, dindirilən şəxslə kobud rəftarla deyil, digər rəftar metodunun seçilməsi daha effektli olurdu. Qeyd etməliyəm ki, gözəl danışıq, fikrini aydın və səlis şərh etmək, faktları məntiqi şəkildə əsaslandırmaqla dindiriləni inandırmaq, onların ürəklərinə yol tapmaq, şüurlarına hakim olmaq uğur qazanmağın ən mühüm şərtlərindəndir. Bunun üçünsə prosessual fəaliyyətin dindirmə mərhələsində bir neçə qaydanın təcrübədə istifadəsi çox zaman özünün müsbət nəticəsini verir. İstintaq təcrübəsində sınaqdan keçirdiyim bir neçə qaydaya diqqət yetirək:

**1. Gətirilən dəlillərin növbəliliyi, onların inandırıcı olmasına təsir edir. Dəlillərin aşağıdakı düzüm qaydası ən çox inandırıcı: güclü dəlillər – orta gücü olan dəlillər – ən güclü bir dəlil (buna Homer qaydası deyilir).**

Bu qaydaya əsasən, hazırlıq prosesində aşkar edilən zəif dəlillərdən inandırmaq üçün istifadə olunmaması ən yaxşısıdır.

Həqiqətən, qərar qəbul edən şəxs, sizin dəlillərinizin zəif cəhətlərinə böyük diqqət yetirir, çünki müsbət qərar qəbul edilməsi onun üzərinə

məsuliyyət qoyur. Buna görə də, onun səhv etməməsi vacibdir. İşin taleyini dəlillərin sayı deyil, etibarlılığı və gücü həll edir.

Çox mühüm bir halı qeyd etmək lazımdır: eyni dəlil bir adam üçün güclü, başqa biri üçün zəif ola bilər. Deməli, dəlillərin güclülüyü və ya zəifliyi qərar qəbul edən şəxsin nöqteyi-nəzərindən qiymətləndirilməlidir.

**2. Həmsöhbətinizi küncə sıxışdıraraq, çıxılmaz vəziyyətə salmayın. Ona «öz simasını» saxlamağa imkan verin (buna Paskal qaydası deyirlər)**

Çox vaxt, həmsöhbətinizin sizinlə razılaşmamasının səbəbi bu razılaşmanın onun şüurunda öz ləyaqətini itirmək kimi qəbul edilməsindədir. Məsələn, açıq təhqir duelə çağırış kimi qəbul edilir və insan tələb edilənin ziddinə, ola bilsin, hətta özünün zərərinə hərəkət edir. Yaxud insan, onun ləyaqətinə ləkə gətirən nədəsə yaxalandıqda, onun bununla razılaşması, öz şəxsiyyətinin mənfi qiymətləndirilməsi ilə razılaşması deməkdir.

Paskalın «Heç nə, fəxri təslim olma şərti kimi tərksilah etmir» sözləri bu vəziyyəti ən yaxşı ifadə edir.

Bu qaydanı təcrübi olaraq həyata keçirmək üçün, istiqamət vermək – həmsöhbətinizə çətin vəziyyətdən ləyaqətlə çıxmağa imkan verən çıxış



yolu təklif etmək – onun sizin mövqeyinizi qəbul etməsinə kömək edəcək!

**3. Özünüzün və həmsöhbətinizin mimika, jest və duruşuna göz qoyun**

Bizim sözlərimiz barədə dinləyicinin nə düşündüyünü bilməyimiz, inandırma prosesinə mane olur.

Burada jestin və duruş vəziyyətinin mənasını bilmək kömək edir. Məsələ ondadır ki, danışıq və mimikamızdan fərqli olaraq, biz, jestlərimizlə və duruş vəziyyətimizə nəzarət etmirik. Jestlərimiz və duruş vəziyyətlərinin mənasını başa düşən adam, əlavə informasiya alaraq, onun köməyi ilə həmsöhbətin fikirlərini «oxuyur».

Bunula bərabər, əgər bizim jestlərimiz və duruş vəziyyətlərimiz ifadə etdiyimiz sözlərə uyğun deyildirsə, eşitdiyimiz fikirlər inandırıcı olmur. Çoxları, «Hiss edirəm ki, burada nəsə qaydasında deyil» deyərək, bu uyğunsuzluğu duyur. Jestlərin və duruş vəziyyətlərinin mənasını bilmək, bizim nitqimizi daha inandırıcı edir və s.

Dindirilən şəxslə təmas vaxtı bu qaydalara və digər mövcud metodlara əməl etməklə bir növ Azərbaycan Respublikasının Cinayət-Prosessual Qanunvericiliyinin bəzi maddələrinin də tələbləri ödənilir.

Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və ümumilikdə narkotiklərlə

bağlı cinayətlərin istintaq təcrübəsinin araşdırılması göstərir ki, dindirməni aparan icra hakimiyyətinin səlahiyyətlərini yeirnə yetirən müstəntiqlər problemlə ilgili geniş fundamental biliyə malik olmalıdırlar. Bunu bir tərəfdən dünyada baş alıb gedən narkotik cinayətlərin yeni çeşidli formada meydana gəlməsi, digər tərəfdənsə, Azərbaycanda bu tipli cinayətlərin çoxalması zəruri edir. Deyilənləri təkcə Azərbaycanla Qazaxıstan arasında 2005-ci il mayın 24-də Bakı şəhərində imzalanmış müqavilənin timsalında görmək olar. 30 sentyabr 2005-ci ildə Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin imzaladığı qanunla tərəflərin öhdəliklərinin 19-cu maddəsi hesab edirik ki, problemin dünya kontekstində qloballığını ehtiva edir.

Həmin maddənin məzmununu nəzərdən keçirək:

Maddə 19

«Ali Razılığa gələn Tərəflər terrorizm, mütəşəkkil cinayətkarlıq, **narkotik vasitələrin və psixotrop maddələrin, onların analoqlarının və prekursorlarının qanunsuz dövriyyəsi**, silah qaçaqmalçılığı, mədəni dəyərlərin qanunsuz satışı və sərhəddən keçirilməsi, iqtisadi və maliyyə fəaliyyəti sahəsində cinayətlərin, qeyri-qanuni fəaliyyəti nəticəsində əldə edilmiş gəlirlərin leqallaşdırılması, digər təhlükəli növ



cinayətlərlə mübarizə sahəsində əməkdaşlıq edirlər.

Ali Razılığa gələn Tərəflər beynəlxalq hüququn prinsip və normalarına əsaslanaraq, mülki aviasiya fəaliyyətinə qeyri-qanuni müdaxilənin qarşısının alınması üzrə iş həyata keçirirlər».[41]

Bu maddənin məzmununda əsas amillərdən birini narkotik vasitələrin və psixotrop maddələrin, onların analoqlarının və prekursorlarının qanunsuz dövriyyəsi təşkil edir. Demək problemin qlobal həddə çatması faktdır.

Məsələyə Azərbaycandakı mövcud vəziyyət baxımından yanaşdıqda da ölkədə narkotik cinayətlərin artdığı aydın görünür. Məsələn, «Azərbaycan polisinin dövlətçiliyə, müstəqilliyə, Heydər Əliyev ideallarına sədaqəti dönməzdir»[42] adlı mənbədə AR DİN-nin müavini polis general leytenantı Oruc Zalovun müsahibəsinə nəzər yetirək: «Narkotik vasitələrlə bağlı aşkar edilmiş cinayətlər 10,7%, o cümlədən satış məqsədilə 8,2% çox aşkar edilmişdir. Tədbirlər nəticəsində 64,6 kq narkotik, o cümlədən 10 kq-a yaxın tiryək, 43,7 kq marixuana, 6,7 kq heroin, 5 kq-dan çox həşiş və xeyli miqdarda narkotik tərkibli bitkilər götürülərək istintaqa təhvil verilmişdir.»[43]

---

[41] AR-nın Qanunlar toplusu. № 10 31 oktyabr 2005-ci il, səh. 2785
[42] Azərbaycan qəzeti. 01 iyul 2006-cı il. səh. 7.
[43] Azərbaycan qəzeti. № 143 (4367), 01.07.06. səh. 8.

Yaxud da Daxili İşlər Nazirliyi və Respublika Baş Prokurorluğu mətbuat xidmətlərinin məlumatına diqqət yetirək:

«Göstərilən müddət ərzində narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı fəal mübarizənin aparılmasına da xüsusi diqqət yetirilərək 1300-ə yaxın cinayət faktı aşkar edilmişdir.

Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi əməkdaşlarının yüksək peşəkarlıqla həyata keçirdiyi xüsusi əməliyyatla Cəlilabad rayon sakini Müslüm Mustafayev, satış məqsədi ilə əldə etdiyi külli miqdarda narkotik vasitələr, o cümlədən 202 qram heroini, 1 kiloqrama yaxın həşişi və təxminən 1,3 kiloqram tiryəki satarkən cinayət başında yaxalanmışdır.

Cari il iyunun 1-də Astara rayon sakini Nadir Ələkbərovun satış məqsədi ilə Bakı-Sankt-Peterburq sərnişin qatarı ilə külli miqdarda narkotik vasitəni aparması barədə daxil olmuş məlumat üzrə Nəqliyyatda Baş Polis İdarəsi tərəfindən keçirilmiş əməliyyat tədbirləri nəticəsində qatarın kupelərindən birində gizlədilmiş 11 kiloqramdan artıq həşiş aşkar edilərək götürülmüşdür. N.Ələkbərov saxlanılmış və barəsində həbs qətimkan tədbiri seçilmişdir.

Baş Narkotiklərlə Mübarizə İdarəsinin regional şöbəsinə daxil olmuş məlumat əsasında



isə külli miqdarda narkotik vasitənin satışı ilə bağlı daha bir fakt təsdiqini tapmışdır.

Keçirilmiş əməliyyatla 2006-cı il iyunun 26-da, Gəncə şəhər sakini, əvvəllər məhkum olunmuş Ağarəşid Əliyev 7 kq marixuananı satarkən tutulmuşdur. Onun mənzilinə baxış zamanı əlavə olaraq 3 kq marixuana aşkar edilmişdir. Bu sahədə ardıcıllıqla davam etdirilən əməliyyat tədbirləri ilə İran İslam Respublikasından qaçaqmalçılıq yolu ilə gətirilmiş 3,7 kiloqrama yaxın heroin də götürülmüşdür. Fakt üzrə İmişli rayon sakini İbrahim Şükürov, Beyləqan rayon sakini Elşad Baxşəliyev və İran İslam Respublikasının vətəndaşı Mollai Şəhruz tutulmuşlar.

Yuxarıda göstərilən cinayətlərin digər iştirakçılarının və götürülən narkotik vasitələrin mənbəyinin müəyyən edilməsi istiqamətində tədbirlər davam etdirilir».[44]

Yuxarıda qeyd etdiyimiz kimi, narkotik cinayətlərlə bağlı işlərin istintaqı zamanı prosessual fəaliyyəti həyata keçirən məsul şəxsin problemlə ilgili spesifik elementləri yaxşı başa düşmək üçün fundamental biliyə malik olmağın zəruriliyi faktdır. Bunu Respublikamızda 2001-

---

[44] Azərbaycan qəzeti. № 143 (4367), 01.07.06. səh. 8.

2005-ci illərdə narkotik vasitələrlə bağlı cinayətlərin istintaqının yekun nəticələri də bir daha sübut edir. Həmin cədvələ nəzər yetirək:

| Narkotik vasitələrlə bağlı (şəxslər) | Cinayət törətmiş şəxs müəyyən edilmişdir (cəmi) | ümumi sayından: Cinayət məsuliyyətindən azad edilmiş şəxslər | | | | |
|---|---|---|---|---|---|---|
| | | CPM-nin 39-cu maddəsinin bəraətverici olmayan bəndlərinə əsasən | | o cümlədən amnistiya ilə əlaqədar | | CPM-nın 40-cı maddəsinə əsasən |
| | | Xitam edilmiş işlər üzrə | Rədd materiallar üzrə | Xitam edilmiş işlər üzrə | Rədd materiallar üzrə | |
| | | 1 | 2 | 3 | 4 | 5 |
| 2001 | 2091 | 69 | 5 | 63 | 3 | 6 |
| 2002 | 1955 | 9 | 7 | 1 | | 9 |
| 2003 | 1827 | 65 | 4 | 55 | | 14 |
| 2004 | 1797 | 9 | 2 | 2 | | 2 |
| 2005 | 1707 | 60 | | 8 | | |

Fikrimizi daha yaxşı əsaslandırmaq üçün cədvəldə istnad olunan AR CPM-nin 39-cu və 40-cı maddələrinin bəzi bəndlərinə baxaq.

«CPM-nin cinayət təqibini istina edən hallar»[45] adlı 39-cu maddəsinin 39.1. bəndinin təyinatında göstərilir ki, aşağıdakı hallarda cinayət təqibi başlna bilməz, başlanılmış cinayət təqibinə isə xitam verilməlidir. «Cinayət hadisəsi

[45] AR CPM. Maddə 39. səh. 30



olmadıqda»[46], «Əməldə cinayət tərkibi olmadıqda»[47] və s. CPM-nin 40-cı maddəsində isə «Cinayət təqibinin həyata keçirilməməsinə imkan verən hallar»[48] şərh olunur. 40.1. maddəsində cinayət qanunu ilə nəzərdə tutulmuş cinayət məsuliyyətindən və cəzadan azad etmə hallarının mövcudluğu cinayət təqibinin həyata keçirilməməsinə imkan verir təyinatını bildirir. Yəni, əsas kimi «səmimi peşmanlıq çəkdikdə»[49], «zərərçəkmiş şəxslə barışdıqda»[50], «şərait dəyişdikdə»[2] və s. Yəqin ki, cədvəldə göstərilən sayda xitam edilən işlər CPM-nin 39-cu maddəsinə istinadən qərarlaşdırılmışdır.

Diqqəti çəkən məqamlardan biri odur ki, AR CPM-nin 40-cı maddəsinin 40.2.1., 40.2.2., 40.2.3. bəndlərinin ehtiva etdiyi bəndlərin imtiyazlarından sui-istifadə halları da baş verə bilər (cədvəldəki göstəricilərin düzgünlüyünə heç bir şübhəmiz yoxdur – S.M.). Hesab edirik ki, bu amili nəzərə alaraq narkotiklərlər bağlı cinayətlərin çözülməsi prosesində CPM-nin 40-cı maddəsində cinayətlərin xarakterindən asılı olaraq müəyyən istisnalıq təşkil edən halları nəzərə alaraq bəzi qeydlər aparılsın. Məsələn,

[46] Yenə orada, Maddə 39.1.1. səh. 30
[47] Yenə orada, Maddə 39.1.2. səh. 30
[48] AR CPM. Maddə 40.2.1., Bakı, 2006, səh. 32.
[49] Yenə orada, Maddə 40.2.2. səh. 32
[50] Yenə orada, Maddə 40.2.3.

40-cı maddənin 40.2.4. bəndində 14 iyun 2005-ci il tarixli qanunla «Cinayət işi» sözləri «Cinayət təqibi» sözləri ilə əvəzləndiyi, yaxud əlavə və dəyişiklik edildiyi kimi.

Deməl qanunların təkmilləşdirilməsinə həmişə ehtiyac vardır. Bütün cinayətlərin, o cümlədən narkotiklərlə bağlı cinayətlərin araşdırılmasında prosessual fəaliyyət zamanı mühüm həyatı əhəmiyyətə malik olan Azərbaycan Respublikasının Cinayət-Prosessual qanunvericiliyi BMT-nin narkotiklər haqqında konvensiyalarına uyğun olaraq təkmilləşdirilməlidir.

Biz də çalışdıq ki, bu tədqiqatımızda BMT-nin «Narkotik vasitələr haqqında 1961-ci il Konvensiyası»nın, «Psixotrop maddələr haqqında 1971-ci il Konvensiyası»nın, «Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında 1988-ci il Konvensiyası»nın dünyəvi mahiyyət daşıyan bəzi maddələrini şərh edək və onların Azərbaycan Respublikasının Cinayət-Prosessual qanunvericiliyinin müvafiq maddələri ilə müqayisəli təhlilini aparaq.

Hesab edirəm ki, bu istiqamətdə elmi-tədqiqat işlərinin aparılması mühüm əhəmiyyət daşıyır və o özünün yeni daha fundamental araşdırıcısını gözləyir.



## Nəticə

BMT-nin narkotiklər haqqında konvensiyaları və Azərbaycan Respublikasının Cinayət-Prosessual Qanunvericiliyi kontekstində apardığımız elmi-tədqiqat işlərinin nəticəsi kimi qeyd etməliyik ki, qəbul olunan konvensiyaların dünya dövlətlərinin cinayət-prosessual qanunvericiliyində təsbit olunması zəruri və təqdirəlayiqdir.

Azərbaycan da BMT-yə üzv qəbul olunandan sonra müstəqil dövlət kimi özünün milli qanunvericiliyində narkotiklərlə bağlı konvensiyaların müvafiq maddələrinin təyinatlarını nəzərə alması ölkəmizin dünya sivilizasiyasına gedən yolda olmasına və beynəlxalq hüquq normalarını əsas prinsiplər kimi dəyərləndirdiyinə dəlalət edir. Bu mənada gəlinən nəticəni aşağıdakı kimi təsnif etmək olar:

- BMT-nin «Narkotik vasitələr haqqında 1961-ci il konvensiyası»nın, «Psixotrop maddələr haqqında 1971-ci il konvensiyası»nın, «Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında 1988-ci il konvensiyası»nın müddəaları ümumbəşəri dəyərləri özündə ehtiva edir və bu problemin qloballaşmasının qarşısının alınmasına yönəldilmişdir;

- BMT-nin narkotiklər haqqında konvensiyaları Azərbaycan qanunvericiliyində, xüsusilə Azərbaycan Respublikasının Cinayət-Prosessual Qanunvericiliyində (1996-cı ildə «Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası»nın yaradılması, 2000-ci il 15 iyulda «Narkotik vasitələrin, psixitrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə Proqram»ın təsdiq olunması, 2001-ci ildə Milli Məclis tərəfindən «Narkoloji xidmət və nəzarət haqqında» Azərbaycan Respublikasının Qanununun təsdiq edilməsi və s. deyilənlərə misal ola bilər.) müəyyən qədər özünün əksinin tapmışdır;

- Narkotiklərlə bağlı problemlər dünyəvi xarakter daşıdığından konvensiyaların qəbulu BMT-nin zəruri addımlar atmağı vacib etdiyi kimi Azərbaycandakı narkosituasiya və narkotranzit problemin dövlət səviyyəsində həllini strateji səviyyəyə çatdırdığından ona qarşı mübarizə məsələləri Azərbaycan Respublikasının Cinayət - Prosessual Qanunvericiliyi çərçivəsində qanuniləşdirilmişdir;

- Azərbaycan Respublikasının Qanunvericilik orqanları tərəfindən müxtəlif dövrlərdə BMT-nin narkotiklər haqqında və digər problemlərlə ilgili qanun, fərman, sərəncamlar verilsə də onlar konvensiyaların maddələrinin təsir sərhədlərini tam əhatə etmir;



- Azərbaycan Respublikasının Cinayət-Prosessual Qanunvericiliyi beynəlxalq hüquq normalarına uyğunlaşdırılsa da onun mənbələrindən sayılan cinayət-prosessual məcəlləsinin təkmilləşdirməyə ehtiyacı vardır. Buna nail olmaqdan ötrü isə fundamental elmi – tədqiqatların aparılması zəruridir.

## Kitabiyyat

1.Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsi. Bakı,2006

2. Az. Resp-sı prezidentinin 26 avqust 1996-cı il tarixli 485 saylı fərmanı

3. Az. Resp-nın Cinayət Məcəlləsi, Bakı, 2000

4. Az. Resp-nın Cinayət Prosessual Məcəlləsi, Bakı, 2003

5. Az. Resp-nın Gömrük Məcəlləsi, Məcəllələr külliyatı, Bakı, 2004

6. Az. Resp-nın Mülki Prosessual Məcəlləsi, Məcəllələr külliyatı, Bakı, 2004

7. Az. Resp-nın İnzibati Xətalar Məcəlləsi, Məcəllələr külliyatı, Bakı, 2004

8. Az. Resp-nın Məcəllələr külliyatı, Bakı, 2004

9. Az. Resp-nın Konstitusiyası, Bakı, 1996

10. «Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında» Azərbaycan Respublikasının Qanununun tətbiq edilməsi barədə AR prezidentinin 2000-ci il 8 fevral tarixli 278 nömrəli Fərmanı

11. «Azərbaycan Respublikasının Cinayət Prosesssual Məcəlləsinin tətbiq edilməsi barədə



Azərbaycan Respublikasının prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanı

12. «Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin Strukturunun və Əsasnaməsinin təsdiq edilməsi haqqında» Azərbaycan Respublikasının prezidentinin 27 oktyabr 1998-ci il tarixli 7 nömrəli Fərmanı

13. AR-nın Milli Təhlükəsizlik Nazirliyi və İİR-nin Daxili İşlər Nazirliyi arasında sərhəd məsələləri, narkotik vasitələr, psixotrop maddələrin qaçaqmalçılığına qarşı mübarizə sahəsində AR prezidentinin 12 iyun 2002-ci il sərəncamı ilə təsdiq edilmiş əməkdaşlıq Memorandumu, 18 iyun 2002-ci il Respublika qəzeti

14. Əliyev İ.H. «Biz narkotiklərə qarşı qətiyyətlə mübarizə aparacağıq» Azad Azərb. qəzeti, 3 dekabr 2003

15. Əliyev İ.H. «Ermənistanın işğal etdiyi nəzarətsiz ərazilərdə monitorinq keçiriliməlidir», Azərbaycan qəzeti, 05.12.03

16. Əliquluyev A., Qanun jurnalı, № 5-6, Bakı, 1999

17. Fiziki şəxslər tərəfindən istehsal və kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların AR-nın Gömrük sərhəddindən keçirlməsi qaydaları, AR-nın Nazirlər Kabinetinin 31 may 2001-ci il tarixli qərarı, Respublika qəz. 01.05.01.

18. Hüquqi dövlət və qanun, 1998, № 1
19. Həsənov E.H. Narkotiklərlə bağlı cinayətlər, Bakı, 2000
20. Həsənov E.H. Narkotizm: «Meyllər və aradan qaldırma tədbirləri», Bakı, 1999
21. Quliyev A.İ. Prosessual sənədlərin nümunələri, Bakı, 1996
22. Məhkəmə ekspertizası qarşısında qoyulan sualların nümunəvi siyahısı, Bakı, 199823.. 23.Məmmədov F.M., Mustafayev M. Cinayət axtarış hüququnun əsasları, Bakı, 2002
24. Məmmədov F.M. Xarici ölkələrin polis orqanları, Bakı, 2002
25. Məmmədov F. AR Gömrük orqanlarının əməliyyat-axtarış fəaliyyəti sahəsində qanunvericilik, Qanuçuluq jurn. № 10, Bakı, 2003
26. Məmmədov S.S. Narkotizm və ona qarşı mübarizənin bəzi məsələləri, Sosial-siyasi problemlər, elmi məqalələr torlusu, X buraxılış, Bakı, 2004
27. Məmmədov S.S. Narkotik cinayətkarlığın cəmiyyətdəki bəzi təzahürləri, Sosial-siyasi prblemlər, X buraxılış, Bakı, 2004
28. Məmmədov S.S. Narkotizmin cəmiyyətdə bəzi təzahürləri və onlara qarşı mübarizə. Bakı, 2004
29.Məmmədov S.S. Narkotik cinayətkarlıqların təzahürləri və onlara qarşı



mübarizənin problemləri (Cinayət - Prosessual Aspektlər), Bakı,2005
30. Musayev Ş.M. Məhkəmə təbabəti, Bakı, 2002
31. Narkomanlığa və narkotik vasitələrin qanusuz dövriyyəsinə qarşı tədbirlər haqqında Az. Resp. Prezidentinin 26 avqust 1996-cı il tarixli Fərmanı, Azərb. qəz. 27.08.1996
32. «Narkotik vasitələr, psixotrop maddələr və prekursorlar» (sənədlər toplusu), Bakı, 2003
33. «Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə haqqında» Az. Resp.-nın 18 iyun 1999-cu il tarixli qanunu
34. «Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi haqqında» Qanun jurn. 18 iyun № 11.12, Bakı, 1998
35. «Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə haqqında» Az. Resp.-nın qanunun tətbiq edilməsi ilə əlaqədar Az. Resp.-nın qan-lik Aktlarında dəyişikliklər və əlavələr edilməsi barədə AR-nın Qanunu, Azərbaycan qəzeti, 01 dekabr 2001-ci il
36. «Narkoloji xidmət və Nəzarət haqqında» AR-nın Qanunu, Azərbaycan qəzeti, 08.09.2001
37. «Psixatriya yardımı haqqında» AR-nın Qanunu, Azərbaycan qəzeti, 11.09.2001

38. «Narkoloji xidmət və Nəzarət haqqında» AR-nın Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Azərbaycan qəzeti, 19.09.2001

39.Səməndərov F.Y. Cinayət hüququ ümumi hissə, Bakı, 2002

40.Агаларзаде Р.З, «Клинико-социальная характеристика лиц, страдающих гашшиной интоксикатцей» Материалы 11-го республиканского съезда неврапотологов, психиатров и нейрохирургов. Баку, 1988

41. Аргунов М. Иран в борьбе с белой смертью, журнал «Азия и Африка сегодня», № 9, 2000

42. Вопрос психоневрологии, № 11, Баку, 1998

43. Вородин С.В. Теоретические проблемы советской уголовной политики. ВКН «XXIV» съезд КПС и дальнейшее укрепление социалистической законности», М., 1977

44. Габани А.А. «На краю пропасти: наркомания и наркоманы», Москва, 1999

45. Герсензон М.М. «Уголовное право и социология», Москва, 1970

46. Галперин М.М., Кирдлядский В.И. «Основные направления борьбы с преступностей», Москва, 1975



47. Готшлаг Кейт. «Под маской борьбы с наркодельцами», Азия и Африука сегодня, Журнал № 109, Москва, 2000

48. Исмаилова И.А. Уголовная политика как сложная система., МВ и ССО Аз.ССР

49. Исмаилова И.А. «Преступности и уголовная политика как сложная система», Баку, 1990

50. Клименко Т.М. Уголовная ответственность за незаконный оборот наркотиков. Криминалистических и уголовно правовой аспекты. Саратов, 1999

51. Кирченко В.Н. Противодействие незаконному обороту наркотических средств и психотропных веществ. Санкт-Петербург, 2003

52. Майоров А.А., Малинин В.Б. Наркотики: преступность и преступления. Изд-во «Юридический центр Пресс», 2002

53. Мишин А.А., Власихин В.А. Конституция США. Политика-правовой комментарий. М., 1985

54. Пятницкая И.И, Клиническая наркология. М., 1975

55. Прохова М.Л. Наркотизм: Уголовно-правовое и криминалистическое исследование, Изд-во «Юридический центр Пресс», 2002

56. Ситникова Б.П. «Наркотика и политика», США: Экономика, политика, идеология. № 3, 1987

57. Курс международного права. Москва, 1966

58. Карпетс И.И. Преступления Международного характера. М., 1979
59. Комсомольская правда, М., 15 декабря 1998
60. Явин Л.С. Сущность права. Ленинград, 1985
61. Зийадов А. Белая смерть. Ганун № 4-5. Бакы, 1999
62. Зеркало, газета 27 март 1999
63. Хвелинг Л. Нигерия против наркомафии. Азия и Африка сегодня, журнал № 10, 2000
64. Овинский В.С. Составитель правовые основы деятельности органов госнарконтроля.
65.Göstərilən ədəbiyyatlardan əlavə BMT-nin narkotiklər haqqında konvensiyalarının ehtiva olunduğu rus və ingilis dillərində olan müxtəlif mənbələrdən də istifadə edilmişdir.



## Mündəricat

Giriş ........ 3
Fəsil 1.NARKOTİKLƏRLƏ BAĞLI BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ KONVENSİYALARININ QƏBUL EDİLMƏSİNİ ZƏRURİ EDƏN AMİLLƏR
1.1.BMT və Narkotiklər haqqında Konvensiyalar qanunvericilikdə ........ 7
1.2. BMT-nin konvensiyalarında narkotik vasitələr, beynəlxalq cinayətlərin subyekti kimi ........ 38
1.3 Konvensiyaya qoşulmuş dövlətlərin psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə mübarizədə birgə fəaliyyətinin zəruriliyi ........ 66
FƏSİL II. NARKOTİK VASİTƏLƏR VƏ PSİXOTROP MADDƏLƏR HAQQINDA BMT-nin KONVENSİYALARI VƏ AZƏRBAYCAN RESPUBLİKASININ CİNAYYƏT-PROSESSUAL QANUNVERİCİLİYİ
2.1. BMT-nin narkotiklər haqqında konvensiyaları Azərbaycan respublikasının cinayyət-prosessual qanunvericiliyi kontekstində ........ 86
2.2.Azərbaycan Respublikasının Cinayət-Prosessual qanunvericiliyinə əsasən narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsinə qarşı mübarizənin bəzi aspektləri .... 105
2.3. Azərbaycan Respublikasıınn cinayət-prosessual qanunvericiliyinə və BMT-nin narkotiklər haqqında kovensiyalarına istinadən narkotik cinayətlərin istintaqı ........ 122
Nəticə ........ 143
Kitabiyyat ........ 146

Çapa imzalanmış 30.08.2006-cı il
Kağız formatı 60x84 1/16, çap vərəqi 10
Sifariş 255, sayı 500, qiyməti sərbəst.

ADPU-nun mətbəəsi
Bakı, Ü.Hacıbəyov küçəsi, 34
Tel: 493-74-10